# HƏYAT BİLGİSİ

# 3

## METODİK VƏSAİT



layihə

Elşad Yunusov, Gülər Mehdiyeva, Elmina Kazımzadə, Yalçın İslamzadə,
Elmar İmanov, Famil Ələkbərov, İlahə Tağıyeva

# HƏYAT BİLGİSİ 3

Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün
Həyat bilgisi fənni üzrə dərsliyin

# METODİK VƏSAİTİ

Layihə

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**trm@arti.edu.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

# MÜNDƏRİCAT

Giriş ........ 3
III sinif həyat bilgisi fənni üzrə məzmun standartları ........ 5
Mövzular üzrə reallaşdırılacaq alt-standartlar ........ 7
III sinif həyat bilgisi fənni üzrə illik planlaşdırma ........ 9
Şagird nailiyyətlərinin qiymətləndirilməsi ........ 11

**1. MƏN VƏ CƏMİYYƏT** ........ 12
**2. İNSAN VƏ SAĞLAMLIQ** ........ 26
**3. YER VƏ AY** ........ 41
**4. MATERİALLAR VƏ XASSƏLƏRİ** ........ 50
**5. BAYRAMLAR VƏ QƏNAƏT** ........ 60
**6. TƏHLÜKƏSİZLİK VƏ QAYDALAR** ........ 70

Layihə

# Giriş

III sinif üçün nəzərdə tutulmuş həyat bilgisi fənni üzrə dərslik komplekti dərslik, metodik vəsait və iş dəftərindən ibarətdir. Fənn proqramının tələbinə uyğun olaraq sosial-humanitar elmlərin və təbiət elmlərinin məzmun bilikləri və bacarıqları müvafiq yaş qrupuna görə seçilmiş, onların inteqrativ öyrədilməsi nəzərdə tutulmuşdur.

*Həyat bilgisi fənninin tədrisi təhsilalanların hər hansı bir fəaliyyət sahəsi, eləcə də şəxsi inkişaf, sosiallaşma, vətəndaşlıq, insan hüquqları və azadlıqları, ədalətlilik, dözümlülük, tolerantlıq, özünə və başqalarına hörmət, cəmiyyətə inteqrasiya və ömürboyu təhsil üçün zəruri olan bilik, bacarıq, yanaşma və dəyərlərini inkişaf etdirməyə imkan verir. Bununla yanaşı, ətraf mühiti qorumaq, fövqəladə hallar və təbii fəlakətlər zamanı düzgün davranış, canlılar aləminə qayğı, məsuliyyətli vətəndaşlıq, şəxsi və cəmiyyətin sağlamlığının qorunmasına təşviq etmək öhdəliyinin inkişafına, həm də təbiət elmlərinə dair ilkin biliklərin və bacarıqların qazanılmasına xidmət edir.*

*Fənnin sosial məzmun istiqamətində nəzərdə tutulan məqsəd və vəzifələri aşağıdakılardır:*

1. *Fəndə fərd, ailə, cəmiyyət və dövlət münasibətləri, cəmiyyətin sosial-iqtisadi həyatı, insan hüquqları və vətəndaşlıq məsələləri öz əksini tapır. Bu istiqamətdə yer alan standartların reallaşdırılması nəticəsində şagirdlər insanı sosial varlıq kimi səciyyələndirməyi, yaşadığı mühiti bilik, bacarıq və əmək əsasında dəyişdirməyi öyrənirlər. Həmçinin uşaqların ailəsini, xalqını və Vətənini sevən demokratik düşüncəli şəxsiyyət kimi formalaşması üçün zəruri bilik, bacarıq və dəyərlərə yiyələnmələri və cəmiyyətə inteqrasiyası təmin edilir.*
2. *Şagirdlərin mədəniyyətlərin ümumi və fərqli cəhətləri, həmçinin multikulturalizm haqqında təsəvvürlərinin formalaşması, demokratik dəyərləri (tolerantlıq, plüralizm, həssaslıq) mənimsəməsi hədəflənir.*
3. *Sosial-iqtisadi istiqamətdə standartların reallaşdırılması şagirdlərin resursların (su, elektrik enerjisi, təbii qaz, ərzaq və s.) məhdudluğunu, onlardan qənaətlə istifadənin zəruriliyini anlamasına, şəxsi və ailə büdcələrini idarə etmək bacarıqlarının qazanılmasına yönəlir.*
4. *Şagirdlərin milli və bəşəri dəyərləri mənimsəməklə ailədə, məktəbdə və cəmiyyətdə qəbul edilən normalara uyğun ədəb, davranış və ünsiyyət bacarıqları nümayiş etdirən, emosional cəhətdən sağlam şəxsiyyətlər kimi yetişməsi nəzərdə tutulur.*
5. *Təbii fəlakətlər və texnogen qəzalar barədə məlumatlı olmaq, fövqəladə hallar zamanı düzgün davranmaq, özünü və yaxınlarını mühafizə etməyi bacarmaq, təhlükəsizlik məsələlərinin rolunu dərk etmək, bu cür problemlə üzləşdikdə necə hərəkət etmək və özünü mühafizə qaydalarını bilmək əsas məqsədlərdəndir.*

*Fənnin təbiət elmləri istiqamətində məqsəd və vəzifələri aşağıdakılardır:*

1. *Həyat bilgisi fənninin ümumi təlim nəticələri təbiət elmlərinin əsas anlayışlarını təqdim edərək şagirdlərin koqnitiv və affektiv inkişafı üçün məhsuldar mühit yaradır. Bu mərhələdə təbiət elmləri fiziki elmlər (fizika, kimya və coğrafiya) və həyat elmləri (anatomiya, botanika və zoologiya kimi biologiya sahələri) olaraq qruplaşdırılır və hər ikisi vahid perspektivdən təqdim olunur.*
2. *Müvafiq yaş qrupunun psixomotor inkişaf səviyyəsi nəzərə alınmaqla standartların tələbinə uyğun nəzərdə tutulan fəaliyyətlər şagirdlərin mövzuya dair suallar vermək, nəticələri müşahidə etmək, müqayisə etmək və sinifləndirmək kimi fundamental proses bacarıqlarını inkişaf etdirir.*
3. *Şagirdlərdə təbiət elmlərinə maraq formalaşdırmaqla onları təbiət fənlərinin tədrisinin növbəti mərhələsinə hazırlayır.*

Layihə

XXI əsrin iş və sosial mühiti üçün zəruri olan bilik, bacarıq və səriştələri formalaşdırmaq məqsədilə həyat bilgisi fənninin tədrisi *sorğu və tədqiqata əsaslanan təlim* metodu ilə həyata keçirilir. *Sorğu və tədqiqata əsaslanan təlim* zamanı şagirdlərə məzmunla əlaqəli və onlara tanış olan situasiya təqdim olunur. Şagirdlər verilmiş situasiyaya dair istiqamətləndirici suallarla müzakirəyə və ilkin biliklərini ifadə etməyə cəlb olunurlar. Növbəti mərhələlərdə yaş səviyyəsinə uyğun seçilmiş müxtəlif fəaliyyətlər yerinə yetirilməklə nəticələr ümumiləşdirilir və öyrənmə materialında təqdim olunur. Bu metod vasitəsilə məzmun biliklərinin konkret misallardan başlayaraq ümumi anlayışlara doğru inkişafı nəzərdə tutulur.

***Fənnin tədrisində istifadə olunan təlim modeli***

*Sorğu və tədqiqata əsaslanan təlim* metodu dərslərin, əsasən, *5E modelinə* (5E: *engage, explore, explain, elaborate* və *evaluate* sözlərinin baş hərflərinin sayını ifadə edir) görə qurulmasını nəzərdə tutur. 5E modeli şagirdlərin sual vermək, müşahidə aparmaq, refleksiya etmək, problemin həll yollarını müəyyənləşdirmək və nəticələri yoldaşları ilə paylaşmaq bacarıqlarını inkişaf etdirmək üçün əlverişli modeldir.

5E dərs modeli ilə qurulan dərslər müəyyən ardıcıllığa əsaslanır. Bu ardıcıllıq şagirdlərin öyrənmə mərhələləri ilə səsləşir və aşağıdakı mərhələlərdən ibarətdir:

*1. Maraqoyatma (Engage)*

Şagirdlər onlara tanış olan bir situasiya və istiqamətləndirici suallar təqdim edilməklə müzakirəyə dəvət olunurlar. Burada məqsəd şagirdlərin ilkin bilikləri ilə dərsin təlim nəticələri arasında əlaqə qurmaq, onlarda mövzuya maraq oyadaraq fəaliyyət mərhələsinə hazırlamaqdır.

*2. Fəaliyyət (Explore)*

İkinci mərhələdə şagirdlər fəaliyyətlərə cəlb olunur, nəticələri müzakirə edir və konkret nəticələrlə tanış olduqdan sonra ümumi anlayışları öyrənməyə hazır olurlar.

*3. Öyrənmə (Explain)*

Bu mərhələdə fəaliyyət mərhələsinin nəticələri ümumiləşdirilir, təlim nəticələrində nəzərdə tutulan bilik və anlayışlar təqdim edilir.

*4. Tapşırıq (Elaborate)*

Əvvəlki mərhələnin davamı olaraq bu mərhələdə yeni nümunələr təqdim edilir, anlayışın tətbiq olunduğu əhatə dairəsi genişləndirilir.

*5. Özünüzü yoxlayın (Evaluate)*

Sonuncu mərhələdə təqdim olunan tapşırıqların və sualların köməyi ilə şagirdlərin məzmunu mənimsəmə səviyyələri ölçülür.

Layihə

# III sinif həyat bilgisi fənni üzrə məzmun standartları

**1. Canlılarda struktur və proseslər**

**Şagird:**

**3-1.1. Canlılara xas olan həyati prosesləri izah edir.**

3-1.1.1. İnsan və heyvanlara xas olan əsas həyati prosesləri təsvir edir.

3-1.1.2. İnsan və heyvanlarda bədənin daxili üzvlərini onların əsas həyati prosesləri ilə əlaqələndirir.

3-1.1.3. Fosilləri təsvir edir.

**2. Ətraf mühit və biz**

***Şagird:***

**3-2.1. Materialların xassələri ilə onların istifadə sahələri arasında olan əlaqəni izah edir.**

3-2.1.1. Eyni materialın fərqli xassələrini izah edir.

3-2.1.2. Materialların fəaliyyətlər nəticəsində dəyişməsini təsvir edir.

3-2.1.3. Fərqli məqsədlər üçün uyğun materialların seçilməsini izah edir.

**3-2.2. Enerjinin müxtəlif növlərini və enerji çevrilmələrini müəyyən edir.**

3-2.2.1. Yanacaq yanarkən istilik ayrıldığını izah edir.

3-2.2.2. Temperatur kəmiyyətini anlayır.

3-2.2.3. İstilik keçirici və istilik izolyatoru olan maddələri fərqləndirir.

3-2.2.4. İstiliyin ötürülmə istiqamətini müəyyən edir.

**3-2.3. İşığın yayılmasını təsvir edir.**

3-2.3.1. Şəffaf və qeyri-şəffaf materialları fərqləndirir.

3-2.3.2. Kölgənin yaranmasını izah edir.

**3-2.4. Günəş sistemindəki cisimlərin hərəkətini və onların Yerdən müşahidə olunan qanunauyğunluqlarını izah edir.**

3-2.4.1. Yerin öz oxu ətrafında fırlanmasının coğrafi nəticələrini izah edir.

3-2.4.2. Gün ərzində kölgənin dəyişməsini Yerin öz oxu ətrafında fırlanması ilə əlaqələndirir.

3-2.4.3. Yerin və Ayın qarşılıqlı mövqeyini təsvir edir.

***3.*** **Sağlamlıq və təhlükəsizlik**

***Şagird:***

**3-3.1. Gigiyena qaydalarının, sağlam qidalanmanın və fiziki aktivliyin sağlamlığın qorunmasındakı əhəmiyyətini izah edir.**

3-3.1.1. İnsan dişlərini və onlara qulluq qaydalarını təsvir edir.

3-3.1.2. Sağlamlığı qorumağın yollarını təsvir edir.

3-3.1.3. İnsanlarda xəstəliyin ümumi əlamətlərini təsvir edir.

**3-3.2. Məişətdə və gündəlik fəaliyyətdə həyat və sağlamlığın mühafizəsi ilə bağlı zəruri təhlükəsizlik qaydalarına əməl edir.**

3-3.2.1. Qadağan və xəbərdarlıq işarələrinin mənasını izah edir.

3-3.2.2. Qida və içkilərdən istifadə zamanı təhlükəsizlik qaydalarını sadalayır.

3-3.2.3. Nəqliyyat vasitələrində təhlükəsizlik qaydalarını izah edir.

3-3.2.4. Zəruri yol nişanlarını fərqləndirir.

**3-3.3. Fövqəladə hadisələr zamanı həyat və sağlamlığın mühafizəsi ilə bağlı zəruri təhlükəsizlik qaydalarını izah edir.**

3-3.3.1. Təbii fövqəladə hadisələri təsvir edir.

Layihə

3-3.3.2. Təbii fövqəladə hadisələr zamanı təhlükəsizlik qaydalarını sadalayır.
3-3.3.3. Texnogen qəza zamanı təhlükəsizlik qaydalarını sadalayır.

**4. İnsan və cəmiyyət**

***Şagird:***

**3-4.1. İnsanın sosial varlıq olduğunu başa düşür.**

3-4.1.1. İnsanı xarakterizə edən müsbət və mənfi keyfiyyətləri fərqləndirir.
3-4.1.2. Sağlam kollektivin formalaşmasında qarşılıqlı köməyin rolunu izah edir.
3-4.1.3. "Cəmiyyət" anlayışını insanların birgə yaşayışı kimi izah edir.
3-4.1.4. "Dostluq" anlayışını sadə şəkildə izah edir.

**3-4.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.**

3-4.2.1. Şəxsi büdcəsindən səmərəli istifadəni izah edir.
3-4.2.2. Qənaət və israf anlayışlarını müqayisəli izah edir.

**3-4.3. Dövlətçilik barədə biliklərini nümayiş etdirir.**

3-4.3.1. Rəsmi dövlət bayramları haqqında fikirlərini ifadə edir.
3-4.3.2. "Milli birlik" barədə fikirlərini ifadə edir.

**3-4.4. Hüquqi biliklərə malik olduğunu nümayiş etdirir.**

3-4.4.1. Öz hüquqlarının və başqalarının hüquqlarının pozulmasına münasibət bildirir.
3-4.4.2. Məktəb daxilində hüquqları pozulduğu zaman müraciət edəcəyi ünvanları sadalayır.

**3-4.5. Ünsiyyət mədəniyyətinə riayət edir.**

3-4.5.1. Ünsiyyət zamanı başqalarının fikirlərinə tolerant yanaşır.

**3-4.6. Mədəni müxtəlifliyə hörmət edir.**

3-4.6.1. Milli bayramlar haqqında ümumi məlumat verir.
3-4.6.2. Dini bayramlar haqqında ümumi məlumat verir.

Layihə

## Mövzular üzrə reallaşdırılacaq alt-standartlar

| № | Bölmə və mövzular | Alt-standartlar |
|---|---|---|
| | **BÖLMƏ – 1. Mən və cəmiyyət** | |
| 1 | **Hüquqlarımız** | 3-4.4.1. Öz hüquqlarının və başqalarının hüquqlarının pozulmasına münasibət bildirir.<br>3-4.4.2. Məktəb daxilində hüquqları pozulduğu zaman müraciət edəcəyi ünvanları sadalayır. |
| 2 | **Müsbət keyfiyyətlərimiz** | 3-4.1.1. İnsanı xarakterizə edən müsbət və mənfi keyfiyyətləri fərqləndirir. |
| 3 | **Eşitmək və dinləmək** | 3-4.5.1. Ünsiyyət zamanı başqalarının fikirlərinə tolerant yanaşır. |
| 4 | **Biz və dostlarımız** | 3-4.1.4. “Dostluq” anlayışını sadə şəkildə izah edir. |
| | **Birlikdə yaşamaq** | 3-4.1.2. Sağlam kollektivin formalaşmasında qarşılıqlı köməyin rolunu izah edir.<br>3-4.1.3. “Cəmiyyət” anlayışını insanların birgə yaşayışı kimi izah edir. |
| | **Milli birlik** | 3-4.3.2. “Milli birlik” barədə fikirlərini ifadə edir. |
| | **BÖLMƏ – 2. İnsan və sağlamlıq** | |
| 5 | **Canlılar və fosillər** | 3-1.1.1. İnsan və heyvanlara xas olan əsas həyati prosesləri təsvir edir.<br>3-1.1.3. Fosilləri təsvir edir. |
| 6 | **Bədən üzvləri** | 3-1.1.2. İnsan və heyvanlarda bədənin daxili üzvlərini onların əsas həyati prosesləri ilə əlaqələndirir. |
| 7 | **Skelet və əzələlər** | 3-1.1.2. İnsan və heyvanlarda bədənin daxili üzvlərini onların əsas həyati prosesləri ilə əlaqələndirir. |
| 8 | **Sağlamlıq və qidalanma** | 3-3.1.2. Sağlamlığı qorumağın yollarını təsvir edir.<br>3-3.1.1. İnsan dişlərini və onlara qulluq qaydalarını təsvir edir. |
| | **Qida məhsulları** | 3-3.1.2. Sağlamlığı qorumağın yollarını təsvir edir.<br>3-3.2.2. Qida və içkilərdən istifadə zamanı təhlükəsizlik qaydalarını sadalayır. |
| | **Xəstəlik və sağlamlıq** | 3-3.1.3. İnsanlarda xəstəliyin ümumi əlamətlərini təsvir edir. |
| | **BÖLMƏ – 3. Yer və Ay** | |
| 9 | **Yer kürəsi və Ay** | 3-2.4.1. Yerin və Ayın qarşılıqlı mövqeyini təsvir edir. |
| 10 | **Yerin fırlanması** | 3-2.4.1. Yerin öz oxu ətrafında fırlanmasının coğrafi nəticələrini izah edir. |
| 11 | **İşıq və kölgə** | 3-2.3.1. Şəffaf və qeyri-şəffaf materialları fərqləndirir.<br>3-2.3.2. Kölgənin yaranmasını izah edir. |
| 12 | **Kölgənin yerini dəyişməsi** | 3-2.3.2. Kölgənin yaranmasını izah edir.<br>3-2.4.2. Gün ərzində kölgənin dəyişməsini Yerin öz oxu ətrafında fırlanması ilə əlaqələndirir. |
| | **BÖLMƏ – 4. Materiallar və xassələri** | |

layihə

| | | |
|---|---|---|
| 14 | **Materialların xassələri** | 3-2.1.1. Eyni materialın fərqli xassələrini izah edir.<br>3-2.1.2. Materialların fəaliyyətlər nəticəsində dəyişməsini təsvir edir. |
| 15 | **Materialların istifadəsi** | 3-2.1.3. Fərqli məqsədlər üçün uyğun materialların seçilməsini izah edir. |
| 16 | **İstilik və temperatur** | 3-2.2.1. Yanacaq yanarkən istilik ayrıldığını izah edir.<br>3-2.2.2. Temperatur kəmiyyətini anlayır. |
| 17 | **İstiliyi yaxşı və pis keçirən materiallar** | 3-2.2.3. İstilik keçirici və istilik izolyatoru olan maddələri fərqləndirir.<br>3-2.2.4. İstiliyin ötürülmə istiqamətini müəyyən edir. |
| | **BÖLMƏ – 5. Bayramlar və qənaət** | |
| 18 | **Bayramlar** | 3-4.6.1. Milli bayramlar haqqında ümumi məlumat verir.<br>3-4.6.2. Dini bayramlar haqqında ümumi məlumat verir. |
| 19 | **28 May** | 3-4.3.1. Rəsmi dövlət bayramları haqqında fikirlərini ifadə edir. |
| 20 | **Ehtiyaclarımız və istəklərimiz** | 3-4.2.1. Şəxsi büdcəsindən səmərəli istifadəni izah edir.<br>3-4.2.2. Qənaət və israf anlayışlarını müqayisəli izah edir. |
| | **BÖLMƏ – 6. Təhlükəsizlik və qaydalar** | |
| 22 | **Təbii fəlakətlər** | 3-3.3.1. Təbii fövqəladə hadisələri təsvir edir.<br>3-3.3.2. Təbii fövqəladə hadisələr zamanı təhlükəsizlik qaydalarını sadalayır. |
| 23 | **Diqqətli və ehtiyatlı olaq** | 3-3.3.3. Texnogen qəza zamanı təhlükəsizlik qaydalarını sadalayır. |
| 24 | **Təhlükəsizlik nişanları** | 3-3.2.1. Qadağan və xəbərdarlıq işarələrinin mənasını izah edir. (İnşaat ərazisi, su kanallarının yaxınlığı, su hövzələri, su anbarları, döyüş əməliyyatları aparılmış ərazilər.) |
| 25 | **Danışan nişanlar** | 3-3.2.3. Nəqliyyat vasitələrində təhlükəsizlik qaydalarını izah edir.<br>3-3.2.4. Zəruri yol nişanlarını fərqləndirir. |

Layihə

## III sinif həyat bilgisi fənni üzrə illik planlaşdırma (68 saat)

## I yarımil üzrə planlaşdırma

| Mövzu № | Mövzu | Məzmun (təlim nəticələri) | Saatlar (1 saat) |
|---|---|---|---|
| | | | |
| | **BÖLMƏ – 1. Mən və cəmiyyət** | | |
| 1 | Hüquqlarımız | 3-4.4.1, 3-4.4.2 | 2 |
| 2 | Müsbət keyfiyyətlərimiz | 2-4.1.1 | 2 |
| 3 | Eşitmək və dinləmək | 3-4.5.1 | 2 |
| 4 | Biz və dostlarımız | 3-4.1.4 | 2 |
| 5 | Birlikdə yaşamaq | 3-4.1.2, 3-4.1.3 | 2 |
| 6 | Milli birlik | 3-4.3.2 | 2 |
| | **KSQ – 1** | | 1 |
| | **BÖLMƏ ÜZRƏ ÜMUMİ** | | **13** |
| | **BÖLMƏ – 2. İnsan və sağlamlıq** | | |
| 5 | Canlılar və fosillər | 3-1.1.1, 3-1.1.3 | 2 |
| 6 | Bədən üzvləri | 3-1.1.2 | 2 |
| 7 | Skelet və əzələlər | 3-1.1.2 | 1 |
| | Sağlamlıq və qidalanma | 3-3.1.2, 3-3.1.1 | 2 |
| | Qida məhsulları | 3-3.1.2, 3-3.2.2 | 2 |
| 8 | Xəstəlik və sağlamlıq | 3-3.1.3 | 2 |
| | **KSQ – 2** | | 1 |
| | **BÖLMƏ ÜZRƏ ÜMUMİ** | | **12** |
| | **BÖLMƏ – 3. Yer və Ay** | | |
| 9 | Yer kürəsi və Ay | 3-2.4.1 | 2 |
| 10 | Yerin fırlanması | 3-2.4.1 | 2 |
| 11 | İşıq və kölgə | 3-2.3.1, 3-2.3.2 | 2 |
| 12 | Kölgənin yerini dəyişməsi | 3-2.3.2, 3-2.4.2 | 2 |
| | **KSQ – 3** | | 1 |
| | **BÖLMƏ ÜZRƏ ÜMUMİ** | | **9** |
| | **I YARIMİL ÜZRƏ ÜMUMİ** | | **34** |

Layihə

## II yarımil üzrə planlaşdırma

| | | | |
|---|---|---|---|
| **BÖLMƏ – 4. Materiallar və xassələri** | | | |
| 14 | Materialların xassələri | 3-2.1.1, 3-2.1.2 | 4 |
| 15 | Materialların istifadəsi | 3-2.1.3 | 3 |
| 16 | İstilik və temperatur | 3-2.2.1, 3-2.2.2 | 3 |
| 17 | İstiliyi yaxşı və pis keçirən materiallar | 3-2.2.3, 3-2.2.4 | 2 |
| | **KSQ – 4** | | 1 |
| | **BÖLMƏ ÜZRƏ ÜMUMİ** | | 13 |
| **BÖLMƏ – 5. Bayramlar və qənaət** | | | |
| 18 | **Bayramlar** | 3-4.6.1, 3-4.6.2 | 3 |
| 19 | **28 May** | 3-4.3.1 | 2 |
| 20 | **Ehtiyaclarımız və istəklərimiz** | 3-4.2.1, 3-4.2.2 | 3 |
| | **KSQ – 5** | | 1 |
| | **BÖLMƏ ÜZRƏ ÜMUMİ** | | **9** |
| **BÖLMƏ – 6. Təhlükəsizlik və qaydalar** | | | |
| 22 | **Təbii fəlakətlər** | 3-3.3.1, 3-3.3.2 | 3 |
| 23 | **Diqqətli və ehtiyatlı olaq** | 3-3.3.3 | 2 |
| 24 | **Təhlükəsizlik nişanları** | 3-3.2.1 | 3 |
| 25 | **Danışan nişanlar** | 3-3.2.3, 3-3.2.4 | 3 |
| | **KSQ – 6** | | 1 |
| | **BÖLMƏ ÜZRƏ ÜMUMİ** | | **12** |
| | **II YARIMİL ÜZRƏ ÜMUMİ** | | **34** |
| | **II SİNİF ÜZRƏ CƏMİ** | | **68** |

Layihə

# ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Qiymətləndirmə şagird nailiyyətlərinin ölçülməsi olub, fənn kurikulumunda nəzərdə tutulan təlim nəticələrinin mənimsənilmə dərəcəsini əks etdirir. Bu, tədris fəaliyyətinin zəruri və ayrılmaz hissəsidir, ardıcıl və sistemli xarakter daşıyır.

Qiymətləndirmənin ən mühüm rolu öyrənməni təşviq etmək və şagirdlərin inkişafını izləməkdir.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi etibarlılıq, uyğunluq, çeviklik və şəffaflıq prinsipləri əsasında təmin edilir.

Həyat bilgisi fənni üzrə qiymətləndirmələr şagirdlərin aşağıdakı bacarıqlarını qiymətləndirmək məqsədi daşıyır:

- hadisələri və prosesləri izah etmək;
- problemləri həll etmək üçün bilgiləri, anlayışları və prinsipləri tətbiq etmək;
- fərziyyələri formalaşdırmaq;
- praktiki bacarıqlar nümayiş etdirmək;
- verilənləri müxtəlif formalarda, məsələn, cədvəllər, qrafiklər, diaqramlar, sxemlər, illüstrasiyalar şəklində təqdim etmək;
- diaqramlar, fotoşəkillər, sxemlər, qrafik şəklində verilən həm kəmiyyət, həm də keyfiyyət məlumatlarını təhlil və şərh etmək;
- öyrəndiklərinin həyata tətbiqi haqqında anlayışları nümayiş etdirmək;
- etik, əxlaqi, sosial, iqtisadi və texnoloji məlumatları təhlil və şərh etmək;
- fərdə, cəmiyyətə və ətraf mühitə təsir edən məsələlərlə bağlı təkliflər vermək və mühakimə yürütmək.

Həyat bilgisi fənnində bilik və bacarıqların aşağıdakı əsas qiymətləndirmə növləri ayırd edilir:

- *Diaqnostik* qiymətləndirmə tədris ilinin əvvəlində və ya hər bir bölmənin əvvəlində şagirdlərin bilik və bacarıqlarının, eləcə də maraq və motivasiyasının ilkin qiymətləndirilməsi məqsədilə həyata keçirilir. Eyni zamanda müəllimlərə tədrisə başlamazdan əvvəl fənn üzrə şagirdlərin cari biliklərini, onların bacarıq və qabiliyyətlərini müəyyən etməyə və yanlış təsəvvürləri aradan qaldırmağa kömək edir.
- *Formativ* qiymətləndirmə şagirdlərin həyat bilgisi fənn kurikulumunda müəyyən edilmiş təlim nəticələrinin mənimsənilməsinə yönəldilmiş fəaliyyətinə nəzarət etmək, bu prosesdə qarşıya çıxan çətinlikləri müəyyənləşdirmək və aradan qaldırmaq məqsədilə həyata keçirilir. Eyni zamanda tədris prosesi zamanı nailiyyətin (və ya geriləmələrin) izlənilməsinə dair əks əlaqə və məlumat təqdimatına kömək edir.
- *Summativ* qiymətləndirmə həyat bilgisi fənn kurikulumunda təsbit edilmiş təlim nəticələrinin mənimsənilməsində şagird nailiyyətlərini müəyyən etmək məqsədilə aparılır. Eyni zamanda tədris başa çatdıqdan sonra şagirdlərin mənimsədiklərini tətbiqetmə qabiliyyətinə nə dərəcədə malik olduqlarını aşkara çıxarmağa kömək edir.

**Qiymətləndirmə vasitələrinin və tapşırıqlarının hazırlanması**

Şagirdlərin bilik və bacarıqlar üzrə səriştələrə yiyələnməsinin qiymətləndirilməsi prosesi həm formativ, həm də summativ məqsədlər üçün mümkün qədər etibarlı və dəqiq olmalıdır.

1. Müvafiq qiymətləndirmə tapşırıqlarının hazırlanmasını istiqamətləndirmək və daha yaxın uyğunluğu təmin etmək üçün "Qiymətləndirmə məqsədləri" "Təlim məqsədləri" ilə uyğunlaşdırılmalıdır.
2. Anlayış və bacarıqların yoxlanılması üçün hazırlanan qiymətləndirmə tapşırıqları aydın, birmənalı olmalıdır.
3. Qiymətləndirmə tapşırıqlarının hazırlanması zamanı təhsilalanların profilləri nəzərə alınmalıdır.
4. Hazırlanmış tapşırıqlar vaxtaşırı nəzərdən keçirilməli, münasib və etibarlı olmalarını təmin etmək üçün təkmilləşdirilməlidir.
5. Qiymətləndirmələr və imtahanlar zamanı şagirdlərin bütün qabiliyyət və bacarığı nəzərə alınmalıdır (inklüzivlik).
6. Qiymətləndirmələr və imtahanlar ədalətli və qərəzsiz olmalıdır. Ədalətlilik eyni zamanda qiymətləndirmələrin hər bir şagirdin həyat bilgisi fənni üzrə fəaliyyətinin etibarlı ölçüsünü təmin etməsini nəzərdə tutur ki, onlar təkrarlansa, nəticələr çox oxşar olacaq (ədalətlilik, obyektivlik və etibarlılıq).

Layihə

**1-ci BÖLMƏ**

# Mən və Cəmiyyət

| Mövzu № | Adı | Saat | Dərslik (səh.) | İş dəftəri (səh.) |
|---|---|---|---|---|
| Mövzu 1 | Hüquqlarımız | 2 | 8 | 4 |
| Mövzu 2 | Müsbət keyfiyyətlərimiz | 2 | 11 | 6 |
| Mövzu 3 | Eşitmək və dinləmək | 2 | 14 | 8 |
| Mövzu 4 | Biz və dostlarımız | 2 | 17 | 10 |
| Mövzu 5 | Birlikdə yaşamaq | 2 | 20 | 12 |
| Mövzu 6 | Milli birlik | 2 | 23 | 14 |
| | Ümumiləşdirici tapşırıqlar | | 26 | 16 |
| | **KSQ** | 1 | | |
| | **CƏMİ** | **13** | | |

**Bölmənin qısa icmalı.**




Dərslik ənənəvi olaraq sosial yönümlü mövzulardan ibarət bölmə ilə başlayır. Mövzular özünün və yoldaşlarının mənəvi keyfiyyətlərini müəyyənləşdirən və bu keyfiyyətləri cəmiyyət həyatı baxımından qiymətləndirməyi bacaran, özünün və ətrafındakı insanların hüquqlarının pozulmasına münasibət bildirən şəxsiyyətin formalaşmasına istiqamətlənmişdir. Aşağı siniflərdə fiziki fərqləri, həvəs və maraqları müqayisə etməyi bacaran şagird 3-cü sinifdə mənəvi keyfiyyətləri ayırd edərək, bu keyfiyyətlərin toplum həyatı üçün əhəmiyyətini əsaslandırır.

“Hüquqlarımız” adlı ilk mövzu şagirdin uşaq hüquqlarının hansı hallarda pozulduğunu müəyyən etməsinə və belə hallarda adekvat davranış sərgiləməsinə yönəlmişdir. Mövzu vasitəsilə şagird vətəndaş cəmiyyətinin fəal üzvü kimi çıxış etməyin, yalnız özünün deyil, yoldaşlarının (ətrafındakı insanların) da hüquqlarının pozulmasına münasibət bildirməyin vacibliyini öyrənir.

“Müsbət keyfiyyətlərimiz” mövzusunu özündən əvvəlki “Hüquqlarımız” mövzusu ilə bağlayan insanın şəxsi keyfiyyətlərinin araşdırılmasıdır. Özünün, hətta başqalarının da hüquqlarının pozulmasına münasibət bildirmək insandan fəallıq, müəyyən mənada cəsarət və dürüstlük tələb edir.

“Eşitmək və dinləmək” mövzusu da “Müsbət keyfiyyətlərimiz”lə bilavasitə bağlıdır. Çünki tolerantlıq, ünsiyyətlilik və əməkdaşlıq etməyi bacarmaq insanın müsbət keyfiyyətləri kimi təsnif edilir.

Bölmənin 4-cü – “Biz və dostlarımız” mövzusu 2-ci mövzunu davam etdirir. Şagird öyrənir ki, dostluqda vacib olan keyfiyyətlər – dürüstlük, sədaqət, kömək, bölüşmək müsbət keyfiyyətlərdir və yaxşı dost olmaq üçün özündə bu keyfiyyətləri tərbiyə etmək vacibdir.

“Birlikdə yaşamaq” mövzusu şagirdlərin toplum həyatı və cəmiyyət anlayışını araşdırmasına, ətrafdakı insanlara heç bir təmənna güdmədən kömək etməyin birgəyaşayış prinsiplərindən biri olmasını anlamasına yönəlmişdir.

Bölmənin sonuncu “Milli birlik” mövzusu insan hüquqları, mənəvi keyfiyyətlər və cəmiyyətdəki birgəyaşayış prinsiplərinin araşdırılmasından sonra əldə edilən məntiqi nəticədir. Özünü tanıyan, hüquqlarını bilən, özünün və ətrafındakı insanların hüquqlarının pozulmasına münasibət bildirməyi bacaran, birgəyaşayış qaydalarına əməl edən insanlar bir arada olanda cəmiyyətdə ortaq maraq və ümumi mənafe anlayışı ortaya çıxır. Bu, milli dövlətçiliyin təşəkkülündə və möhkəmlənməsində mühüm amildir.

**Bölməyə giriş.** Müəllim ilk mövzuya hüquqlarla bağlı bilik və bacarıqların diaqnostikası ilə başlaya bilər. Şagird öz hüquqlarını bildiyini nümayiş etdirdikdən sonra, bu hüquqların pozulması hallarında adekvat davranışı öyrədən ilk mövzunun tədrisinə keçmək olar.

Layihə

**Mövzu 1**

**Hüquqlarımız**
- **Dərslik:** səh. 8 – 10
- **İş dəftəri:** səh. 4

| | |
|---|---|
| **Alt-standartlar** | **3-4.4.1. Öz hüquqlarının və başqalarının hüquqlarının pozulmasına münasibət bildirir.**<br>**3-4.4.2. Məktəb daxilində hüquqları pozulduğu zaman müraciət edəcəyi ünvanları sadalayır.** |
| **Təlim məqsədləri** | • Hüquqlarının və başqalarının hüquqlarının pozulmasını təhsildən kənarlaşdırılma, sağlamlığa zərər vurulması, istirahətin pozulması kimi sadalayır.<br>• Hüquqları pozulduğu zaman müraciət edəcəyi ünvanları sinif rəhbəri, məktəb direktoru olaraq sadalayır. |
| **Köməkçi vasitələr** | |
| **Resurslar** | *https://www.unicef.org/azerbaijan/az/biz-n%C9%99-il%C9%99-m%C9%99%C5%9F%C4%9Fuluq/u%C5%9Faqlar%C4%B1n-m%C3%BCdafi%C9%99si* |

**Dərsin qısa planı**
**Cəlbetmə.** İstirahət hüququ ilə bağlı müsahibə
**Fəaliyyət.** “Məktəbə gedirəm” (rollu oyun)
**Öyrənmə.** Öz hüquqlarını qorumaq üçün adekvat davranış nümayiş etdirmək
**Tapşırıq.** Dərslik: tap. №1-3. İD: №.1-3
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Mövzunun 3-cü sinifdə “Həyat bilgisi” fənni üzrə ilk dərs olmasını nəzərə alaraq dərsə uşaqların yay tətilində necə əylənmələri barədə müsahibə ilə başlamaq olar. Kiçik müsahibədən sonra *“Yay tətilində dincəlib əylənərkən siz hansı hüququnuzdan istifadə etmişsiniz*?” sualı verilə bilər. Cavab *“İstirahət hüququ”* olmalıdır.

**FƏALİYYƏT** **“Kəndə gedirəm!” rollu oyun**
Fəaliyyətin təşkilində də cari mövzunun ilk dərs olması nəzərə alınaraq şagirdlərin marağını artırmaq üçün rollu oyun təklif olunur. Yaradıcı oyunun məktəbyaşlı uşaqların öyrənmə və inkişafı üçün əhəmiyyəti böyükdür. Yaradıcı oyunlar uşağın kreativlik və ifadə bacarıqlarını stimullaşdırır;
- fikirlərini, hisslərini və ideyalarını verbal və qeyri-verbal yollarla ifadə etməsinə yardımçı olur;
- problemlərin daha çox həll yollarının tapılmasına kömək edir;
- məsələlərə fərqli prizmalardan baxmaq imkanı yaradır;

Oyun zamanı bir şagird fərqli rollar ifa edə bilər. Fərqli obrazlar yaratmala sagird dünyaya digər şəxslərin gözü ilə baxmağı bacaracaq. Rollu oyun kommunikasiya vərdişlərini inkişaf etdirə və uşağa hisslərini ifadə etməkdə yardım edərək real həyati problemlərin öhdəsindən gəlmək üçün material verə bilər. Yaradıcı oyun məktəbyaşlı uşaqlara özlərini ifadə etmək, ideyalarını üzə çıxarmaq, problemlərin həlli yollarını tapmaq və məsələlərə müxtəlif prizmalardan baxmaqda kömək edir.
Günay və Elxanın dialoqu üzərində qurulan oyunun tamamlanması üçün isə şagirdləri qruplara bölmək və hər qrupa öz versiyasını təqdim etməyi tapşırmaq olar. Sonra cavabları lövhədən asaraq ən uyğun sonluğu şagirdlərlə birlikdə müzakirə etmək mümkündür. Bu zaman şagirdlər bir-birinin işini də dəyərləndirmiş olacaqlar.



Layihə

**ÖYRƏNMƏ** Öyrənmə mətni fənn kurikulumundakı iki təlim nəticəsinin reallaşdırılmasına xidmət edir. Bunlardan biri öz hüquqlarının və başqalarının hüquqlarının pozulmasına şagirdin münasibət bildirməsi, digəri isə məktəb daxilində hüquqları pozulduğu zaman müraciət edəcəyi ünvanları bilməsi ilə bağlıdır.
Bu mövzu şagirdlərin 2-ci sinifdə öyrəndiklərini daha yüksək bilik və bacarıqlar səviyyəsində mənimsəməsinə istiqamətlənib. Başqa sözlə, öz hüquqlarını bilən şagird bu mövzu vasitəsilə hüququnu reallaşdırmaq istədiyi zaman qarşılaşa biləcəyi maneələr və bu maneələrə qarşı atmalı olduğu tədbirləri də öyrənir.

**Müzakirə**

*"Laqeyd qalmaq" nə deməkdir?* sualı özündə mövzu ilə bağlı böyük məna yükü daşıyır. Əslində, 3-cü sinif şagirdlərindən ictimai şüurun vətəndaşlıq borcu, vətəndaş məsuliyyəti kimi yüksək kateqoriyalarına əməl etmələrini gözləmək və bu barədə mülahizələr yürütmələrini istəmək hələ tezdir. Amma vətəndaşlıq borcunu və vətəndaş məsuliyyətini öz hisslərindən üstün tutan şəxsiyyətin yetişməsi elə bu yaşlardan başlayır. Təlimdə bu xüsusiyyət nəzərə alınmırsa, böyüməkdə olan gənc nəsil üçün cəmiyyətin maraqları ilə bağlı məsələlərə konformizm və laqeydlik prizmasından baxmaq daha rahat seçim kimi görünə bilər. Ona görə də sözün daşıdığı leksik mənanı mövzu ilə birbaşa əlaqələndirib, bunun cəmiyyət həyatı üçün heç də uğurlu bir seçim olmadığını şagirdlərin nəzərinə çatdırmaq lazımdır.
Müzakirənin ikinci sualı – *Sizin təhsil almaq hüququnuz pozulubmu? O zaman necə hərəkət etmisiniz?* isə şagirdləri öz təcrübələrinə yeni bilikləri aspektindən baxmağa istiqamətləndirir.

**TAPŞIRIQ** 1-ci tapşırıqda cədvəli doldurmaq təklif olunur. Cədvəldə hüquqlar və onlarla bağlı fəaliyyətlər verilmişdir. Şagird sağlamlıq, istirahət və təhsil hüququ ilə bağlı fəaliyyətlərdən birini – təhsil hüququnun pozulduğunu müəyyən etməli, kitabxanaçının ona lazım olan kitabı verməməsini təhsil hüququnun pozulması kimi dəyərləndirməlidir. Tapşırıq mövzuda reallaşan ikinci standartı da əhatə edir: şagirddən bu zaman hansı addımı atmalı olması soruşulur. Şagird öyrənmə mətninə əsasən müvafiq cavabı – bu barədə sinif rəhbərinə məlumat verməli olduğunu qeyd etməlidir.
2-ci tapşırıq həyətdə oynayan uşaqların istirahət hüququnun böyüklər tərəfindən pozulması və uşaqların buna hansı reaksiyanı göstərməli olması soruşulur.
3-cü tapşırıq hüquqi biliklərin mənimsənilməsinə retrospektiv baxış kimi dəyərləndirilə bilər. Test tapşırığında uşağın ailəsi ilə yaşamaq, valideynlərinin soyadını daşımaq kimi şəxsi hüquqları xatırlanır.

**Diferensial təlim.**

*Dəstək*. Şagirdə uşaq hüquqlarının pozulmasına aid nümunələr göstərməyi təklif etmək olar.
*Dərinləşdirmə*. Şagirdə hər hansı hüququnun pozulması ilə bağlı məlumatın mətnini tərtib etmək tapşırıla bilər.

**Müəllim üçün əlavə məlumat.** Bəzən uşağın hüquqları yalnız öz yaşıdları və təlimlə yaxınlığı olmayan insanlar tərəfindən deyil, elə valideynlərin və müəllimlərin özləri tərəfindən pozulur. Təhsilverənlər etik davranış qaydalarına əməl etməzsə, bu, şagirdlərin hüquqlarının pozulmasına vəsilə olur. Bu baxımdan Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyası tərəfindən Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli, 2242 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə"nin müvafiq yarımbəndlərini rəhbər tutaraq 15 may 2024-cü ildə qəbul olunan "Təhsilverənlərin etik davranış Qaydaları" bütün növ təhsil müəssisələrində çalışan təhsilverənlərə şamil edilir. Qaydaların əsas məqsədi təhsil müəssisələrində işgüzar, sağlam emosional və psixoloji mühitin təmin edilməsinə, vətəndaşların təhsil müəssisələrinə və təhsilverənlərə etimadının artırılmasına, təhsilverənlərlə təhsil prosesinin digər iştirakçıları arasında münasibətlərin idarə olunmasına, təhsilverənlərin nüfuzunun yüksəldilməsinə, təhsil müəssisələrinin fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılmasına və maraqların toqquşmasının qarşısının alınmasına nail olmaqdan ibarətdir. Hər bir təhsilverən öz fəaliyyətində qanunun aliliyini, insan hüquqlarını, demokratik prinsipləri rəhbər tutaraq bu Qaydaların müddəalarına əməl etməyə borcludur. https://e-qanun.az/framework/56915

Layihə

ÖZÜNÜZÜ YOXLAYIN

• Hüquqlarınız pozularsa, nə etməlisiniz? (*Siz hansı halda hüququnuzu pozulmuş hesab edərdiniz? (təhsil, sağlamlıq, istirahət) Sinif rəhbərinə bu barədə necə məlumat verərdiniz?)*

• Başqalarının hüquqlarının pozulduğunu görsəniz, buna münasibətiniz necə olar? *(Bu şəxs sizin dostunuz, sinif yoldaşınız, tanışınız olarsa? Yaxud bunlardan heç biri olmazsa necə?)*

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Hüquqlarının və başqalarının hüquqlarının pozulmasını təhsildən kənarlaşdırılma, sağlamlığa zərər vurulması, istirahətin pozulması kimi sadalayır. | Fəaliyyət, tapşırıq 1 ,2, 3 |
| Hüquqları pozulduğu zaman müraciət edəcəyi ünvanları sinif rəhbəri, məktəb direktoru olaraq sadalayır. | Tapşırıq 1 |

## Mövzu 2

**Müsbət keyfiyyətlərimiz**
- **Dərslik:** səh. 11
- **İş dəftəri:** səh. 6

| | |
|---|---|
| **Alt-standartlar** | **3-4.1.1. İnsanı xarakterizə edən müsbət və mənfi keyfiyyətləri fərqləndirir.** |
| **Təlim məqsədləri** | • İnsanı xarakterizə edən müsbət keyfiyyətləri (sadəlik, təvazökarlıq, səbirlilik) fərqləndirir.<br>• İnsanı xarakterizə edən mənfi keyfiyyətləri (lovğalıq, qorxaqlıq) fərqləndirir. |
| **Köməkçi vasitələr** | A4 vərəqi, rəngli qələmlər, yapışqan lent |
| **Resurslar** | İnklüziv təhsil. Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. Fəsil 11. Sosial səriştələrin təşviqi. Loreman, T., Deppeler, J., Harvey, D. *https://www.static.inkluzivtehsil.edu.az/book/files/İnklüziv%20təhsil.pdf* |

**Dərsin qısa planı**
**Cəlbetmə.** Müsbət keyfiyyətlərin müzakirəsi
**Fəaliyyət.** «Mən necəyəm?»
**Öyrənmə.** Özünüdərketmə və özünütənzimləmə bacarıqlarının öyrənilməsi
**Tapşırıq.** Dərslik: tap. №1-3. İD: №.1,2
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

CƏLBETMƏ

Müəllim dərsə şagirdlərin mövzu ilə bağlı düşüncələrini cəmləməyə və maraqlarını oyatmağa imkan verən qısa bir söhbətlə, məsələn, özünün kiçik məktəb xatirəsini paylaşmaqla başlaya bilər. Söyləyə bilər ki, məktəbdə ən yaxın dostu kim olub və onu hansı müsbət keyfiyyətlərinə görə dəyərləndirirdi. Müzakirə zamanı *"Sinifdə pozitiv münasibətlər nə üçün vacibdir? İnsanın mehribanlığı bu münasibətlərə necə təsir edir?"* kimi istiqamətləndirci suallardan istifadə tövsiyə olunur.

FƏALİYYƏT **"Mən necəyəm?"** adlı fəaliyyət həm fərdi, həm də cütlərdə təşkil edilir. Bu fəaliyyəti yerinə yetirməklə şagirdlər özlərinə aid fikirləri başqaları ilə bölüşərək **özünüdərketmə** bacarıqlarını inkişaf etdirirlər. Özünüdərketmə şagirdlərin öz hiss və düşüncələrini nə dərəcədə dəqiq bilmələrinin və bunun onların davranışlarına necə təsir etdiyini başa düşmələrinin sosial-emosional bacarıqlarından biridir. Fəaliyyət iki mərhələdən ibarətdir. Birinci, refleksiyanı təşviq edən, öz təcrübələri və cəhətləri barədə düşünüb verilən on keyfiyyətdən özünə aid üçünü seçmək təklif olunur. Sonra hər şagird portretini parta yoldaşına göstərib keyfiyyətlərini müzakirə edir. Şagirdlər şəkillərini müqayisə edib dostlarında fərqli keyfiyyətlərin olduğunu da aşkar edirlər. Müzakirə sualları (*Parta yoldaşınızın fərqli olan xüsusiyyətləri hansılardır? Onlardan hansıların daha çox bəyənirsiniz? Niyə?*) səsləndirilə bilər. Müəllim *"Siz öz keyfiyyətləriniz haqda məlumatı necə öyrənərdiniz? Seçiminizə aid hansı misalı göstərə bilərsiniz?"* əlavə suallar verməklə şəxsi keyfiyyətlər və qarşılıqlı əlaqə haqqında müzakirə təşkil edə bilər.

Layihə

**ÖYRƏNMƏ** Mövzu üzrə alt-standartın reallaşdırılması şagirdin insani keyfiyyətləri tanıyıb fərqləndirməsindən başqa, həm də özünüdərketmə, özünütənzimləmə, məsuliyyətli qərarqəbuletmə, şəxslərarası münasibətlərin idarəetməsi kimi mühüm sosial-emosional bacarıqlarının inkişafını nəzədə tutur. Mətn birinci şəxsin adından təqdim olunub. Şagird öz səbirsizliyi haqqında düşünür və bu keyfiyyətin başqaları ilə münasibətlərə mənfi təsiri onu narahat edir. Hekayə üç hissədən ibarətdir – **nə baş verib**, **nə üçün** (*yaranan çətinliklərin səbəbləri*) və xoşagəlməz nəticələrin qarşısını almaq üçün **nə etmək lazımdır**? Mətndə dinclik və səbri simvolizə edən tısbağanın adından **özünütənzimləmə** sosial-emosional bacarığının inkişafına aid məsləhətlər verilir. İlk addımda emosional tənzimləmə, sakitləşmək və emosional həyəcanı aradan qaldırmaq üçün nə lazım olduğu təsvir edilir *(1. Səbirsizlik etdiyinizi biləndə dərindən nəfəs alıb, özünüzü sakitləşdirin).* İkinci məsləhət vəziyyət, hərəkətlər və onların başqalarına necə təsir edə biləcəyi barədə tənqidi düşünməyə yönəldilir (*2. Hər hansı hərəkəti etməzdən əvvəl düşünün! Sizin hərəkətiniz başqalarına necə təsir edər?).* Üçüncü qayda müsbət davranış nümunələrinin problemlərin konstruktiv həllinə və dostluq münasibətlərinin qurulmasına necə kömək etdiyinə diqqət yetirir. (3. *Pozitiv olun! Problemi həll etmək üçün dostlarınızdan kömək istəyin*). *"Tısbağanın məsləhətləri hansı hallarda sizin üçün faydalı ola bilər?"* müzakirə sualı sosial vərdişlərin tətbiqinə aiddir və pozitiv davranış yollarının təhlilinə yönəldilmişdir. Həmçinin konstruktiv rəy bildirmək üçün bacarıqlar üzərində düşünməyə vadar edir. İkinci və üçüncü suallar (*Səbirli olmaq nə üçün vacibdir? Müsbət keyfiyyətlərinizi inkişaf etdirmək üçün nə edə bilərsiniz?*) şagirdləri yenə də özləri haqqında refleksiyaya yönəldir. Müəllim əlavə suallar verib, tısbağanın üçüncü məsləhətini – "*Problemi həll etmək üçün dostlarınızdan kömək istəyin*"– tövsiyə edir. "*Bununla bağlı öz təcrübənizdən hansı misalı gətirə bilərsiniz*?" sualı özünüdərketmə, özüntənzimləmə və şəxslərarası münasibətlərin idarəedilməsi bacarıqlarının inkişafını gücləndirməyə istiqamətlənmişdir.

**TAPŞIRIQ** **1. Aşağıdakı keyfiyyətlərə uyğun gələn davranışları müəyyən edin.**

**1. LOVĞALIQ** **2. TƏVAZÖKARLIQ** **3. SƏBİRLİLİK** **4. CƏSARƏTLİLİK**

Bu tapşırıq şagirdlərdə şəxsi keyfiyyətlərlə davranışların əlaqələndirilməsinə və tənqidi təhlilnə yönəlib.
- Müzakirədə diqqət mərkəzində olmamağa çalışıram. (TƏVAZÖKARLIQ)
- Düşünürəm ki, hamı mənimlə razılaşmalıdır. (LOVĞALIQ)
- Səhv etdiyim zaman bunu gizlətmirəm, çəkinmədən etiraf edirəm. (CƏSARƏTLİLİK)
- Əsəbi olanda hərəkət etməzdən əvvəl düşünürəm. (SƏBİRLİLİK)

2-ci tapşırıq iki hissədən ibarətdir – evdə baş verən hadisənin təsviri (**situasiya**) və məsələnin həllinə aid müxtəlif məsləhətlər/seçimlər (**məsuliyyətli qərarqəbuletmə**).
**Situasiya.** Anam güldanı kimin sındırdığını soruşdu. Dedim ki, mən sındırmamışam. Düzünü deməyə qorxdum.
**Məsuliyyətli qərarqəbuletmə**. Bu vəziyyətdə məktəbliyə hansı məsləhəti uyğun görərdiniz?
a) Günahkarın pişik olduğunu söyləmək; b) Heç nə olmamış kimi davranmaq; c) Qorxuya qalib gəlmək və baş verənləri olduğu kimi danışmaq; d) Anası gələnə qədər güldanı gizlətmək.
Cavabların müzakirəsi zamanı müəllim aşağıdakı istiqamətləndirici suallardan istifadə etməklə qərarvermə prosesinin modelləşdirilməsində şagirdlərə dəstək ola bilər.

Bu məsləhətin müsbət və mənfi tərəfləri nələrdir?
Bu seçim başqalarına necə təsir edəcək?
Bu seçim sizdə necə hisslər yaradır?
**Diferensial təlim.**

*Dəstək*. Şagirdlərə öz sevimli nağıl və ya animasiya qəhrəmanlarının keyfiyyətləri haqqında danışmağı təklif etmək olar.
*Dərinləşdirmə*. Müəllim şagirdləri özlərində hansı şəxsi müsbət keyfiyyətləri gücləndirmək istədikləri, dostlarının və ailə üzvlərinin bu məsələdə onlara necə kömək edə biləcəyi barədə düşünməyə sövq edə bilər.
**Müəllim üçün əlavə məlumat.** Şagirdlərdə məsuliyyətli qərarqəbuletmə bacarığının modelləşdirilməsində aşağıdakı strategiyaların istifadəsi tövsiyə olunur:
*Uşaqlara seçimlər verin.*
Uşaqlara qərar vermək imkanı yaratdığınız zaman onlar şəxsi təcrübə əldə edəcəklər.

*Problem həlli fəaliyyətlərindən istifadə edin.*
Problemlərin müstəqil həlli zamanı düşüncə proseslərinin inkişafına kömək etməklə uşaqlara dəstək vermək olar.
*Səhvlərdən öyrənməyi öyrədin.*
Uşaqları səhvlərinə görə günahlandırmaqdan çəkinin və səhvlərini araşdırıb öyrənmələrinə kömək edin. Etdikləri seçimdən peşman olsalar belə, qərar qəbul edərkən inamlarını artırmağa çalışın.
*Sosial ssenariləri müzakirə edin*
Müxtəlif vəziyyətlərdə nə edəcəkləri barədə düşünmələrinə kömək etmək üçün, məsələn, yuxarıda verilən tapşırıqdakı kimi, sosial ssenarilərdən istifadə edin.

**ÖZÜNÜZÜ YOXLAYIN**

• Müsbət keyfiyyətlər hansılardır? (*Sadəlik, təvazökarlıq, səbirlilik, cəsarətlilik, nikbinlik)*
• Müsbət keyfiyyətləri necə inkişaf etdirmək olar? (*Dürüst, mehriban və hörmətcil olmaq, başqalarına qayğı göstərmək, problemli vəziyyətləri təhlil etmək, səhvləri qəbul edib açıq müzakirəyə hazır olmaq)*

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| İnsanı xarakterizə edən müsbət keyfiyyətləri (*sadəlik, təvazökarlıq, səbirlilik)* fərqləndirir. | Sual-cavab, tapşırıq 3 |
| İnsanı xarakterizə edən mənfi keyfiyyətləri *(lovğalıq, qorxaqlıq)* fərqləndirir. | Fəaliyyət, tapşırıq 1,2 |

**Mövzu 3**

**Eşitmək və dinləmək**
• **Dərslik:** səh. 14
• **İş dəftəri:** səh. 8

| | |
|---|---|
| **Alt-standartlar** | **3-4.5.1.Ünsiyyət zamanı başqalarının fikirlərinə tolerant yanaşır.** |
| **Təlim məqsədləri** | • Ünsiyyət zamanı fikir ayrılığına hörmətlə yanaşır.<br>• Ünsiyyətdə və əməkdaşlıqda tolerantlıq nümayiş etdirir. |
| **Köməkçi vasitələr** | |
| **Resurslar** | Əsmərin sehrli zənbili. Səsli nağıl<br>*https://www.youtube.com/watch?v=eKtUo1C1yhl* |

**Dərsin qısa planı**
**Cəlbetmə.** Dörd şagird arasında fikir mübadiləsi
**Fəaliyyət.** "Akvarium"
**Öyrənmə.** Səmərəli ünsiyyət bacarıqları
**Tapşırıq.** Dərslik: tap. №1-3. İD: №.1-4
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Mövzuya dərsliyə istinadən uşaqların ilin fəsilləri haqqında fikirləri ilə başlamaq olar. Sonra müzakirə suallarını səsləndirib şəkildəki dörd nəfərdən kiminlə razılaşdıqlarını, kiminlə razı olmadıqlarını soruşmaqla kiçik müzakirə təşkil edilə bilər. Müzakirə zamanı fikirlərin fərqliliyini nəzərə çatdırmaqla müxtəliflik anlayışını vurğulamaq olar *(Sizcə, uşaqların fikirləri niyə müxtəlifdir?*). Müəllim şagirdləri dərsin sonrakı mərhələlərinə hazırlamaq üçün *"Fikirlər fərqlidirsə, nə etmək lazımdır?"* soruşa bilər.



Layihə

**FƏALİYYƏT** “Akvarium” diskussiya mədəniyyətini formalaşdıran və interaktiv öyrənməyə xidmət edən üsuldur. Fəaliyyətin əvvəlində diskussiya aparmaq qaydaları (məsələn, reqlamentə əməl etmək, bir-birinin sözünü kəsməmək və s.) müəyyən edilə bilər. Şagirdlər iki qrupa bölünür. Bir qrup daxili dairədə əyləşərək “*İnsanlar ad günlərində işə və ya məktəbə getməməlidirlər*” fikrini müzakirə edir. Xarici dairədə əyləşmiş qrup isə müzakirənin müşahidəçisi olur. 7-8 dəqiqə sonra diskussiya dayandırılır, xarici dairənin iştirakçıları diskussiyanın gedişini qiymətləndirir və qruplar yerlərini dəyişərək fəaliyyəti ikinci – “*Kitablar filmlərdən daha yaxşıdır*” fikrinin müzakirəsi ilə davam etdirirlər. Fəaliyyətin sonunda eyni qaydada üçüncü – “*Yay tətilləri daha uzun, dərs ili isə daha qısa olmalıdır*” fikrinin müzakirəsi təşkil olunur. Müzakirədə “Başqalarının fikirlərini dinləməklə nə öyrənə bilərik?” sualı empatiya və başqalarını dinləmək bacarığının təhlilinə əsaslanır. Müzakirəni aşağıdakı sualla dərinləşdirmək olar:

- Kimsə sizin fikrinizə hörmət etməyəndə və ya fikrinizi dəyişməyə çalışanda özünüzü necə hiss edirsiniz?

**ÖYRƏNMƏ** Öyrənmə mətni səmərəli ünsiyyət qaydalarını ehtiva edir. Müəllim birinci qaydanı – *“Başqalarının fikirləri sizin fikirlərinizdən fərqli ola bilər. İnsanları daha yaxşı başa düşmək istəyirsinizsə, onları dinləmək vacibdir”* səsləndirib şagirdlərdən bunun izahını xahiş edə bilər. İkinci qaydanın – “*Başqasının fikrini dinləmək o demək deyil ki, siz öz fikirlərinizi dəyişdirməlisiniz*” qaydasının araşdırılması üçün uşaqların şəxsi təcrübələrindən konkret misallar göstərmək təklif oluna bilər. *“Siz öz fikrinizdə qaldığınızı necə bildirdiniz? Həmsöhbətiniz bunu necə qəbul etdi?”* kimi əlavə suallardan istifadə etmək olar. Üçüncü – *“Bir-birinin fərqli fikirlərinə hörmətlə yanaşmaq insanlar arasındakı dostluğu qoruyur”* və dördüncü –*“Nə etməli? Müzakirə zamanı həmişə “Niyə?” və "Necə?" kimi suallar verməklə fərqli fikirləri yaxşı başa düşmək olar. ”* qaydaları səmərəli ünsiyyət bacarıqlarının modelləşdirilməsinə yönəlib. Mövzu müəyyən edib *“Niyə?” və “Necə?” sualları vasitəsilə* dialoq formatında kiçik rollu oyun təşkil etmək də mümkündür.

**Müzakirə**

- Başqalarının fikirləri ilə razılaşmasaq belə, onlara hörmət etməliyik. Bu nə üçün vacibdir?
- Ünsiyyət zamanı başqasının fikrinə hörmət etdiyimizi necə göstərə bilərik?

İkinci sualın müzakirəsində şagirdlərdən jestlər, mimika və s. qeyri-verbal ifadə vasitələri haqqında cavablar gözlənilir. Müəllim müzakirəni ümumiləşdirərək bir neçə aspekti şagirdlərin nəzərinə çatdırmalıdır:
1. Başqalarının fikirləri sizin fikirlərinizdən fərqli olsa da, onları dinləmək vacibdir.
2. İnsanlar fərqləri bilərək bir-birini daha yaxşı tanıyırlar.
3. İnsanlarla səmərəli ünsiyyət qurmaq üçün onları yaxşı tanımaq lazımdır.

**TAPŞIRIQ**



1-ci tapşırıqda ümumi söhbətdən kənarda qalan şagirdin davranış əlamətlərinin əsaslandırılması və bu davranışın düzgün olub-olmaması haqqında müzakirənin təşkili nəzərdə tutulur.
2-ci tapşırıqda şagirdlərin irəli sürülən uyğun fərziyyələri qəbul edilir.
İrəli sürülən fərziyyənin daha dərindən araşdırılması üçün əlavə sual verilə bilər: “Problemi həll etmək üçün nə təklif edə bilərsiniz?”
3-cü tapşıqda şagirdlərə dialoqun təhlili təklif olunur.







Sonuncu iki tapşırıq vasitəsilə şagirdlərin səmərəli ünsiyyətin qaydalarını nə dərəcədə mənimsəməsi yoxlanılır.

**Diferensial təlim.**

*Dəstək*. Şagirdlərə sadə mövzu üzrə bir-biri ilə dialoq qurmaq təklif oluna bilər.

Layihə

*Dərinləşdirmə*. Şagirdlərə öyrənmə mətnində təqdim olunan ünsiyyət qaydalarından istifadə edərək poster hazırlamaq və ora başqa yeni qaydalar da əlavə etmək tapşırıla bilər.

**Müəllim üçün əlavə məlumat.**

Müxtəlif fikirlərə hörmət etmək sosial-emosional öyrənmənin mühüm aspektidir və şagirdlərin gələcək həyatında vacib sosial bacarığa çevrilir.

Səmərəli ünsiyyətlə əlaqəli vacib bacarıqlar bunlardır:

- *Aktiv dinləmə*: başqaları danışarkən onlara diqqət yetirmək, insanların hiss və düşüncələrinə empatiya göstərmək.
- *Empatiya:* eyni fikri paylaşmasanız belə, başqalarının hisslərini başa düşmək və bölüşmək.
- *Münaqişənin həlli*: fikir ayrılıqlarını hörmətli və konstruktiv şəkildə idarə etməyi öyrənmək.
- *Səbatlılıq:* başqalarının fikirlərini dəyişməyə çalışmadan öz fikirlərini, hisslərini dürüst və hörmətlə ifadə etmək.
- *Müxtəlifliyə hörmət*: insanların mənşəyi, təcrübələri və perspektivlərindəki fərqləri qəbul etmək və dəyərləndirmək.

**ÖZÜNÜZÜ YOXLAYIN**

- Başqalarının fikirlərinə hörmətlə yanaşmaq onlarla əməkdaşlığa necə təsir edir?

(*Başqalarının fikirlərinə hörmətlə yanaşmadıqda münaqişə yarana, birgə işin tamamlanması çətinləşə, dostluq münasibətləri pozula bilər.*)

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Ünsiyyət zamanı fikir ayrılığına hörmətlə yanaşır. | Fəaliyyət, tapşırıq 1 |
| Ünsiyyətdə və əməkdaşlıqda tolerantlıq nümayiş etdirir. | Sual-cavab, tapşırıq 2,3 |

## Mövzu 4

**Biz və dostlarımız**
- **Dərslik:** səh. 17
- **İş dəftəri:** səh. 10

| Alt-standartlar | **3-4.1.1.İnsanı xarakterizə edən müsbət və mənfi keyfiyyətləri fərqləndirir.**<br>**3-4.1.4.“Dostluq” anlayışını sadə şəkildə izah edir.** |
|---|---|
| **Təlim məqsədləri** | • Sadəlik, təvazökarlıq, səbir, lovğalıq, qorxaqlıq, xəyanəti fərqləndirir.<br>• “Dostluq” anlayışını sadə şəkildə izah edir.<br>• Dostluqda lazım olan keyfiyyətləri dürüstlük, sədaqət, kömək, bölüşmə kimi izah edir. |
| **Köməkçi vasitələr** | |
| **Resurslar** | https://www.youtube.com/watch?v=GDKLHPhLpzg<br>https://www.youtube.com/watch?v=5IT3s2DdixY |

**Dərsin qısa planı**

**Cəlbetmə.** Dostluq haqqında müsahibə

**Fəaliyyət.** “Özümüzə dost seçək”

**Öyrənmə.** “Dostluq” anlayışının mahiyyəti və dostluq üçün vacib keyfiyyətlər

**Tapşırıq.** Dərslik: tap. №.1-3. İD: №.1-5

**Özünüzü yoxlayın.**

**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim mövzuya sinfə müraciətlə – “Dostluq etmək nə deməkdir?”, “Kim öz dostu haqqında danışmaq istəyir?” sualları ilə başlaya bilər. Bir neçə şagird öz fikrini söylədikdən sonra fəaliyyətə keçmək olar.

Layihə

**FƏALİYYƏT** **"Özümüzə dost seçək"**

Müəllim bu mərhələni özündə bir neçə fəaliyyəti birləşdirən "Düşün – Cütləş – Bölüş – Paylaş" strategiyası üzərində qura bilər. Strategiya özündə fərdi, cütlər, qrup və bütün siniflə iş formalarını ehtiva edir. Bu baxımdan, fəaliyyət həm introvert, həm də ekstrovert şəxsiyyətlər və müxtəlif itellektli növünə aid şagirdlər üçün səmərəli öyrənmə mühiti yarada bilər.

1. Müəllim dərslikdəki tapşırığı şagirdlərə təqdim edir.
2. Şagirdlər tapşırıq üzərində fərdi şəkildə işləyirlər. Bu, "Düşün" mərhələsidir. Düşünmək üçün onlara müvafiq olaraq 1–5 dəqiqə vaxt vermək olar.
3. Vaxt bitəndə müəllim fərdlərə gəldikləri nəticəni yanında oturan yoldaşı ilə müzakirə etməyi təklif edir. Bu, "Cütləş" mərhələsidir. Mərhələ üçün 1–2 dəqiqə vaxt verilə bilər.
4. Cütlərdə iş bitəndə şagirdlər kiçik qruplarda müzakirə aparırlar. Bu, "Bölüş" mərhələsidir və bu mərhələ üçün 3–4 dəqiqə vaxt kifayət edər.
5. "Bölüş" mərhələsindən sonra nəticələr bütün siniflə müzakirə edilir. Bu, sonuncu "Paylaş" mərhələsidir. 2–4 dəqiqə davam edən bu mərhələdən sonra çıxarılan nəticələr yekunda müqaysə edilə bilər.

**ÖYRƏNMƏ** Öyrənmə mətni fənn kurikulumundakı iki təlim nəticəsinin reallaşdırılmasına xidmət edir. Bunlardan biri İnsanı xarakterizə edən müsbət keyfiyyətlərin fərqləndirilməsi, digəri isə "dostluq" anlayışının sadə şəkildə izah edilməsi ilə bağlıdır. Mətndə "dost" və "tanış" anlayışlarının fərqi izah edilir, dostluq daha dərin münasibət kimi dəyərləndirilir. Dostluq etmək üçün insanda lazım olan keyfiyyətlər vurğulanır.

***Müzakirə***

• Dostluqda daha hansı keyfiyyətlər olmalıdır?
• Dostluqda, sizcə, ən vacib keyfiyyət hansıdır?

Şagirdlər əvvəlki dərslərdən öyrəndikləri müsbət keyfiyyətləri yada salıb dostluqda bu keyfiyyətlərin lazım olmasını qeyd edəcəklər.

2-ci müzakirə sualını əsaslandırarkən şagirdlər, əslində, "dostluq" anlayışını necə başa düşdüklərini, bu anlayışa hansı mövqedən baxdıqlarını nümayiş etdirəcəklər.

**TAPŞIRIQ** 1-ci tapşırıqda verilən fəaliyyətlərdən əsl dosta aid olmayan davranışı müəyyən etmək təklif olunur. Tapşırığın cavabı **b** bəndidir.

2-ci tapşırıq dostluqda vacib olan keyfiyyətləri müəyyən etməyi nəzərdə tutur. Doğru cavab **b** və **d** bəndləridir.

3-cü tapşırıqda dahi Azərbaycan şairi Nizami Gəncəvinin ("İsgəndərnamə" poeması, "İqbalnamə"dən Ərəstunun *(Aristotelin)* nəsihəti) yaradıcılığına müraciət edilmişdir:

"Ağıllı adamla dost olsan əgər,
Elmi, mərifəti sənə də keçər" – İfadəsi ilə böyük mütəfəkkirin nə demək istəməsi soruşulur.

Bu tapşırıq ətrafında aparılan müzakirələrin yekunu olaraq dostluq münasibətləri insanın şəxsiyyətinin və intellektinin formalaşmasına ciddi təsir göstərən amil kimi dəyərləndirilir.

**Diferensial təlim.**

*Dəstək*. Şagirdə dostluqda vacib olan keyfiyyətləri sadalaması təklif oluna bilər

*Dərinləşdirmə*. Dostluğun insan üçün əhəmiyyəti soruşula bilər.

**Müəllim üçün əlavə məlumat.** Qədim yunan filosofu *Aristotel* demişdir: "Dostluq həyat üçün ən zəruridir, çünki hər şeyə sahib olsa belə, heç kim özünə dostsuz bir həyat arzulamaz."

Aristotelə görə, dostluğun 3 növü var: Birincisi, qarşılıqlı faydalı dostluqdur. Belə dostluq müvəqqəti faydalara (iş, fəaliyyət və s.) əsaslanır. Belə dost şəxsiyyətinə görə deyil, gətirdiyi faydaya görə dəyərləndirilir. Münasibətlər isti, şəxsiyyətlər bir-biri üçün maraqlı olsa da, fayda bitən kimi dostluq da bitir. İkinci dostluq növü hisslər üzərində qurulur. İnsanlar birlikdə vaxt keçirməyi sevirlər. Belə dostluq duyğulara əsaslanır. Bu cür dostluq insanın keyfiyyətlərinə əsaslanmır, burada önəmli olan birlikdə olmağın xoş duyğular yaratmasıdır.

Aristotelə görə yalnız üçüncü dostluq fəzilətli dostluqdur və insanın keyfiyyətlərinə əsaslanır. Bu tip dostluqda insanın ləyaqəti ön plana gəlir. O, layiqli insandırmı? Onun prinsipləri, mövqeyi varmı, yoxsa hamının dediyi dərhal ağlına batır? Belə dostluqda tərəfləri mənfəət deyil, bir-birinin etik təbiəti – cəsarət, dürüstlük, müdriklik, həqiqət, xeyirxahlıq istəyi və s. keyfiyyətlər maraqlandırır.



Layihə

Aristotelə görə, həqiqi dost şüurlu seçimdir. Birlikdə vaxt keçirməyin əyləncəli olub-olmaması önəmli deyil. Çünki dostluğun məqsədi əyləncə yox, inkişafa doğru birgə fəaliyyətdir. Dostun uğurlu seçim olduğunu göstərən əsas göstərici isə inkişaf etməyimizdir. Dost varlığı ilə bizi inkişafa sövq edir. Fəzilətə əsaslanan dostluq uzun müddət ərzində sınaqdan çıxır və belə münasibəti qurmaq üçün, bir qayda olaraq, hər iki şəxs empatiyaya malik olmalıdır. Empatiyadan və başqalarına qayğı göstərməkdən məhrum insanlar nadir hallarda bu cür münasibətlər qura bilərlər. Çünki onların seçimi, əsasən, həzzə, yaxud faydaya əsaslanır.
[https://antigonejournal.com/2021/03/understanding-friendship-through-aristotle/](https://antigonejournal.com/2021/03/understanding-friendship-through-aristotle/)
Buradan çıxan nəticəni isə belə dəyərləndirmək olar: həqiqi dostluqda digər vacib keyfiyyətlərin mərkəzində empatiya dayanır. Müəllim "Dostluqda ən vacib keyfiyyət hansıdır?" sualının müzakirəsi zamanı empatiyanı xüsusi vurğulaya bilər.

**ÖZÜNÜZÜ YOXLAYIN**

- Dostluq hansı keyfiyyətlərə əsaslanır? (Dostunuzla münasibətinizdə hansı keyfiyyətə (dürüstlük, sədaqət, kömək, bölüşmə) üstünlük verirsiniz?)
- Həqiqi dostluq necə olur? (Dostluğun həqiqi olmasını necə bilmək olar? Həqiqi dostu hansı davranışlarına görə müəyyən etmək olar?)

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Sadəlik, təvazökarlıq, səbir, lovğalıq, qorxaqlıq, xəyanəti fərqləndirir. | Fəaliyyət, tapşırıq 3 |
| "Dostluq" anlayışını sadə şəkildə izah edir. | Fəaliyyət |
| Dostluqda lazım olan keyfiyyətləri dürüstlük, sədaqət, kömək, bölüşmə kimi izah edir. | Tapşırıq 1, 2 |

## Mövzu 5

**Birlikdə yaşamaq**
- **Dərslik:** səh. 20
- **İş dəftəri:** səh. 12

| | |
|---|---|
| **Alt-standartlar** | **3-4.1.2. Sağlam kollektivin formalaşmasında qarşılıqlı köməyin rolunu izah edir.**<br>**3-4.1.3. "Cəmiyyət" anlayışını insanların birgəyaşayışı kimi izah edir.** |
| **Təlim məqsədləri** | • Kollektivin formalaşmasında təmənnasız qarşılıqlı köməyin rolunu izah edir.<br>• Öz sinfinin timsalında insanların birgəyaşayış prinsiplərini təhlil edir. |
| **Köməkçi vasitələr** | A4 vərəqi, rəngli qələmlər. |
| **Resurslar** | |

**Dərsin qısa planı**
**Cəlbetmə.** Komanda işi
**Fəaliyyət.** "Dayancaqlar"
**Öyrənmə.** Məktub
**Tapşırıq.** Dərslik: tap. №1,2. İD: №1,2.
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ**




• Şəkillərdəki uşaqlar birlikdə nə edirlər?
• Sizcə, onlar nə üçün sevinirlər?
• Siz dostlarınızla birgə hansı işlər görmüsünüz?

Cəlbetmə mərhələsində 2-ci sinifdə "Birlikdə" mövzusu vasitəsilə öyrənilən əməkdaşlıq münasibətləri haqqında ümumi məlumatlardan istifadə oluna bilər. Tədris olunan "Birlikdə yaşamaq" mövzusu komanda işi və qarşılıqlı kömək, birlikdə əldə edilən uğurların və ümumi sosial münasibətlərin dərinləşdirilməsinə istiqamətlənmişdir.

Layihə

**FƏALİYYƏT** **“Dayanacaq”** adlı fəaliyyət oyun formatında təşkil olunur. Bu fəaliyyət “Qalereya” adlı metodun modifikasiyasıdır. Qalereya metodu ideyaların yaranmasında fiziki və zehni fəaliyyətin qarışığıdır. Otaqda görünən yerlərdə vərəqlər yerləşdirilir və iştirakçılar rəylərini vərəqlərin üzərində yazıb onların ətrafında gəzişirlər (incəsənət qalereyasında olduğu kimi).
Kiçik qruplara rəngli qələmlər və vərəqlər paylanır. Hər qrup dərslikdə verilən qələmin rənginə uyğun ideyanı seçib öz fikirlərini vərəqə yazır (yapışqan kağızlara yazıb flipçartlarla da yapışdıra bilər). Yazı böyük, aydın və qısa olmalıdır ki, hamı onu asanlıqla oxuya bilsin. Vərəqlər masanın üstündə qalır və şərti olaraq qrupların “dayanacağı” hesab olunur. Hər qrup digər qrupun “dayanacağına” yaxınlaşaraq öz fikirlərini onların vərəqinə yazır. Oyun başlanğıc “dayanacağa“ qədər davam edir.



**ÖYRƏNMƏ** Bədii mətn formatında verilən kiçik hekayə başqasına kömək etmək üçün birləşən bir qrup haqqındadır. Meşə sakinlərinin timsalında sosial qrupun əsas əlamətləri təsvir olunur. Onlar ümumi **məqsəd** (*kosmik gəminin uçmağına kömək etmək*) üçün biləşirlər və **birgə fəaliyyətin** nəticəsində qeyri-mümkün görünən vəzifəni **uğurla** icra edirlər. Hekayə ümumiləşdirilərək cəmiyyət anlayışının izahatı təqdim edilə bilər. *İnsanlar da qruplarda birləşib birgə yaşayır, işləyir və əylənirlər. Ümumi bir məqsəd və fəaliyyət üçün birləşən insanlar qrupu cəmiyyət adlanır. Cəmiyyətdə hər bir fərd ümumi qaydalara əməl edir, insanlar köməkləşir və bir-birinə dəstək olurlar.*
Mətni hissə-hissə oxumaq və hər hissədən sonra sosial qrup əlamətlərini və cəmiyyət prinsiplərini müzakirə etmək tövsiyə olunur.
Müəllim şagirdlərə mətnin hər hissəsini oxumaları və ümumiləşdirmələri üçün yetərli müddət verir. Hər abzasın ümumiləşdirilməsi üçün dəstəkləyici suallar verilə bilər. Yekun müzakirə hekayənin sonunda verilmiş suallar əsasında aparılır. Müəllim şagirdlərə sosial münasibətlər məsələsində öz baxışlarının doğruluğuna qərar verməleri, şəxsi düşüncə və hisslərini dəstəkləmələri üçün əlavə suallar verə bilər.

- Uğurlu komanda işi üçün hansı bacarıq və keyfiyyətlərə sahib oilmaq vacibdir?
- Sinif yoldaşınıza özünü komandanın bir hissəsi kimi hiss etməsi üçün necə kömək edə bilərsiniz?

*Alternativ variant.* Hekayənin “rollu oyun” şəklində təşkil edilməsi mümkündür. Oyundan sonra şagirdlərin sosial qrupların səciyyəvi xususiyyətləri üzrə refleksiyasını gücləndirmək üçün hər bir personajın ifaçısından *nə çətin görünürdü, qəhrəmanlar necə birləşdilər və birgə cəhddən sonra işin öhdəsindən necə gəldilər* kimi məsələləri araşdırmağı, gəmiyə evə qayıtmağa kömək etdikdə hansı hissləri keçirdiklərini təsvir etməyi tapşırmaq olar.

**TAPŞIRIQ**

1-ci tapşırığın sualları şagirdlərin şəkillə təsvir olunan mövzunun əsas məqamlarını necə mənisəməsini yoxlayır.
• Sizcə, bu əhvalat nəyi öyrədir? (*öz məqsədinə təkbaşına çatmaq çətindir, dostlar kömək etməyə hazırdırlar.*)
• Qarışqalar birləşib nəyə nail oldular? *(işi uğurla başa çatdırdılar)*
• Qarışqalar bir-birinə kömək etməsəydi, nə baş verərdi? (*Qarışqalar qış üçün tədarük edə bilmədiklərinə görə ac qalacaqdılar*).



2-ci tapşırıqda şagirdlərin təhliletmə bacarıqları ölçülür.
Şəkildəki insanları birləşdirən nədir? *(şitil əkmək, bağ/park salmaq, alış-veriş, söhbət edib məsləhətləşmək)*

- Onlar hansı hissləri keçirirlər? Bu hisslər onlara necə kömək edir? *(həvəs, sevinc, insanlarda güc və inam yaradır)*

**Diferensial təlim.**
*Dəstək*. Şagirdlərə əməkdaşlıq münasibətləri ilə bağlı şəxsi təcrübələrini təsvir etməyi təklif etmək olar.
*Dərinləşdirmə*. Şagirdlərə sinif yoldaşlarından ibarət olan kollektivi bir cəmiyyət nümunəsi kimi araşdırmaq təklif oluna bilər.

1) Şagirdlərdən “xoşbəxt sinif” obrazı haqqında düşünmək xahiş edilir:

• Hər kəsin aid olduğu sinif necə görünür (*məsələn, birgə oxuyuruq, ünsiyyətdə oluruq*)?
• Hər kəsin aid olduğu sinifdə o özünü necə hiss edir (*məsələn, şən və rahat*)?
2) Şagirdlərə hər kəsin aid olduğu sinif barədə rəsm çəkmək və ya mətn yazmaq tapşırılır.

**Xoşbəxt sinif**

| *Necə görünür* | *Necə səslənir* | *Hansı hisslər kecirilir* |
|---|---|---|
| | | |

**Müəllim üçün əlavə məlumat.**
Metodun aşağıdakı xüsusiyyətləri mövzunun əsas anlayışlarını ehtiva edir:
**Qarşılıqlı əlaqə:** Fəaliyyətin interaktiv xarakteri şagirdlər arasında qarşılıqlı əlaqəni təşviq edir;
**Fərqli baxışlar**: Müxtəlif ideyaları nümayiş etdirmək üçün məkan təqdim edir;
**İdeyaların yaranması:** Yeni ideyanın yaradılmasını stimullaşdırır;
**Fəal iştirak:** İştirakçılar müzakirələrdə fəal iştiraka təşviq edilir.

**ÖZÜNÜZÜ YOXLAYIN**

• "Cəmiyyət" deyəndə nə başa düşürsünüz? *(Cəmiyyət nədir? Bu sözün mənasını necə izah edə bilərsiniz?)*
• Cəmiyyətdə insanları nə birləşdirir? *(İnsanlar cəmiyyətdə hansı münasibətlərdə olurlar? Cəmiyyətdə yaşamağın insanlar üçün əhəmiyyəti nədir? Cəmiyyətdə yaşamasaq, hansı çətinliklərlə üzləşə bilərik?)*

**Formativ qiymətləndirmə**

| **Qiymətləndirmə meyarları** | **Qiymətləndirmə materialı** |
|---|---|
| Kollektivin formalaşmasında təmənnasız qarşılıqlı köməyin rolunu izah edir. | Fəaliyyət, tapşırıq 1 |
| Sinfinin timsalında insanların birgəyaşayış prinsiplərini təhlil edir. | Tapşırıq 2 |

## Mövzu 6

**Milli birlik**
• **Dərslik:** səh. 23
• **İş dəftəri:** səh. 14

| | |
|---|---|
| **Alt-standartlar** | **3-4.1.3.“Cəmiyyət” anlayışını insanların birgəyaşayışı kimi izah edir.** **3-4.3.2.“Milli birlik” barədə fikirlərini ifadə edir.** |
| **Təlim məqsədləri** | • “Cəmiyyət” anlayışını ümumi mənafe üçün birləşən insanların birgəyaşayışı kimi izah edir. • “Milli birlik” barədə fikirlərini 17 Noyabr Milli Dirçəliş günü nümunəsində ifadə edir. |
| **Köməkçi vasitələr** | |
| **Resurslar** | *https://www.youtube.com/watch?v=Ud5zncTzD_M* |

**Dərsin qısa planı**
**Cəlbetmə.** Sinifdə anlaşmaya kömək edən davranışlar barədə müsahibə
**Fəaliyyət.** “Sorğu vərəqi”
**Öyrənmə.** Milli birliyin yaranmasında böyük əhəmiyyəti olan Milli Dirçəliş Gününün tarixi
**Tapşırıq.** Dərslik: tap. №.1-3 İD: №.1,2
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim mövzuya dərsikdə verilən materialla başlaya bilər. “Dostluq, qarşılıqlı kömək, bir-birini dinləmək...” – sinif kollektivində bu keyfiyyətlərdən hansılarını müşahidə etmisiniz?
Şagirdlərə cavabı sinifdaxili münasibətlərdən gətirəcəkləri nümunələrlə əsaslandırmağı təklif etmək olar.

Leyla

**FƏALİYYƏT** **"Sorğu vərəqi".** Şagirdlər qruplara bölünür. Qrupların sayına müvafiq olaraq dərslikdəki sorğu vərəqləri ilə yanaşı, əlavə sorğu vərəqləri də tərtib edilə bilər. Müəllim qruplara təqdim etmək üçün sosial həyatın zəruri elementlərinə aid lazımi sayda əlavə sorğu vərəqi də hazırlaya bilər. Kömək üçün daha iki sorğu vərəqi nümunəsi təqdim edirik:

**SORĞU vərəqi 4**

1. Dost olmaq istədiyiniz insanla necə ünsiyyət qurardınız?
2. Sizcə, mədəni müxtəlifliyə nə üçün hörmətlə yanaşmaq lazımdır?

**SORĞU vərəqi 5**

1. Özünün və yoldaşlarının hüquqları pozulanda nə etmək lazımdır?
2. Əməkdaşlıq etmək üçün insanda hansı keyfiyyətlər olmalıdır?

Müəllim fəaliyyəti birgə öyrənməni və yoldaş qiymətləndirməsini təmin etməyə imkan yaradan *karusel* iş üsulu üzərində qura bilər. Bu üsul sinifdəki bütün şagirdləri iştiraka cəlb etməyə və fəal saxlamağa kömək edir. Hər qrup öz vərəqindəki sorğuları oxuyur, müzakirə edib cavablandırır və qonşu qrupa ötürür. Qrup əvvəlki qrupun sualları və cavabları ilə tanış olur, lazım bildiyi əlavəni, yaxud düzəlişi edir. Beləliklə, bütün qruplar bir-birinin cavabı ilə tanış olur və onu dəyərləndirir. "Karusel" şagirdlərdə məntiqi və tənqidi təfəkkürün inkişafı, ünsiyyət bacarığı, dəyərləndirmə və ümumiləşdirmə kimi zəruri bacarıqların formalaşmasına təkan verməklə mövzunun mənimsənilməsinə kömək edən iş üsuludur.

**Müzakirə.**

Suallar (*Hansı sualı cavablandırmaq çətin oldu? Nə üçün? Diqqətinizi hansı sual daha çox çəkdi?)* ətrafında aparılan müzakirələr müəllimə şagirdlərin milli birlik barədə təsəvvürlərinə nüfuz etməyə imkan verəcəkdir.

**ÖYRƏNMƏ** Öyrənmə mətni fənn kurikulumundakı iki təlim nəticəsinin reallaşdırılmasına xidmət edir. Bunlardan biri "cəmiyyət" anlayışı, digəri isə "milli birlik" barədə fikirlərin ifadə edilməsi ilə bağlıdır. Milli qürur hissi milli birliyin yaranıb inkişaf etməsinin əsas amilidir. Ölkə üçün taleyüklü məsələlərin həllində, milli suverenliyin qorunub saxlanılmasında cəmiyyətin bütövlüyü və milli birlik müstəsna əhəmiyyətə malikdir. Millətin bütün dəstələrini vahid məqsəd ətrafında cəmləməkdə, milli ayrılığın, mərkəzdənqaçma və əyalətçilik kimi zərərli təsirlərin aradan qaldırılmasında bu çox vacib amildir.

**Müzakirədən** çıxarılan yekun fikri təxminən belə ifadə etmək olar: ölkə üçün vacib olan məsəllələri həll etmək, torpaqlarının bütövlüyünü qorumaq, müstəqil yaşamaq və mübarizə apara bilmək üçün xalqa milli birlik lazımdır.

**TAPŞIRIQ** 1-ci tapşırığın şərtində tarixi mövzuların öyrənilməsinin əsas prinsiplərindən olan səbəb-nəticə əlaqələrinin müəyyən edilməsi təklif olunur. Mövzumuz həm də tariximizə aid faktoloji biliklərin öyrənilməsini nəzərdə tutur. Öyrənmə mətni tapşırığın materialını tam əhatə edir.

| **Səbəb** | **Nəticə** |
|---|---|
| *1988-ci ilin 17 noyabr günü xəbər yayıldı ki, ermənilər Şuşa yaxınlığındakı Topxana meşəsini qırırlar. Bu xəbəri eşidən insanlar küçələrə axışdılar.* | Azərbaycanda insanlar küçələrə axışdılar. |
| Ermənilər Azərbaycan torpaqlarına göz dikmişdilər. | *Onlar bu çirkin niyyətlərini həyata keçirmək üçün plan qururdular. Tez-tez azərbaycanlıları qıcıqlandıran hərəkətlər edir, qarışıqlıq yaradırdılar.* |
| *Azərbaycanın rəhbərliyi isə bu hərəkətlərin qarşısını ala bilmirdi, çünki nüstəqil deyildi. Həmin vaxt dövlətimiz Moskvaya tabe idi.* | Azərbaycan hakimiyyəti ermənilərin özbaşınalığının qarşısını ala bilmirdi. |
| *Bakının mərkəzi meydanında toplaşanların sayı milyonu keçdi.* | Milli birlik yarandı. |
| Hərəkat getdikcə genişləndi. | *Azərbaycan müstəqilliyə nail oldu.* |

Layihə

2-ci tapşırıqda atalar sözlərinin mənasını izah etmək təklif olunur. Müəllim diqqəti atalar sözlərinin ifadə etdiyi əsas məzmuna, birliyin xalq üçün əhəmiyyətinə yönəltməlidir– "El" birləşən xalq deməkdir. Xalq düşmən qüvvələrlə mübarizə aparmaq üçün birləşməlidir. Birləşən xalqın – elin qarşısında düşmən dayana bilməz.
3-cü tapşırıqda Milli Dirçəliş Gününə aid açıqçanın hazırlanması təklif olunur. Bu yaradıcı tapşırıq şagirdlərin milli birlik haqqında fikirlərinin psixo-emosional ifadəsi kimi dəyərləndirilə bilər.

**Diferensial təlim.**

*Dəstək*. Milli birliyin əhəmiyyətini izah etmək təklif oluna bilər.

*Dərinləşdirmə*. Milli birlik olmazsa, yarana biləcək şəraiti təsvir etmək təklif oluna bilər.

**Müəllim üçün əlavə məlumat.** Bu mövzunun nəzərdə tutduğu hədəflərə çatmaq üçün, ilk növbədə, bir neçə vacib keyfiyyətin aşılanması lazımdır. Bunlardan ikisi – milli qürur və vətənpərvərlik öndə gəlir. Milli qürur hissinin tərbiyə edilməsi milli siyasətin tərkib hissəsidir və onun şagirdlərə aşılanması aktual olmaqla yanaşı, həm də böyük diqqət tələb edir. Nəzərə almaq lazımdır ki, milli qürur hissinin məzmununda şovinizm, ayrı-seçkilik kimi duyğular əsas yer tutarsa, bu, son nəticədə xalqlar arasında düşmənçiliyin qızışdırılmasına, sabitliyin pozulmasına geniş imkanlar açar.
Milli-mənəvi dəyərlərimizə, tarixi adət-ənənələrimizə, təbii sərvətlərimizə, Azərbaycan dövlətinə, dövlət rəmzlərimizə dair bilik və məlumatlar milli ideoloji tərbiyə işində böyük rol oynayır.

**ÖZÜNÜZÜ YOXLAYIN**

- Milli birlik nədir? (*Milli birliyin yaranması necə baş verdi? Bu özünü nədə göstərdi?)*
- Dövlət üçün milli birliyin əhəmiyyəti nədir? (*Xalq dövlətin müstəqilliyinə necə nail ola bilər? Düşmən qüvvələrlə necə mübarizə aparmaq olar?*)
- 

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| "Cəmiyyət" anlayışını ümumi mənafe üçün birləşən insanların birgəyaşayışı kimi izah edir. | Fəaliyyət<br>Tapşırıq 2 |
| "Milli birlik" barədə fikirlərini 17 Noyabr Milli Dirçəliş günü nümunəsində ifadə edir. | Tapşırıq 1, 3 |

Layihə

| 2-ci BÖLMƏ | İnsan və sağlamlıq |
|---|---|

| Mövzu № | Adı | Saat | Dərslik (səh.) | İş dəftəri (səh.) |
|---|---|---|---|---|
| Mövzu 7 | Canlılar və fosillər | 2 | 28 | 18 |
| Mövzu 8 | Bədən üzvləri | 2 | 33 | 21 |
| Mövzu 9 | Skelet və əzələlər | 1 | 36 | 23 |
| Mövzu 10 | Sağlamlıq və qidalanma | 2 | 39 | 25 |
| Mövzu 11 | Qida məhsulları | 2 | 44 | 27 |
| Mövzu 12 | Xəstəlik və sağlamlıq | 2 | 47 | 29 |
| | Ümumiləşdirici tapşırıqlar | | 50 | 31 |
| | **KSQ** | 1 | | |
| | **CƏMİ** | **12** | | |

**Bölmənin qısa icmalı**

Biologiyaya aid mövzuları əhatə edən bu bölmədə canlı orqanizmlərdə baş verən həyati proseslər, canlıların daxili bədən üzvləri, sağlamlığın qorunmasında düzgün qidalanma və qida piramidası haqqında biliklər şagirdlərin yaş səviyyəsinə uyğun təqdim olunur.




"Canlılar və fosillər" mövzusunda canlı orqanizmlərdə baş verən həyati prosesslər və canlıların daşlaşmış qalıqları haqqında məlumatlar verilir. Bu məlumatlar şagirdlərdə müqayisəli təhlillər apararaq canlı və cansız, canlı və yaşayış məskəni arasında olan əlaqələrin dərindən öyrənilməsinə zəmin hazırlayır.

"Bədən üzvləri" mövzusu heyvanların, xüsusən də insanın daxili orqanlarını müəyyən etmək və adlandırmaq bacarıqlarının formalaşdırılmasını nəzərdə tutur. Mövzuda insanın daxili orqanları və onların funksiyaları barədə məlumatlar təqdim olunur.

"Skelet və əzələlər" mövzusu özündən əvvəlkinin məntiqi davamıdır. Mövzuda sümük və əzələ sisteminin rolu qeyd olunur. Əldə olunan məlumatlar orqanların birlikdə fəaliyyəti barədə təsəvvürlər yaradır və orqan, orqanlar sistemi, orqanizm haqqında öyrəniləcək məlumatlara giriş rolu oynayır.

"Sağlamlıq və qidalanma " mövzusunda qida piramidası anlayışı haqda ilkin təsəvvürlər təqdim olunub. Sağlam qidalanmada qidaların düzgün seçilməsi, qruplaşdırılması və miqdarının vacibliyi vurğulanmaqla bərabər, şagirdlərdə öz qida piramidalarını qurmaları haqqında təsəvvürlər formalaşdırılır.

"Qida məhsulları" mövzusunda qidaların sağlam və təhlükəsizliyində saxlanılma şəraitinin, istehsal tarixinin vacibliyi vurğulanır.

"Xəstəlik və sağlamlıq" mövzusunda "Xəstəlik nədir? Xəstəliyin simptomları və əlamətləri nələrdir? Xəstəlikdən necə qoruna bilərik?" kimi sualların cavabları təqdim olunmaqla bərabər, şagirdlərdə bu istiqamətdə etmələri lazım olan praktiki tədbirlər təqdim edilir.

Mövzuların tədrisi zamanı bütün mümkün vasitələrdən istifadə edilərək şagirdlərin sərbəst müşahidələr və təcrübələr aparması üçün şərait yaradılıb tədrisin səmərəliliyi artırıla bilər.

***Qeyd.*** Bölmənin spesifik xarakteri nəzərə alınaraq hər mövzuda müəllim üçün məlumatlar təqdim olunur. Məlumatlarda mövzuya aid elmi terminlərin və ifadələrin açıqlaması verilir. Dərsə hazırlaşarkən bu məlumatlar müəllimlərə yardımçı ola bilər.

**Bölməyə giriş**

Bölmənin ilk səhifəsində mövzulara hazırlıq kimi şəkil üzrə iş təşkil edilə bilər. "Hazırsınızmı?" başlığı altında verilən suallar üzrə müzakirə aparmaq mümkündür. Şagirdlərin müzakirədə fəallığı və verdikləri cavablar əsasında müəllim diaqnostik qiymətləndirmə apara bilər. Bu həm də mövzuların tədrisi ilə bağlı metodiki yanaşmaları əvvəlcədən təyin etmək baxımından faydalı olar.

Layihə

**Mövzu 7**

**Canlılar və fosillər**
- **Dərslik:** səh. 28
- **İş dəftəri:** səh. 18

| | |
|---|---|
| **Alt-standartlar** | **3-1.1.1. İnsan və heyvanlara xas olan əsas həyati prosesləri təsvir edir.**<br>**3-1.1.3. Fosilləri təsvir edir.** |
| **Təlim məqsədləri** | • İnsan və heyvanlara xas olan əsas həyati prosesləri (qidalanma, hərəkət, qıcıqlanma, tənəffüs, ifrazat, çoxalma və böyümə)sadalayır.<br>• İnsan və heyvanlara xas olan əsas həyati prosesləri (qidalanma, hərəkət, qıcıqlanma, tənəffüs, ifrazat, çoxalma və böyümə) izah edir.<br>• Fosilləri bitki və heyvan qalıqları olaraq izah edir.<br>• Fosil qalıqlarına aid nümunələri onların yaşadığı mühitlə əlaqələndirir. |
| **Köməkçi vasitələr** | Şəkillər, lupa, plastilin, quru yarpaq nümunələri |
| **Resurslar** | Dərslik, iş dəftəri. |

**Dərsin qısa planı**
**Cəlbetmə.** Canlıların xüsusiyyətləri
**Fəaliyyət.** Araşdırma
**Öyrənmə.** Həyati proseslər
**Tapşırıq.** Dərslik: tap. №1-4. İD: №1-5.
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim şagirdlərdə maraq oyatmaq üçün canlıların cansızlardan fərqli olaraq hansı xüsusiyyətlərə, davranışlara malik olduqlarını müşahidə və ifadə etmələrini təmin edəcək müzakirə təşkil edə bilər. Bu müzakirə şagirdlərin ilkin biliklərini yoxlamaqla bərabər, mövzunun mənimsənilməsində də faydalıdır. Suallar canlıların hər hansı bir həyati prosesinin əhəmiyyətinə yönəldilə bilər. Məsələn:

– Uşaqlar, deyə bilərsinizmi, ətrafınızdakı canlılar nə edirlər? (*Şagirdlərin cavabı "onlar qaçır, qidalanır, nəfəs alır və s." kimi olmalıdır*)

– Bəs bu sadaladığınız xüsusiyyətlər onlara yaşamaq üçün necə kömək edir? ( *Şagirdlər "Nəfəs almasalar və ya qidalanmasalar ölə bilərlər" kimi cavabını verməlidirlər*)

Bundan sonra dərslikdəki suallar əsasında kiçik müzakirə təşkil etmək olar.



Müzakirə zamanı verilən cavablar şagirdlərin diqqətini canlılara aid xüsusiyyətlərə yönəldəcəkdir.

**FƏALİYYƏT**

Fəaliyyət müxtəlif canlıların qalıqlarının araşdırılması və təhlilini nəzərdə tutur. Fəaliyyətin icrası üçün quru yarpaqdan başqa, heyvan fiqurlarından da istifadə etmək olar. Əvvəlcə şagirdlər kiçik qruplara bölünür. Şagirdlərin fəaliyyəti qruplar şəklində icra etməsi onlarda əməkdaşlıq bacarıqlarını inkişaf etdirməklə bərabər, həm də komanda daxilində işləmə və ünsiyyət bacarıqlarının da inkişafına ciddi təsir göstərir. Fəaliyyəti icra edərkən şagirdlərdə müşahidə, tədqiqat və təhliletmə bacarıqlarının da inkişafı hədəflənmişdir. Təcrübə bitdikdən sonra şagirdlərə təqdim olunan suallarla onlarda canlıların qalıqları, yaşadıqları mühit və bu tipli anlayışlar haqqında təsəvvürlər formalaşdırılır.

**ÖYRƏNMƏ** Mənimsədilməsi iki saatlıq dərs prosesində nəzərə alınan öyrənmə materialında canlıları cansızlardan fərqləndirən xüsusiyyətlər və ya həyati proseslər haqqında məlumatlar verilir. Təqdim olunan məlumatlarda spiralvari inkişafın tələblərinə uyğun olaraq yeni anlayışlar da əlavə olunmuşdur.

Layihə

Canlıların əsas xüsusiyyətləri olan qidalanma, hərəkət, qıcıqlanma, tənəffüs, ifrazat, çoxalma və böyümə anlayışları vurğulanaraq və yaşamaq üçün canlıların həyatındakı rolları diqqət mərkəzinə gətirilərək sadə şəkildə şagirdlərə təqdim olunmalıdır. Tədris zamanı " Qidalanma, hərəkət, qıcıqlanma və digər həyati proseslər nə üçün vacibdir?" tipli məntiqi və tənqidi təfəkkürü tətikləyəcək suallarla şagirdlərin diqqətini öyrənmə prosesinə yönəltmək vacibdir. Öyrənmə mətnində təqdim olunan müzakirə sualı vasitəsilə həyati proseslərin hamısının vacib rola malik olduğu və bu xüsusiyyətlərin bütün canlılar üçün xarakterik olması bir daha vurğulanmalıdır.
Öyrənmə mətnində təqdim olunan fosillər canlı qalıqları haqqında ilkin təəssüratın formalaşdırılması məqsədi daşıyır. Müzakirə sualı isə şagirdlərdə heyvan və ya bitki qalıqlarını təhlil edərkən təkcə onların bədən quruluşuna aid məlumatların yox, həm də yaşadıqları mühitlə əlaqədar məlumatların əldə olunmasının mümkünlüyü haqında təsəvvür formalaşdırır.

**TAPŞIRIQ** Tapşırıqların icrası şagirdlərin müstəqil mülahizə yürütmək bacarığının və məntiqi təfəkkürünün inkişafına kömək etməlidir.

1-ci tapşırıqda yalnız ətlə qidalanan canlı soruşulur. Doğru cavab qartal və canavardır. Bu tapşırıq şagirdlərdə canlıları qidalanmalarına görə də qruplaşdırmaq bacarığını inkişaf etdirir. Ayı və sincab kimi canlılar isə həm heyvan, həm də bitki mənşəli qidalarla qidalanır.

2-ci tapşırıqda həyati proseslərdən olan qıcıqlanmanın insan həyatındakı rolu vurğulanır. Ətrafdakı hadisələrə qarşı olan ani reaksiyalar mənfi emosiaların azaldılmasına xidmət edir.Bu tapşırığın düzgün yerinə yetirilməsi şagirdlərin mövzunu yaxşı mənimsəməsinin göstəricisi ola bilər.

3-cü tapşırıq həyati proseslərdən olan ifrazatın insan həyatındakı rolu haqqında sərbəst mülahizə yürütməsinə istiqamətlənmişdir. Tərləməklə bədənimizdən lazımsız məhsullar kənarlaşdırılır.

4-cü tapşırıqla şagirdlərin tədqiqat və məlumatların təhlili bacarığı ölçülür. Verilmiş tapşırığın müzakirəsini "Suda yaşayan canlıların hərəkət orqanları necə olmalıdır? Sizcə, heyvanların bədən formasına baxaraq onların yaşadıqları mühit haqqında məlümar vermək olarmı?" kimi əlavə suallarla dərinləşdirmək olar.

**Diferensial təlim.**
*Dəstək.* Şagirdlərə həyati proseslərin canlıların həyatındakı rolunu izah etməsini təklif etmək olar.
*Dərinləşdirmə.* Şagirdlərə *"Həyati proseslərdən hər hansı birinin funksionallığının pozulması nə ilə nəticələnər?"* kimi araşdırma təklif oluna bilər.

**Müəllim üçün əlavə məlumat.** Tənəffüs, qidalanma, hərəkət, ifrazat, qıcıqlanma, böyümə və çoxalma canlılara məxsus həyati proseslərdir. Tənəffüs prosesi mürəkkəb proses olub, mənimsənilən oksigendən istifadə edərək şəkərdən enerjinin alınmasıdır. Bu zaman qazlar mübadiləsi baş verir. Yəni atmosfer oksigeni mənimsənilir və oksidləşmə nəticəsində əmələ gələn karbon qazı kənarlaşdırılır. İfrazat canlı orqanizmlərin həyatında baş verən mühim proseslərdəndir. Maddələr mübadiləsi nəticəsində əmələ gələn kənar məhsullar ( sidik cövhəri, lazımsız su, zəhər və digər kənar məhsullar) bədəndən dəri, böyrəklər və bağırsaqlarla kənarlaşdırılır. Şagirdlərin bu anlayışları sadə, yəni tərləmək və ya sidik ifrazı şəklində mənimsəməsi daha məqsədəuyğundur. Qıcıqlanma canlıların ətrafda baş verən proseslərə cavab reaksiyasıdır. Bu proses ətrafı dərk etməklə bərabər, qorunmaq kimi müdafiə reflekslərini də özündə ehtiva edir.
Fosillər əvvəllər yaşamış qıjıkimilər kimi bitki və dinozavrlar kimi heyvanların qalıqlarıdır. Həmin qalıqları təhlil edərək tapıldıqları ərazi və aid olduqları canlının həyat tərzi haqqında məlumat öyrənmək olar.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdə verilən suallar cavablandırılır və şagirdlərin mövzunu nə dərəcədə mənimsədikləri müəyyən olunur.

- Canlılara aid hansı həyati proseslər var? *(qidalanma, hərəkət, qıcıqlanma, tənəffüs, ifrazat, çoxalma və böyümə)*
- Fosillər necə əmələ gəlib? *(Fosillər əvvəllər yaşamış bəzi bitki və heyvanların qalıqlarıdır.)*

Layihə

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| İnsan və heyvanlara xas olan əsas həyati prosesləri (qidalanma, hərəkət, qıcıqlanma, tənəffüs, ifrazat, çoxalma və böyümə) sadalayır. | Fəaliyyət |
| İnsan və heyvanlara xas olan əsas həyati prosesləri (qidalanma, hərəkət, qıcıqlanma, tənəffüs, ifrazat, çoxalma və böyümə) izah edir. | Fəaliyyət, tapşırıq 1 |
| Fosilləri bitki və heyvan qalıqları olaraq izah edir. | Fəaliyyət, tapşırıq 2 |
| Fosil qalıqlarına aid nümunələri onların yaşadığı mühitlə əlaqələndirir. | Tapşırıq 2 |

## Mövzu 8

**Bədən üzvləri**
- **Dərslik:** səh. 33
- **İş dəftəri:** səh. 21

| | |
|---|---|
| **Alt-standartlar** | **3-1.1.2. İnsan və heyvanlarda bədənin daxili üzvlərini onların əsas həyati prosesləri ilə əlaqələndirir.** |
| **Təlim məqsədləri** | • İnsan və heyvanlara aid daxili bədən üzvlərini (ağciyər, qəlsəmə, ürək, mədə, beyin) sadalayır.<br>• Daxili bədən üzvlərini onların icra etdiyi əsas həyati proseslərlə (ağciyərlərdə və qəlsəmələrdə (balıqlarda) qazlar mübadiləsi, ürəyin qan dövranını təmin etməsi, mədənin qidaları həzm etməsi, beyinin ətraf aləmdə baş verənləri təhlil etməsi) əlaqələndirir. |
| **Köməkçi vasitələr** | A3 kağızı, rəngli kağızlar, karandaş, qayçı, yapışqan |
| **Resurslar** | Dərslik, iş dəftəri. |

**Dərsin qısa planı**
**Cəlbetmə.** Bədən üzvləri
**Fəaliyyət.** Daxili bədən üzvləri
**Öyrənmə.** Daxili bədən üzvləri və onların funksiyaları
**Tapşırıq.** Dərslik: tap. №1-3. İD: №1-3.
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim şagirdlərdə maraq oyarmaq üçün insanın bədən üzvləri və onların funksiyaları haqqında müzakirə təşkil edə bilər. Bu müzakirə şagirdlərin ilkin biliklərini yoxlamaqla bərabər mövzunun mənimsənilməsində də faydalıdır. Suallar daxili bədən üzvlərinə və onların funksiyasına yönəldilə bilər. Məsələn:

– Uşaqlar, deyə bilərsinizmi, hansı daxili bədən üzvlərini tanıyırsınız? (*Şagirdlərin cavabı "ürək, ağciyər və s." kimi olmalıdır*)

– Bəs bu sadaladığınız orqanlar hansı işləri görür? ( *Şagirdlər istənilən uyğun cavabı verə bilərlər*)

Bundan sonra dərslikdəki suallar əsasında kiçik müzakirə təşkil etmək olar.Müzakirə zamanı verilən cavablar şagirdlərin diqqətini daxili bədən üzvlərinə və onların funksiyalarına yönəldəcəkdir.

Layihə

**FƏALİYYƏT** **Daxili bədən üzvləri**

Fəaliyyət daxili bədən üzvlərini tanımağı və onların yerləşdiyi yeri müəyyən etməyi nəzərdə tutur. Fəaliyyəti icra etmək üçün sinfə əyani vəsait kimi mulyaj da gətirilə bilər. Mulyaj şagirdlərlə bərabər hissələrə ayrıla və yenidən yığıla bilər. Fəaliyyətin bu şəkildə təşkili şagirdlərin öyrənmə və tətbiqetmə imkanlarını asanlaşdıracaq. Mulyaj olmadıqda dərslikdə verilən fəaliyyəti icra etmək olar. Bu zaman şagirdlər orqanları illüstrativ olaraq tanıyacaq və təqdim olunan insan bədəninin vektoruna yerləşdirəcəklər. Şagirdlərin fəaliyyəti qruplar şəklində icra etməsi onlarda əməkdaşlıq bacarıqlarını inkişaf etdirməklə bərabər, həm də komanda daxilində işləmək və ünsiyyət bacarıqlarının inkişafına ciddi təsir göstərir. Fəaliyyəti icra edərkən şagirdlərdə müşahidə, tədqiqat və təhliletmə bacarıqlarının da inkişafı hədəflənmişdir. Fəaliyyətin sonunda verilən suallar və təşkil olunan müzakirələrlə daxili bədən üzləri və onların funksiyaları haqqında təsəvvürlər formalaşdırılır.



**ÖYRƏNMƏ** Öyrənmə materialında heyvan və insan orqanizminə aid olan daxili bədən üzləri, xüsusən də ürək, ağciyərlər, beyin, mədə, bağırsaqlar və onların icra etdikləri funksiyalar haqqında məlumatlar verilir. Orqanların icra etdiyi funksiyaları təqdim edərkən şagirdlərin yaş psixologiyasını və gələcək dərslərdə bu mövzuların dərinləşdirilərək tədris olunacağını nəzərə almaq daha məqsədəuyğundur. Məsələn, ürəyi yığılaraq qanı damarlar adlanan borulara qovan, ağciyərləri qazlar mübadiləsinin baş verdiyi, beyini qəbul olunan məlumatları analiz və təhlil edən, mədə və bağırsaqları yediyimiz qidaları parçalayan, yəni həzm edən orqan kimi təqdim etmək lazımdır. Bu zaman şagirdlərdə qan haqqında da ilkin təsəvvür formalaşdırılmalıdır. Çünki maddələr həm orqanlara, həm də orqanlardan qan vasitəsilə daşınır. Bədən üzlərinin təqdimatı zamanı eyniadlı orqanların it, pişik və at kimi heyvanlarda da olduğu vurğulana, hətta şəkilləri təqdim oluna bilər. Heyvanlarda tənəffüs orqanlarından olan qəlsəmələrin təqdimatı şagirdlərdə eyni funksiyanı yerinə yetirən, ancaq yaşadığı mühitdən və ya digər səbəblərdən aslı olaraq fərqli orqanların olması haqqında təsəvvürlərin formalaşdırılmasını hədəfləyir. Müzakirə sualı isə şagirdlərdə orqanların funksiyasının həyat tərzindən asılılığı və onların əlaqəli şəkildə işləməsi haqqında təsəvvür yaradır.

**TAPŞIRIQ** Tapşırıqların icrası şagirdlərin müstəqil mülahizə yürütmək bacarığının və məntiqi təfəkkürünün inkişafına kömək etməlidir.

1-ci tapşırıqda şagirdlərdən praktiki tətbiq tələb olunur. Bu zaman o ürək döyüntüsünü müəyyən etməklə yanaşı, hərəkətin ürək döyüntüsünə təsiri haqqında da öz fikrini ifadə edəcək. Aktiv hərəkət edərkən ürəyin sürətlə döyünməsinin səbəbi kimi bədənimizin daha çox enerjiyə və qidaya ehtiyacının olduğu vurğulana bilər. Çünki qidalar bədənimizə qanla daşınır, ürək isə qanın orqanlara qovulmasında mühim rola sahibdir. Şagirdlər tərəfindən verilən uyğun cavablar qəbul oluna bilər. Bu tapşırıqla şagirdlərin təhliletmə və proqnozlaşdırma qabiliyyətləri ölçülür.





2-ci tapşırıq da 1-ci tapşırıq kimi şagirdlərdə praktiki təcrübə aparmaq və nəticələri təhlil edərək fikirlərini əsaslandırmaq bacarığını ölçür.

Həyati proseslərdən olan qıcıqlanmanın insan həyatındakı rolu vurğulanır. Ətrafdakı hadisələrə qarşı olan ani reaksiyalar mənfi emosiyaların azaldılmasına xidmət edir.Bu tapşırığın düzgün yerinə yetirilməsi şagirdlərin mövzunu yaxşı mənimsəməsinin göstəricisi ola bilər.

Layihə

3-cü tapşırıqda isə şagird orqanların fəaliyyətinin bir-birindən asılılığını müəyyən etməlidir. Bu tapşırıq şagirddə vahid orqanizm anlayışı haqqında ilkin təsəvvürlər formalaşdırır.

**Diferensial təlim.**

*Dəstək.* Şagirdlərə digər daxili orqanları şəkillər üzərindən göstərmələri təklif edilə bilər.

*Dərinləşdirmə.* Şagirdlərə "Orqanlardan hər hansı birinin funksionallığının pozulması nə ilə nəticələnər?" kimi araşdırma təklif oluna bilər.

**Müəllim üçün əlavə məlumat.** Orqan orqanlar sisteminə aid olub orqanizmin müəyyən funksiyanı icra edən hissəsidir.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdə verilən suallar cavablandırılır və şagirdlərin mövzunu nə dərəcədə mənimsədikləri müəyyən olunur.

- Daxili bədən üzvlərini sadalayın? *(ağciyərlər, ürək, beyin, mədə və bağırsaqlar.)*
- Qidaların tərkibində olan faydalı maddələr bədənimizə harada sorulur? *(mədə və bağırsaqlarda.)*

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| İnsan və heyvanlara aid daxili bədən üzvlərini (ağciyər, qəlsəmə, ürək, mədə, beyin) sadalayır. | Fəaliyyət, özünüzü yoxlayın |
| Daxili bədən üzvlərini onların icra etdiyi əsas həyati proseslərlə (ağciyərlərdə və qəlsəmələrdə (balıqlarda) qazlar mübadiləsi, ürəyin qan dövranını təmin etməsi, mədənin qidaları həzm etməsi, beyinin ətraf aləmdə baş verənləri təhlil etməsi) əlaqələndirir. | Fəaliyyət, tapşırıq 1,2,3 |

**Mövzu 9**

**Skelet və əzələlər**
- **Dərslik:** səh. 36
- **İş dəftəri:** səh. 23

| | |
|---|---|
| **Alt-standartlar** | **3-1.1.2. İnsan və heyvanlarda bədənin daxili üzvlərini onların əsas həyati prosesləri ilə əlaqələndirir.** |
| **Təlim məqsədləri** | • İnsan və heyvanlara aid daxili bədən üzvlərini (sümüklər, əzələlər) sadalayır.<br>• Daxili bədən üzvlərini onların icra etdiyi əsas həyati proseslərlə (sümüklərin bədənin dayağını təmin etməsi, daxili orqanları xarici təsirlərdən qoruması, əzələlərin bədənin hərəkətini təmin etməsi) əlaqələndirir. |
| **Köməkçi vasitələr** | Karton, rezin lent, iynəli sancaq, məktəbli qayçısı. |
| **Resurslar** | Dərslik, iş dəftəri. |

**Dərsin qısa planı**
**Cəlbetmə.** Skelet anlayışı
**Fəaliyyət.** Ətrafların hərəkəti
**Öyrənmə.** Skelet, əzələlər və onların funksiyaları
**Tapşırıq.** Dərslik: tap. №1-3. İD: №1-5.
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim şagirdlərdə maraq oyatmaq üçün skelet və onların funksiyası haqqında müzakirə təşkil edə bilər. Bu müzakirə şagirdlərin ilkin biliklərini yoxlamaqla bərabər, mövzunun mənimsənilməsində də faydalıdır. Suallar skelet, sümük anlayışları istiqamətində yönəldilə bilər. Məsələn:

– Uşaqlar, deyə bilərsinizmi, skelet nədən təşkil olunub? (*Şagirdlərin cavabı "sümüklərdən" kimi olmalıdır*)

Bundan sonra dərslikdəki suallar əsasında kiçik müzakirə təşkil etmək olar. Müzakirə zamanı verilən cavablar şagirdlərin diqqətini skelet və onun funksiyasına yönəldəcəkdir.

Lavina

**FƏALİYYƏT** **Ayaqlarımız necə hərəkət edir?**

Fəaliyyət skelet və əzələlərin birlikdə fəaliyyəti nəticəsində hərəkətin baş verdiyini müəyyən etməyi nəzərdə tutur. Kartondan istifadə edərək sadə ayaq modeli düzəldilir. Düzəldilmiş modeldə hərəkəti təmin edən hissələr müşahidə edilərək sümük və əzələlərin rolunu müəyyənləşdirməklə müzakirə aparılır.



Şagirdlərin fəaliyyəti qruplar şəklində icra etməsi onlarda əməkdaşlıq bacarıqlarını inkişaf etdirməklə bərabər, həm də komanda daxilində işləmə və ünsiyyət bacarıqlarının inkişafına ciddi təsir göstərir. Fəaliyyəti icra edərkən şagirdlərdə müşahidə, tədqiqat və təhliletmə bacarıqlarının da inkişafı hədəflənmişdir.




**ÖYRƏNMƏ** Öyrənmə materialında skeletin sümüklərdən təşkil olunması və bədəni dik saxlamaq, daxili orqanları xarici təsirlərdən qorumaq kimi funksiyaya malik olması, bununla bərabər, hərəkətin sümük və əzələlərin birlikdə fəaliyyəti nəticəsində baş verdiyi haqda məlumatlar təqdim olunmuşdur.

Bu məlumatlar şagirdlərə təqdim olunarkən hərəkətin icrasında mühim rola sahib olan əzələlərin yığılıb boşalmaq xüsusiyyəti, yəni elastikliyi də vurğulanmalıdır. Skeletin funksiyası haqqında məlumat təqdim olunarkən “döş qəfəsi” anlayışından istifadə etmədən qabırğaları ifadə edərək ağciyərlər və ürəyin xarici təsirlərdən qorunması vurğulana bilər. Öyrənmə materialında skelet haqqında təsəvvürü daha da dərinləşdirmək üçün əlin rentgen şəkli də təqdim olunmuşdur.

Müzakirə sualında isə şagirdlərdə tənqidi təfəkkürün inkişafı, yaradıcı təfəkkürə təkan verəcək təsəvvürlərin formalaşdırılması hədəflənmişdir. Təqdim olunan suallara əsasən sümük və əzələlərin rolu diqqət mərkəzinə gətirilmişdir.

**TAPŞIRIQ** Tapşırıqların icrası şagirdlərin müstəqil mülahizə yürütmək bacarığının və məntiqi təfəkkürünün inkişafına kömək etməlidir.

1-ci tapşırıqda şagirdlərdən təqdim olunan fərqli skelet şəkillərinin hansı canlılara aid olması və onların həyat tərzini ifadə edən xüsusiyyətlərdən biri olan hərəkət forması soruşulur. *“İlan sürünərək , balıq üzərək və quş uçaraq hərəkət edir”* kimi cavablar qəbul oluna bilər. Bu tapşırıqla şagirdlərdə təhliletmə bacarığı və gələcək dərslərdə tədris olunacaq daxili skelet anlayışı haqqında təsəvvürlər formalaşdırılır.

2-ci tapşırıqda daxili orqanlardan olan ürəyin əzələli orqan olması vurğulanaraq, şagirdlərdən onun funksiyasını icra etməsi üçün əzələlərə məxsus xüsusiyyətlərin təhlil olunması tələb olunur. Bu tapşırığın düzgün yerinə yetirilməsi şagirdlərin mövzunu yaxşı mənimsəməsinin göstəricisi ola bilər.

3-cü tapşırıqda isə şagird öyrəndiyi məlumatlarla praktik təcrübəsini uyğunlaşdırmalı və öz hipotezini irəli sürməlidir. Tapşırığın icrası və müzakirəsi zamanı şagirdlərin diqqətini təqdim olunan şəklə yönəldərək onların düzgün düşünmələrinə və müzakirələrinə kömək etmiş olarsınız. Bu tapşırıq şagirddə təhliletmə və tətbiqetmə bacarığını inkişaf etdirməyə istiqamətlənmişdir.

**Diferensial təlim.**

*Dəstək.* Şagirdlərə insan skeletini təqdim edərək sümüklər və onların hərəkətdə iştirakını təmin edən oynaqlar haqqında müzakirə etmələri təklif oluna bilər.

*Dərinləşdirmə.* Şagirdlərə canlıların, xüsusən də balıq, pişik və quş kimi heyvanların skeletlərinin müqayisəli təhlili tapşırıla bilər.

Layihə

**Müəllim üçün əlavə məlumat.** Sümük və sümük birləşmələrindən təşkil olunmuş skelet dayaq funksiyasını icra etməklə bərabər, daxili orqanları da xarici təsirlərdən qoruyur. İnsan skeleti kəllə, gövdə və ətrafların skeleti olmaqla üç hissədən ibarətdir. Skeletin kəllə qurusunda beyin, döş qəfəsində ağciyərlər və ürək yerləşir. Hərəkətin icrasında xüsusi rola malik olan əzələlər yığılıb-boşalaraq öz funksiyasını icra edir. Məsələn, yuxarı ətrafımıza aid olan bazunun ikibaşlı əzələsi yığılarkən qolumuz dirsəkdən bükülür. Bu zaman bazunun üçbaşlı əzələsi boşalmış vəziyyətdə olur.Əzələlər yalnız hərəkətə xidmət etmir. Onlar həmçinin daxili orqanları xarici təsirlərdən qoruyur. Qarın boşluğunda yerləşən orqanları (bağırsaqlar, qaraciyər, mədə və böyrəklər) misal çəkmək olar.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdə verilən suallar cavablandırılır və şagirdlərin mövzunu nə dərəcədə mənimsədikləri müəyyən olunur.

- Skelet nədən təşkil olunub? *(sümüklərdən)*
- Ağciyərlərin və ürəyin xarici təsirlərdən qorunmasında bədənimizin hansı hissəsi iştirak edir? *(şagirdlərdən gözlənilən cavab "qabırğalar")*
- Hərəkət edə bilmək üçün sümüklərlə bərabər, hansı bədən üzvünün olması vacibdir? *(əzələlər)*

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| İnsan və heyvanlara aid daxili bədən üzvlərini (sümüklər, əzələlər) sadalayır. | Fəaliyyət, özünüzü yoxlayın |
| Daxili bədən üzvlərini onların icra etdiyi əsas həyati proseslərlə (sümüklərin bədənin dayağını təmin etməsi, daxili orqanları xarici təsirlərdən qoruması, əzələlərin bədənin hərəkətini təmin etməsi) əlaqələndirir. | Fəaliyyət, tapşırıq 1,2,3 |

## Mövzu 10

**Sağlamlıq və qidalanma**
- **Dərslik:** səh. 39
- **İş dəftəri:** səh. 25

| | |
|---|---|
| **Alt-standartlar** | **3-3.1.2. Sağlamlığı qorumağın yollarını təsvir edir.**<br>**3-3.1.1.İnsan dişlərini və onlara qulluq qaydalarını təsvir edir.** |
| **Təlim məqsədləri** | • Sağlam həyat tərzini sağlam qidalanma, idmanla müntəzəm məşğul olmaq, düzgün yuxu rejimi və şəxsi təmizlik olaraq sadalayır.<br>• Sağlamlığın qorunmasında qida piramidasının rolunu izah edir.<br>• Öz qida piramidasını quraraq balanslı qidalanmanın vacibliyini nümayiş etdirir.<br>• Diş kariyesinin əmələ gəlməsinə bəzi qidaların səbəb olmasını izah edir.<br>• Müntəzəm idmanla məşğul olmağın insan sağlamlığındakı rolunu izah edir.<br>• Düzgün yuxu rejiminin insan sağlamlığındakı rolunu izah edir. |
| **Köməkçi vasitələr** | A4 kağızı, salfet, qida nümunələri (yerkökü, kartof, çips, günəbaxan toxumu). |
| **Resurslar** | Dərslik, iş dəftəri. |

**Dərsin qısa planı**
**Cəlbetmə.** Qidaların qruplaşdırılması
**Fəaliyyət.** Qidaların tərkibi
**Öyrənmə.** Sağlam həyat tərzi və qida piramidası
**Tapşırıq.** Dərslik: tap. №1-3. İD: №1-5.
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

Layihə

**CƏLBETMƏ** Müəllim şagirdlərdə maraq oyatmaq üçün gün ərzində necə qidalandıqlarını və qidalanarkən qidalardan istifadə haqqında müzakirə təşkil edə bilər. Bu müzakirə şagirdlərin ilkin biliklərini yoxlamaqla bərabər, mövzunun mənimsənilməsi üçün də faydalıdır. Suallar qidaların tərkibinə və qruplaşdırılmasına dair biliklərin öyrənilməsinə yönəldilə bilər. Məsələn:

– Uşaqlar, deyə bilərsinizmi, hər gün yediyiniz qidaları nəyə əsasən qruplaşdırırsız? (*Şagirdlərin cavabı "səhər, günorta,axşam yeməyi və ya tərkibindəki maddələrə görə" kimi olmalıdır*)

– Bəs bu qruplaşdırmanın sağlam qidalanmada rolu nədən ibarətdir? ( *Şagirdlər uyğun istənilən cavabı verə bilərlər*)

Bundan sonra dərslikdəki suallar əsasında kiçik müzakirə təşkil etmək olar.

**FƏALİYYƏT** **Qidaların tərkibi**

Fəaliyyət qidaların tərkibində olan maddələri müəyyən etməyi nəzərdə tutur. Fəaliyyəti icra etmək üçün kartof, banan, çörək və yoddan istifadə edərək təcrübə aparmaq olar. Yod nişastanın (şagirdlərə nişastanı şəkər adı ilə təqdim etmək daha məqsədəuyğundur) təyinedicisidir.

1. Masanın üzərinə bir stəkan su, kəsilmiş kartof, banan və çörək qoyun.
2. Sonra hər nümunənin üzərinə 1-2 damcı yod əlavə edin.

Nəticə: . Yod suda qızılı-sarı, qidalar da isə tünd-göy rəngdə müşahidə olunacaq.

Təcrübə müddətində şagirdlərə müşahidələrini qeyd etmələrini tapşırın.

Dərslikdə təqdim olunan təcrübə də qidaların tərkibində yağın olmasını dəqiqləşdirmək üçün aparılır. Təqdim olunan təcrübələrin sonunda şagirdlərlə nəticələri müzakirə edərək onların müşahidə, tədqiqat və təhliletmə bacarıqları haqda diaqnostik qiymətləndirmə aparmaq mümkündür. Təcrübələrin icrasını qrup şəklində etmək daha məqsədəuyğundur. Bu, şagirdlərdə əməkdaşlıq bacarıqlarını inkişaf etdirməklə bərabər, həm də komanda daxilində işləmə və ünsiyyət bacarıqlarının da inkişafına ciddi təsir göstərər.

**ÖYRƏNMƏ** Tədrisinə 2 saat vaxt ayrılan öyrənmə materialında düzgün həyat tərzinin tələblərindən olan gigiyena qaydalarına əməl etmək, idmanla məşğul olmaqla bərabər, qida piramidası və günlük qida rasionundakı qidaların miqdarı haqqında məlumatlar da təqdim olunmuşdur. Öyrənmə materialı təqdim olunarkən qidaların əsas enerji mənbəyi olması və günlük istifadədə onların miqdarının vacibliyi vurğulanmalıdır. Qida piramidasını təqdim edərkən qidaların tərkibinə aid olan mineral və vitamin anlayışlarının istifədə olunmaması daha məqsədəuyğundur. Öyrənmə materialında təqdim olunan digər mövzu dişlərimiz və onların parçalamaq, xırdalamaq kimi funksiyaları, fərdi inkişafın müxtəlif mərhələlərindəki dəyişiklikləri, onlara qulluq, yuxu və yuxunun insan həyatındakı vacibliyidir. Müzakirə sualında isə şagirdlərdə təhlükəsiz idman etmək haqqında təsəvvürün formalaşdırılması hədəflənmişdir.

**TAPŞIRIQ** Tapşırıqların icrası şagirdlərin müstəqil mülahizə yürütmək bacarığının və məntiqi təfəkkürünün inkişafına kömək etməlidir.

1-ci tapşırıqda şagirdlərdən suyun insan orqanizmində istifadə olunan qida olduğunu vurğulamaları tələb olunur. Bu tapşırıqla həm də şagirdlərin gün ərzində su içmələrinə təşviq nəzərdə tutulmuşdur.

2-ci tapşırıq da 1-ci tapşırıq kimi şagirdlərin düzgün qidalanmağa təşviqi hədəflənməklə bərabər, qida piramidasının təhlili və alınan nəticələrə əsasən öz qida piramidalarını qurmaları tələb olunur. Bu zaman şagird gün ərzində hansı qidadan "niyə? və nə qədər?" yeyəcəyi suallarını cavablayaraq, qidalanmanın məntiqi və düzgün təhlilini apararaq sağlam və düzgün qidalanma anlayışını dərk etmiş olacaq. Bu tapşırığın düzgün yerinə yetirilməsi şagirdlərin mövzunu yaxşı mənimsəməsinin göstəricisi ola bilər.

3-cü tapşırıqda isə şagird diş və diş xəstəlikləri haqqında biliklərini qidalanma ilə müqayisəli təhlil etməli və yekun nəticə olaraq düzgün qidalanmanın vacibliyini bu aspektən təqdim etməlidir.

4-cü tapşırıqda şagirdlər sağlam həyat tərzinin əsas tələblərindən olan yuxunun vacibliyini vurğulamalı, həm də yuxu pozğunluğunun nələrə səbəb olmasının müzakirəsini təşkil etməlidirlər. Bu tapşırıq onların təhliletmə və proqnozlaşdırma kimi bacarıqlarının inkişafına təkan verəcəkdir.

**Diferensial təlim.**

*Dəstək.* Şagirdlərə "Balanslı qidalanmasaq nə baş verər?" kimi araşdırma mövzusu təklif etmək olar.

*Dərinləşdirmə.* Şagirdlərə "Sağlam həyat tərzi" adlı layihə keçirmələri təklif oluna bilər. Layihəni sorğu yaxud anket formasında təşkil edə biərlər. Alınan nəticələrin təqdimatını tapşırmaq olar.

Layihə

**Müəllim üçün əlavə məlumat.** Düzgün və balanslı qidalanma sağlam həyat tərzinin əsas tələblərindən biridir. Hər bir qidanın istifadəsində onun gigiyenik tərəflərini fikirləşməklə bərabər, ondan nə qədər istifadə də əsas tələblərdən olmalıdır. Qidaların tərkibində olan maddələr onlardan nə qədər istifadənin tələbini müəyyən edir. Məhz buna görə də bəzi qidalar vitaminlə, bəziləri minerallarla, bəziləri isə zülal, yağ, karbohidrat kimi üzvi birləşmələrlə zəngindir. İnsan orqanizminin bunların hər birinə ehtiyacı var, amma məlum miqdarda. Qida piramidası o ehtiyaca uyğun olaraq gün ərzində hansı tərkibli qidalardan və nə qədər istifadə etməyimizi müəyyənləşdirməyə kömək edir.




**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdə verilən suallar cavablandırılır və şagirdlərin mövzunu nə dərəcədə mənimsədikləri müəyyən olunur.

- Sağlam olmaq üçün nələrə diqqət etməliyik? *(gigiyena qaydalarına, düzgün və balanslı qidalanmağa, müntəzəm idmanla məşğul olmağa və s. kimi cavablar ola bilər)*
- Çox yağlı qidalar sağlamlığımıza necə zərər vura bilər? *(kökəlməyə səbəb olar və s. kimi cavablar)*

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Sağlam həyat tərzini sağlam qidalanma, müntəzəm idmanla məşğul olmaq, düzgün yuxu rejimi və şəxsi təmizlik olaraq sadalayır. | Fəaliyyət, tapşırıq 1, özünüzü yoxlayın |
| Sağlamlığın qorunmasında qida piramidasının rolunu izah edir. | Sual-cavab, tapşırıq 2 |
| Öz qida piramidasını quraraq balanslı qidalanmanın vacibliyini nümayiş etdirir. | Tapşırıq 2 |
| Diş kariyesinin əmələ gəlməsinə bəzi qidaların səbəb olmasını izah edir. | Tapşırıq 3 |
| İdmanla müntəzəm məşğul olmağın insan sağlamlığındakı rolunu izah edir. | Tapşırıq 2 |
| Düzgün yuxu rejiminin insan sağlamlığındakı rolunu izah edir. | Tapşırıq 4 |

Layihə

**Mövzu 11**

**Qida məhsulları**
- **Dərslik:** səh. 44
- **İş dəftəri:** səh. 27

| | |
|---|---|
| **Alt-standartlar** | **3-3.1.2. Sağlamlığı qorumağın yollarını təsvir edir.**<br>**3-3.2.2. Qida və içkilərdən istifadə zamanı təhlükəsizlik qaydalarını sadalayır.** |
| **Təlim məqsədləri** | • İstifadə müddəti bitmiş, etiketi pozulmuş, paketi açıq olan, soyuducuda saxlanılmayan, Günəş şüalarının təsirinə məruz qalan qida və içkiləri istifadə etməmək kimi təhlükəsizlik qaydalarını sadalayır.<br>• Qida məhsullarından istifadə zamanı təhlükəsizlik qaydalarına əməl edilməsini sağlamlığı qorumağın yollarından biri kimi təsvir edir. |
| **Köməkçi vasitələr** | |
| **Resurslar** | https://www.youtube.com/watch?v=6wMzsTOfxgI |

**Dərsin qısa planı**
**Cəlbetmə.** İki şagird arasında istehlak mədəniyyətinə aid dialoq
**Fəaliyyət.** “Marketdə”
**Öyrənmə.** Qida təhlükəsizliyinə aid mətn
**Tapşırıq.** Dərslik: tap 1,2,3 İD: №1-6.
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim mövzuya dərslikdə verilən materialla başlaya bilər. “Sizcə, Səbinə Kamrana xəbərdarlıq etməkdə haqlıdırmı?” Kamrana nə oldu, onun əhvalı nə üçün pisləşdi?” Şagirdlər Kamranın vəziyyətini Səbinənin xəbərdarlığına baxmayaraq, vaxtı ötmüş qida məhsulunu qəbul etməsi ilə əlaqələndirəcəklər. “Onun vəziyyətinə düşməmək üçün, sizcə, daha nələrə diqqət etmək lazımdır?” sualı ətrafında şagirdlərin mülahizələri dinlənildikdən sonra fəaliyyətə keçmək olar.

**FƏALİYYƏT** **“Marketdə”**

Fəaliyyətə başlamazdan əvvəl müəllim şagirdlərə müraciətlə belə bir giriş edə bilər. “Təsəvvür edin ki, qida məhsulları almaq üçün marketə getmisiniz. Yanınızda böyüklərdən heç kim yoxdur və qida məhsullarını özünüz seçməlisiniz. Bunu necə edərsiniz?”.

Fəaliyyəti “***Qızıl dairə” (3N)*** (2W1H) ***üsulu*** ilə təşkil etmək olar. “Qızıl dairə” tənqidi və məntiqi təfəkkürün inkişafına kömək edən, problem həlletmədə səmərəli üsuldur.




3 hissədən ibarət olan (NƏ? NECƏ? NİYƏ?) problemi müəyyənləşdirməyə, onun mahiyyətini dərk etməyə, problem haqqında səmərəli düşünməyə və onu həll etməyə kömək edir. Qızıl dairə – 3N üsulu həm də ünsiyyət texnikasıdır. İdeyaları çeşidləmək və kommunikasiya məzmununun strukturunu qurmaq üçün Qızıl dairə – 3N modeli çox uyğundur. Bu modeldən istifadə etməklə şagirdlər öz fikirlərini və ideyalarını aydın şəkildə çatdıra bilərlər.

Şagirdlər qruplara bölünürlər. Şagird sayından asılı olaraq 4 – 5 qrup təşkil etmək olar. Qrupların hər biri dərslikdəki tapşırığı ayrı-ayrılıqda yerinə yetirir. Qrupların dairə üzrə cavablandırmalı olduğu suallar belədir:

3. Modelin NƏ hissəsi tapşırığın mövzusunun NƏ olmasını təsvir edir.
   Sual: Tapşırıqda nədən bəhs edilir? (Qida təhlükəsizliyindən, təhlükəsiz məhsulun seçimindən)
4. Modelin NECƏ hissəsi tapşırığın NECƏ icra edildiyini təsvir edir.
   Sual: Tapşırıq necə həll olunmalıdır? (Tapşırığın həlli üçün hansı üsullardan istifadə etmək olar?)
5. Modelin NİYƏ hissəsi isə tapşırığın məqsədini ifadə edir. NİYƏ sualı qarşıya çıxa biləcək digər sualların (Qida məhsullarını alarkən niyə onların yararlılıq müddətinə baxmalıyıq? Nə baş verə bilər? Nəyə

Layihə

səbəb ola bilər? və s.) cavabını da müəyyənləşdirir. NİYƏ sualı tapşırığın məqsədinə, səbəb və nəticənin müəyyənləşdirilməsinə istiqamətlənir.
Sonra Fəaliyyət müzakirə sualları ilə davam etdirilir:

- Qidaların yararlılıq müddəti nə üçün fərqlidir?
- Qidaların yararlılıq müddətini bilmək nə üçün vacibdir?

**ÖYRƏNMƏ** Öyrənmə mətni fənn kurikulumundakı iki təlim nəticəsinin reallaşdırılmasına xidmət edir. Bunlardan biri qida və içkilərdən istifadə zamanı təhlükəsizlik qaydalarının sadalanması ilə bağlıdır. Mətndə bu qaydalar belə qeyd olunur:

- Məhsulun xarici görünüşünə diqqət yetirmək – qabı əzik, ləkəli, qapağı açıq məhsulları almamaq;
- Məhsulun son istifadə tarixini yoxlamaq – yararlılıq müddəti bitmiş məhsulu almamaq;
- Məhsulun saxlanma şəraitinə necə əməl edilməsinə diqqət yetirmək – qida məhsulunun quru, sərin yerdə saxlanılmasına, kəskin qoxulu məhsulların yanında qoyulmamasına əmin olmaq.

Bu qaydaların mənimsənilməsi mövzuda reallaşdırılması nəzərdə tutulan ikinci alt-standartla (Sağlamlığı qorumağın yollarını təsvir edir) əlaqələndirilir. Göstərilir ki, vaxtı keçmiş, yararlılığını itirmiş məhsullar qida zəhərlənməsinə və müxtəlif xəstəliklərə səbəb ola bilər.

**Müzakirə**

• Qida məhsulunun istifadəyə yararsız olmasını hansı əlamətlərinə görə müəyyən etmək olar?
• Sizcə, saxlanılma şəraiti hansı məhsulların keyfiyyətinə daha çox təsir edə bilər?

Qida məhsulunun yararsız olmasını göstərən əlamətlər yuxarıda qeyd olunmuş qaydalarda (qabı əzik, ləkəli, qapağı açıq, yararlılıq müddəti bitmiş) verilmişdir.
Şagirdlər 2-ci suala cavab verərkən müxtəlif qida məhsullarını sadalaya bilərlər. Müəllim *ət, balıq, göbələk* kimi qidalarla bağlı cavablara diqqət yetirərək onlardan istifadə zamanı xüsusilə diqqətli olmağın vacibliyini vurğulaya bilər.

**TAPŞIRIQ** **1-ci tapşırıq** şagirdin məsuliyyətli qərarvermə kimi ciddi sosial qabiliyyətinin inkişafına yönəlmişdir: Leyla qida məhsulunun qabı üzərində göstərilən tarixə güvənməlidir, yoxsa məhsulun görünüşünə görə onun istehlakına qərar verməlidir? Tapşırıqda şagirdlərə fikirlərini arqumentlərlə əsaslandırmaq da təklif olunur.
**2-ci tapşırıq** qida məhsullarının saxlanılma şəraitinə düzgün əməl edilməsi bacarığının inkişafına yönəlmişdir. Şagirdlər tapşırıqda adı çəkilən məhsulları göstərilən qaydada cədvəl çəkərək qruplaşdıra bilərlər.

| Soyuducuda saxlanılan qida məhsulları | Rəflərdə saxlanılan qida məhsulları | Qeyri-qida məhsulları |
|---|---|---|
| | | |

**3-cü tapşırıq** öyrənməni davam etdirməklə məntiqi və tənqidi təfəkkürün inkişafına istiqamətlənmişdir. Tapşırıqda plastik qabın yeyinti məhsulları üçün nəzərdə tutulduğunu bildirmək məqsədilə ***"Qədəh və çəngəl"*** beynəlxalq simvolunun istifadəsindən bəhs olunur və qabın üzərində bu işarənin üstündən xətt çəkilməsi, yaxud, ümumiyyətlə, olmaması zamanı həmin qabda yemək saxlamağın nəyə səbəb ola bilməsi barədə müzakirəni nəzərdə tutur. Müzakirənin yekununda şagirdlər belə qablardan istifadənin düzgün olmadığına birmənalı şəkildə qərar verməlidirlər.

**Diferensial təlim.**
*Dəstək*. Saxlanma şəraitinin qida məhsullarının keyfiyyətinə təsirini izah etmək təklif oluna bilər.
*Dərinləşdirmə*. Plastik butulkalarda olan sulardan istifadə zamanı təhlükəsizlik qaydalarını sadalamaq təklif oluna bilər.

**Müəllim üçün əlavə məlumat.**
Qida təhlükəsizliyi haqqında AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA istinad edə bilər.
**Maddə 17.**
**Qida və yem məhsullarının qablaşdırılması və etiketlənməsi zamanı onların təhlükəsizliyinə dair tələblər**
17.1. Qida və yem məhsulları qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğun olaraq onların dövriyyəsi zamanı təhlükəsizliyini təmin edə biləcək üsullarla qablaşdırılmalıdır.
17.2. Qida məhsullarının etiketlənməsi aşağıdakı tələblərə uyğun həyata keçirilməlidir:

Layihə

17.2.1. istehlakçıya qida məhsullarının adı, qida və enerji dəyəri, tərkibi, miqdarı, keyfiyyət göstəriciləri, istehsal tarixi, yararlılıq müddəti, saxlanma şəraiti, tərkibindəki allergenlər, mənşəyi, istehsalçının adı və ünvanı, istehsal üsulu və istifadə qaydaları barədə dolğun məlumatlar verilməlidir;
17.2.5. hər hansı bir qida məhsulunun etiketində həmin məhsulun insan xəstəliklərinin qarşısını alması, müalicəvi xüsusiyyətlərə malik olması haqqında məlumatlar verilməməlidir.

**ÖZÜNÜZÜ YOXLAYIN**

- "Qida təhlükəsizliyi" nə deməkdir? (*Keyfiyyətsiz qida hansı əlamətlərlə fərqlənir*?)
- Qida məhsulunun qabı üzərindəki hansı məlumatlara diqqət etmək lazımdır? (*Düzgün qablaşdırılma, yararlılıq müddəti, saxlanılma şəraiti kimi məlumatlara diqqət etmək nə üçün vacibdir?)*
- Qida məhsulunun yararlılıq müddətinə hansı amillər təsir edir? (*Saxlanılma şəraitinin pozulması)*

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| İstifadə müddəti bitmiş, etiketi pozulmuş, paketi açıq olan, soyuducuda saxlanılmayan, Günəş şüalarının təsirinə məruz qalan qida və içkilərdən istifadə etməmək kimi təhlükəsizlik qaydalarını sadalayır. | Fəaliyyət, tapşırıq 2 |
| Qida məhsullarından istifadə zamanı təhlükəsizlik qaydalarına əməl edilməsini sağlamlığı qorumağın yollarından biri kimi təsvir edir. | Tapşırıq 1, 3 |

## Mövzu 12

**Xəstəlik və sağlamlıq**
- **Dərslik:** səh. 47
- **İş dəftəri:** səh. 29

| | |
|---|---|
| **Alt-standartlar** | **3-3.1.3. İnsanlarda xəstəliyin ümumi əlamətlərini təsvir edir.** |
| **Təlim məqsədləri** | • Xəstəlik anlayışını izah edir.<br>• Xəstəliyin əlamətlərini sadalayır.<br>• Xəstəliklərdən qorunmaq üçün gigiyena qaydalarına əməl etməyin vacibliyini nümayiş etdirir. |
| **Köməkçi vasitələr** | boşqab, su, istiot və maye sabun. |
| **Resurslar** | Dərslik, iş dəftəri. |

**Dərsin qısa planı**
**Cəlbetmə.** Xəstələnmə səbəbləri
**Fəaliyyət.** Təmizlik
**Öyrənmə.** Xəstəlik və xəstəliyin əlamətləri
**Tapşırıq.** Dərslik: tap. №1-4. İD: №1-6
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim şagirdlərdə maraq oyatmaq üçün xəstəlik haqqında müzakirə təşkil edə bilər. Bu müzakirə şagirdlərin ilkin biliklərini yoxlamaqla bərabər, mövzunun mənimsənilməsi üçün də faydalıdır. Suallar xəstəliyin əlamətlərinin öyrənilməsinə yönəldilə bilər. Məsələn:

– Uşaqlar, deyə bilərsinizmi, xəstəlik deyəndə nə başa düşürsünüz? (*Şagirdlərin cavabı "öskürək, asqırma, bədən temperaturunun yüksəlməsi və s." kimi olmalıdır*)

Bundan sonra dərslikdəki suallar əsasında kiçik müzakirə təşkil etmək olar.

Layihə

**FƏALİYYƏT** **Əllərimizi təmiz yuyaq**

Fəaliyyət təmizlik vasitələrinin istifadəsinin vacibliyini müəyyən etməyi nəzərdə tutur. Fəaliyyəti icra etmək üçün su, istiot və maye sabun lazımdır. İstiot mikrobları ifadə edir. Barmağımızı istiotlu suya saldıqda barmağımıza istiot yapışır. Sonra barmağımıza maye sabun sürtürük və yenidən istiotlu suya salırıq. Bu zaman sabunlu barmağın ətrafından istiotlar uzaqlaşır. Təcrübə müddətində şagirdlərə müşahidələrini qeyd etmələrini tapşırın.



Təqdim olunan təcrübələrin sonunda şagirdlərlə nəticələri müzakirə edərək, onların müşahidə, tədqiqat və təhliletmə bacarıqları haqda diaqnostik qiymətləndirmə aparmaq mümkündür. Təcrübələrin icrasını qrup şəklində etmək daha məqsədəuyğundur. Bu, şagirdlərdə əməkdaşlıq bacarıqlarını inkişaf etdirməklə bərabər, həm də komanda daxilində işləmə və ünsiyyət bacarıqlarının da inkişafına ciddi təsir göstərər.

**ÖYRƏNMƏ** Öyrənmə materialında xəstəlik anlayışının izahı, xəstələnmə səbəbləri və xəstəliyin əlamətləri təqdim olunmuşdur. Bu mövzunu şagirdlərə təqdim edərkən davranış qaydaları haqqında da məlumat vermək lazımdır. Bu qaydalara əməl etməklə təkcə öz təhlükəsizliklərini deyil, həm də digər insanların xəstəlikdən qorunmalarına kömək etdiklərini vurğulamaq lazımdır.

Müzakirə sualında isə şagirdlərdə təhlükəsiz məsafə saxlamaq haqqında təsəvvürün formalaşdırılması hədəflənmişdir.

**TAPŞIRIQ** Tapşırıqların icrası şagirdlərin müstəqil mülahizə yürütmək bacarığının və məntiqi təfəkkürünün inkişafına kömək etməlidir.

1-ci tapşırıqda şagirdlərdə xəstəliyin törədicilərinin ətrafa yayılmasının qarşısının alınmasının məntiqi təhlili və müzakirəsi nəzərdə tutulmuşdur.

2-ci tapşırıqda şagirdlərin öz hipotezlərini irəli sürmələri nəzərdə tutulur. Tapşırığın gözlənilən uyğun cavabı isə tərləyərək bədən temperaturunun aşağı salınmasının mümkünlüyü və buna yaxın fikirlərdir. Bu tapşırığın düzgün yerinə yetirilməsi şagirdlərin mövzunu yaxşı mənimsəməsinin göstəricisi ola bilər.

3-cü tapşırıqda isə şagirdlər təqdim olunan fikri əsaslandıraraq müzakirəsini təşkil etməlidirlər.

4-cü tapşırıqda şagirdlər sağlam həyat tərzinin əsas tələblərindən olan idmanla məşğul olmağın vacibliyini vurğulamalı, həm də mövzunun müzakirəsi təşkil edilməlidir. Bu tapşırıq onlardatəhlil etmə bacarıqlarının inkişafına təkan verəcəkdir.

**Diferensial təlim.**

*Dəstək.* Şagirdlərə fərqli xəstəlikləri araşdırmalarını təklif etmək olar.

*Dərinləşdirmə.* Şagirdlərə mövsümə uyğun qidalanma haqqında araşdırma tapşırmaq olar.

**Müəllim üçün əlavə məlumat.** Xəstəlik insan orqanizminin normal həyat fəaliyyətinin pozulmasıdır. Xəstələnmiş insanda müəyyən *simptomlar və əlamətlər* müşahidə olunur. Xəstənin özünü necə hiss etməsi xəstəliyin simptomlarını, həkim tərəfindən müşahidə edilən dəyişikliklər isə xəstəliyin əlamətlərini ifadə edir. Məsələn, yorğunluq, başağrısı və ya digər ağrılar xəstəliyin simptomlarını, qızdırma və öskürək isə xəstəliyin əlamətlərini bildirir. Xəstəliyin törədiciləri olan patogenlər, yəni xəstəlik törədən mikroorqanizmlər hava və damcı yolu ilə yayıldığına görə asqırarkən və ya öskürərkən ağızı örtmək vacibdir. Sağlam qidalanma və idmanla məşğul olmaq orqanizmin xəstəliklərə qarşı müqavimətini artırır.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdə verilən suallar cavablandırılır və şagirdlərin mövzunu nə dərəcədə mənimsədikləri müəyyən olunur.

- Xəstəlik deyəndə nə başa düşürsünüz? *(Xəstəlik insan orqanizminin normal həyat fəaliyyətinin pozulmasıdır)*

Layihə

• Xəstəliyin əlamətləri hansılardır? *(öskürək, asqıraq və bədən temperaturunun yüksəlməsi kimi cavablar)*

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Xəstəlik anlayışını izah edir. | Fəaliyyət, özünüzü yoxlayın |
| Xəstəliyin əlamətlərini sadalayır. | Sual-cavab, özünüzü yoxlayın |
| Xəstəliklərdən qorunmaq üçün gigiyena qaydalarına əməl etməyin vacibliyini nümayiş etdirir. | Tapşırıq 1,2,3,4 |

Layihə

| 3-cü BÖLMƏ | Yer və Ay |
|---|---|

| Mövzu № | Adı | Saat | Dərslik (səh.) | İş dəftəri (səh.) |
|---|---|---|---|---|
| Mövzu 13 | Yer kürəsi və Ay | 2 | 52 | 33 |
| Mövzu 14 | Yerin fırlanması | 2 | 55 | 35 |
| Mövzu 15 | İşıq və kölgə | 2 | 59 | 37 |
| Mövzu 16 | Kölgənin yerini dəyişməsi | 2 | 63 | 39 |
| | Ümumiləşdirici tapşırıqlar | | 66 | 42 |
| | **KSQ** | 1 | | |
| | **CƏMİ** | **9** | | |

**Bölmənin qısa icmalı**

Coğrafiya və fizikaya aid mövzuları əhatə edən bu bölmədə planet kimi Yer kürəsi, Ay, Yerin Günəş ətrafında fırlanması, gecə və gündüzün yaranması, işıq, kölgə və kölgənin yerini dəyişməsi haqqında biliklər şagirdlərin yaş səviyyəsinə uyğun təqdim olunur.




"Yer kürəsi və Ay" mövzusunda Ayın yerin peyki olması, orbit anlayışı, Ayın yerin ətrafında hərəkət etməsi, Ayın səmada müxtəlif formada görünməsi səbəbləri haqqında məlumatlar verilir. Bu məlumatlar şagirdlərdə müqayisəli təhlillər apararaq Ay, Yer, Günəş arasında əlaqələri öyrənməyə imkan yaradır.

"Yerin fırlanması" mövzusu gecə və gündüzün necə yaranması, xəyali ox, saat anlayışı haqqında ilkin təsəvvürlərin formalaşmasına zəmin hazırlayır.

"İşıq və kölgə" mövzusunda şəfaf və qeyri-şəffaf materiallar haqqında təqdim olunan məlumatlar, bu məlumatlar əsasında kölgə anlayışı və onun yaranması qeyd olunur. Təqdim olunan praktik fəaliyyətlər şagirdlərin kölgənin ölçüsünün işıq mənbəyi və əşya arasındakı məsafədən asılılığı haqqında təsəvvürlərinin formalaşmasına səbəb olur.

"Kölgənin yerini dəyişməsi " mövzusunda gün ərzində ağacların, binaların və dirəklərin kölgələrinin yer dəyişməsi haqqında təsəvvürlər təqdim olunub. Bu məlumatlar əsasında tapşırıqlar vasitəsilə şagirdlərə praktik təcrübələr aparmaları təklif olunur ki, bu da onlarda tətbiqetmə bacarıqlarının inkişafına şərait yaradır. Mövzuda təqdim olunan günəş saatı və onun işləmə mevanizmi haqqındakı məlumatlar şagirdlərdə ətraf mühit və təbii şəraitdən istifadəetmə imkanları haqqında təsəvvürlər formalaşdıracaqdır.

***Qeyd.*** Bölmənin spesifik xarakteri nəzərə alınaraq hər mövzuda müəllim üçün məlumatlar təqdim olunur. Məlumatlarda mövzuya aid elmi terminlərin və ifadələrin açıqlaması verilir. Dərsə hazırlaşarkən bu məlumatlar müəllimlərə yardımçı ola bilər.

**Bölməyə giriş**

Bölmənin ilk səhifəsində mövzulara hazırlıq kimi şəkil üzrə iş təşkil edilə bilər. "Hazırsınızmı?" başlığı altında verilən suallar üzrə müzakirə aparmaq mümkündür. Şagirdlərin müzakirədə fəallığı və verdikləri cavablar əsasında müəllim diaqnostik qiymətləndirmə apara bilər. Bu həm də mövzuların tədrisi ilə bağlı metodiki yanaşmaları əvvəlcədən təyin etmək baxımından faydalı olar.

Layihə

**Mövzu 13**

**Yer kürəsi və Ay**
- **Dərslik:** səh. 52
- **İş dəftəri:** səh. 33

| | |
|---|---|
| **Alt-standartlar** | **3-2.4.1.Yerin və Ayın qarşılıqlı mövqeyini təsvir edir.** |
| **Təlim məqsədləri** | • Ayı Yerin peyki kimi təsvir edir.<br>• Ayın Yerin ətrafında fırlanmasını təsvir edir. |
| **Köməkçi vasitələr** | karton kağız, sancaq, qayçı və rəngli karandaş. |
| **Resurslar** | *https://www.youtube.com/watch?v=j4irwqX5AeA*<br>*https://www.youtube.com/watch?v=UrfldlpdRTY* |

**Dərsin qısa planı**
**Cəlbetmə. Auksion**
**Fəaliyyət.** "Ayın hərəkəti"
**Öyrənmə.** Yerin təbii peyki haqqında mətn."Qartopu"texnikası
**Tapşırıq.** Dərslik: tap. №.1-3. İD: №. 1-5
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**
**Dərsdən sonra.** Bir həftə ərzində Ayın səmada hərəkətini və formasını müşahidə etmək, müqayisələr aparmaq.

**CƏLBETMƏ** Cəlbetmə mərhələsində ***Auksion*** üsulu məqsədəuyğundur. Auksionu "*Ay haqqında nə bilirsiniz*?" sualı ilə başlatmaq olar. Müəllim şagirdləri auksionun keçirilmə qaydaları haqqında təlimatlandırır. Hamı növbə ilə əşya və ya hadisə haqqında fikir söyləyir: hər bir fikirdən sonra müəllim sayır – "Bir, iki". Bu zaman başqa iştirakçı tez təklif verə bilər. Sonuncu təklif verən qalib sayılır .Fikirlər bir-birini təkrarlamamalıdır. Bunun üçün hamı bir-birini diqqətlə dinləməlidir.

**FƏALİYYƏT** **"Ayın hərəkəti"**
1. Karton kağız üzərində Günəş, Yer kürəsi və Ay şəkilləri çəkin.
2. Şəkilləri kəsərək rəngləyin.
3. Günəş, Yer kürəsi və Ay şəkillərini ardıcıl bir-birinə sancaqla birləşdirin.
4. Modeldə səma cisimlərini hərəkət etdirin.
   - Hazırladığınız modeldə nə müşahidə etdiniz?

   Müzakirədə şagirdlər Yerin və Ayın hərəkət etməsini müşahidə etdiklərini söyləməlidirlər. İkinci suala (*Yer Günəş ətrafında hərəkət edir, bəs Ay necə*?) cavab isə belə olacaq: "*Yer Günəşin ətrafında, Ay isə Yerin ətrafında hərəkət edir. Yerlə Ay birlikdə Günəşin ətrafında hərəkət edir*".

Şagirdlər fəaliyyəti qrup halında yerinə yetirə bilərlər.
Fəaliyyətin əməli hissəsi başa çatandan sonra dərs BİBÖ üsulu ilə davam etdirilə bilər.
BİBÖ (nəyi bilirik, nəyi bilmək istəyirik, nəyi öyrəndik) şagirdlərin əvvəlki biliyi, təcrübəsi ilə yeni biliklər arasında əlaqə yaratmağa imkan verir, mövzu, problem barədə düşünmələrini təmin edir.
Müəllim lövhədə 3 sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir:

| Nəyi bilirik | Nəyi bilmək istəyirik | Nə öyrəndik |
|---|---|---|
| | | |

Şagirdlər əvvəl mənimsəmiş olduqları bilikləri bir daha nəzərdən keçirir və öyrənmək, cavabını tapmaq istədikləri məsələləri, sualları müəyyənləşdirirlər. Bu məqsədlə şagirdlər cütlər, qruplar halında mətni oxuyurlar.
Cütlər və ya qruplar mövzu barəsində əvvəlki biliklərinə dair qeydlər aparırlar. Mətn oxunduqdan sonra müəllim ikinci sütundakı suallara qayıdır, əgər mətndə sualların cavabları verilibsə, onları üçüncü sütunda qeyd etməyi tapşırır.

Layihə

Şagirdlərin qeydləri dinlənilir, məqsədəuyğun sayılan cavablar müvafiq sütunda qeyd edilir. Şagirdlər əvvəlki biliklərini (birinci sütunda qeyd edilənləri) yeni öyrəndikləri biliklərlə (yeni öyrənilənlər sütunundakı məlumatla) müqayisə edir, nəticə çıxarırlar.

**ÖYRƏNMƏ** Mətn kiçik olsa da, özündə xeyli informasiya daşıyır. Burada Ayın Yer planetinin peyki olması və Yerin ətrafında saat əqrəbi hərəkətinin əksi istiqamətində fırlanması, ***“orbit“*** anlayışının izahı, Ayın səmada müxtəlif formalarda görünməsinin səbəbi izah olunur.

**Müzakirə**

• Ayın şəkildə gördüyünüzdən başqa formalarını da müşahidə etmisinizmi? Etmisinizsə, onları necə təsvir edə bilərsiniz?

• “Cavan Ay” və “Köhnə Ay” görünüşcə bir-birindən necə fərqlənir? Sizcə, onları nə üçün belə adlandırırlar?

**TAPŞIRIQ**





**Tapşırıq 1.** Şagirdlərdən hansı ifadənin yanlış olması soruşulur. Tapşırıqda C bəndində verilən fikir yanlışdır.

**Tapşırıq 2.** Verilmiş şəkildə Yerin və Ayın orbitləri arasında hansı fərqi müşahidə edirsiniz?

Tapşırığı Eyler-Venn diaqramında oxşar-fərqli cəhətlər baxımından da həll etmək olar.

**Tapşırıq 3.** Tənqidi və məntiqi təfəkkürün inkişafına istiqamətlənmişdir. Şagirdlər Ayın Günəş tərəfindən işıqlandığını, Günəş işığı düşməyən yerlərinin qaranlıqda qaldığı üçün görünmədiyini söyləməli, Ayın müxtəlif formalarda görünməsinin səbəbini isə onun Yer ətrafında hərəkət etməsi ilə əlaqələndirməlidirlər.

**Diferensial təlim.**

*Dəstək*. Şagirdlərə Ayı təsvir etməyi təklif etmək olar.

*Dərinləşdirmə*. Şagirdlərə Ayın Yer ətrafındakı hərəkətini və ay ərzində səmada necə göründüyünü təsvir etməyi tapşırmaq olar.

**Müəllim üçün əlavə məlumat.** Günəş sistemində yalnız bir işıq mənbəyi var ki, bu da Günəşdir. "Ay işığı" deyilən, əslində, Ayın səthindən əks olunan Günəş işığıdır. Ay Yerdən hər ötən gün fərqli formalarda görünür. Əslində, Ayın forması dəyişmir. Sadəcə, Yer və Günəşə görə, mövqeyindən asılı olaraq, Ayın müəyyən bir hissəsi işıqlanıb görünür, qalan hissəsi isə işıqlanmadığı üçün görünmür.




Ay Yerdən aypara və bədirlənmiş ay formalarında görünür ki, bunlara Ayın fazaları deyilir. Ayın Yerə baxan üzü bütöv şəkildə işıqlananda o, tam dairə formasında görünür. Ayın bu fazası bədirlənmiş Ay adlanır.

Ay Günəşlə Yer arasında olduqda Ayın Yerə baxan üzü tamamilə işıqsız qalır və ona görə də Yerdən görünmür. Bu hala Yeni Ay fazası deyilir. Bir qədər sonra Ay nazik aypara şəklində görünüb gündən-günə böyüməyə başlayır. Təqribən 2 həftədən sonra bədirlənmiş Ay fazasına gəlir. Təqribən daha iki həftə keçir, Ay yenə Yerlə Günəş arasında qalıb görünməz olur və təkrar Yeni Ay müşahidə olunur.

**ÖZÜNÜZÜ YOXLAYIN**

- Peyk nədir və nəyin ətrafında hərəkət edir? (*Peyk nədir? – səma cismidir. Peyk nəyin ətrafında hərəkət edir? – Peyk planetlərin ətrafında hərəkət edir.)*
- Ay Yer planetinin ətrafında hansı istiqamətdə hərəkət edir? (*Yer planetinin peyki necə adlanır? – Ay. Ay Yerin ətrafında hansı istiqamətdə hərəkət edir? – Saat əqrəbinin əksi istiqamətdə. Ayın Yer ətrafındakı yolu necə adlanır? – Orbit. Bu yol hansı formadadır? – Orbit çevrəyə bənzəyir. Ayın Yerin ətrafında tam bir dövrəni nə qədər müddətdə başa vurur? – Təqribən bir aya*

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Ayı Yerin peyki kimi təsvir edir. | Fəaliyyət, tapşırıq 1 ,2, |
| Ayın Yerin ətrafında fırlanmasını təsvir edir. | Tapşırıq 1, 3 |

Layihə

**Mövzu 14**

**Yerin fırlanması**
- **Dərslik:** səh. 55
- **İş dəftəri:** səh. 35

| Alt-standartlar | 3-2.4.1.Yerin öz oxu ətrafında fırlanmasının coğrafi nəticələrini izah edir. |
|---|---|
| Təlim məqsədləri | • Gecə-gündüz növbələşməsini Yerin öz oxu ətrafında fırlanmasının nəticəsi kimi izah edir.<br>• Fərqli saat bölgüsünün yaranmasını Yerin öz oxu ətrafında fırlanmasının nəticəsi kimi izah edir. |
| Köməkçi vasitələr | plastilin, nazik çubuq, fənər. |
| Resurslar | *https://www.youtube.com/watch?v=mh8Nw41Lazo* |

**Dərsin qısa planı**
**Cəlbetmə.** Auksion
**Fəaliyyət.** "Yerin hərəkəti"
**Öyrənmə.** Yerin öz oxu ətrafında fırlanmasının nəticələri haqqında mətn
**Tapşırıq.** Dərslik: tap. №.1-3. İD: №.1-6
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Cəlbetmə mərhələsində dərslikdəki şəkilli məlumatdan və "Beyin həmləsi" üsulundan istifadə etmək olar. Şagirdlər qədim Hindistanda insanların Yerin hərəkəti ilə bağlı fikirlərinə qarşı maraqlı mülahizələr söyləyə bilərlər. Bu mülahizələr həm də, müəyyən mənada, "Sizcə, Yer kürəsi necə hərəkət edir?" ikinci müzakirə sualının qismən cavablandırılması hesab edilə bilər. Daha çox fərziyyə söylənməsi üçün müəllim şagirdlərin müzakirədə fəal iştirak etməsinə çalışmalıdır.

**FƏALİYYƏT** **"Yerin hərəkəti"**

1. Göy və yaşıl plastilinlərdən istifadə edərək Yer kürəsinin modelini hazırlayın.
2. Hazırladığınız modelin mərkəzindən çubuq keçirin.
3. Fənəri yandırın və çubuğun köməyi ilə Yer modelini yavaş-yavaş fırladın.
   - Model fırlanarkən onun hansı hissəsinə fənərin işığı düşür?
   - Hazırladığınız modellə Yer kürəsi arasında hansı oxşarlıq var?

Şagirdlər fənərin işığının modelin hər tərəfinə eyni vaxtda düşmədiyini müşahidə edəcək, modelin fırlanma istiqamətində hissə-hissə işıqlandığını söyləyəcəklər.

İkinci suala cavab olaraq Yerin hazırladıqları model kimi kürə şəklində olduğunu və Günəş tərəfindən işıqlandığını söyləyə bilərər.

Fəaliyyətin əməli hissəsi başa çatandan sonra dərs ***"Qartopu" texnikası*** ilə davam etdirilə bilər. **"**Qartopu" texnikası şagirdlərin fikirlərini və ideyalarını paylaşmasına imkan verən aktiv öyrənmə üsuludur. Bu texnika şagirdlərdə əməkdaşlıq etmək, qrupda işləmək, tənqidi və məntiqi təfəkkürün inkişafı kimi bacarıqlarının formalaşmasına istiqamətlənmişdir. Əvvəlcə şagirdlər sualı cavablandıran fərdlər kimi fəaliyyətə başlayırlar. Fəaliyyətin sonuna doğru geniş söhbət və mübadilə qrupları yaranır. Bunun üçün müəllim tələb olunan sorğunu şagirdlərə təqdim edir. Bu məqsədlə iş vərəqində dərslikdəki 3-cü tapşırıq verilə bilər.

Şagirdlərə məlumatları nəzərdən keçirmək üçün 10–15 dəqiqə vaxt verilir. Hər şagird 5 dəqiqə ərzində yoldaşı ilə fikirlərini bölüşür. Fikirlərini müzakirə etdikdən sonra cütlük başqa bir cütlüklə birləşib 4 şagirddən ibarət qrup yaradır və müzakirəni davam etdirir. 4 nəfərlik qruplar birləşərək 8 nəfərlik qrup yaradır. Nəhayət, fəaliyyət sinif müzakirəsi ilə tamamlanır.

**ÖYRƏNMƏ** Mətndə Yerin kürə formasında olması və hərəkət etməsi qeyd olunur. Yerin mərkəzindən keçən "xəyali oxu"ndan bəhs edilir. Göstərilir ki, Yer planeti daim öz oxu ətrafında fırlanır. Mətndə sutka barədə də məlumat verilir.

Yer planetinin öz oxu ətrafında fırlanması nəticəsində onun Günəşə tərəf olan hissəsi işıqlanır, əks tərəfi isə qaranlıq olur. Beləliklə, gündüz və gecə növbələşir.

Layihə

**Müzakirə**

• Gecələr havanın gündüzə nisbətən daha sərin olmasının səbəbi nədir?

• Yer kürəsinin öz oxu ətrafında fırlanması canlılara necə təsir edir?

Şagirdlər birinci sualın cavabında gecələr işıq və istiliyin gündüzə nisbətən az olmasını söyləyə bilərlər. İkinci suala cavab olaraq şagirdlər gündüz əksər canlıların daha fəal olmasını qeyd edə bilərlər.

Yerin öz xəyali oxu ətrafında fırlanması onun bir tərəfində gündüz, digər tərəfində isə gecə yaranmasına səbəb olur. Buna görə də günün eyni vaxtında müxtəlif ölkələrdə saatın göstəriciləri bir-birindən fərqlənir.

**Müzakirə**

•Sizcə, Yer kürəsi öz oxu ətrafında fırlanmasaydı, nə baş verərdi?

• Canlılar gecə ilə gündüzün növbələşməsinə necə uyğunlaşıblar?

1-ci sual “***Nə olardı əgər...”*** (proqnozlaşdırma) üsulu ilə cavablandırılır. Cütlərdə aparılan bu üsul şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirən üsuldur. Şagirdlərə “*Yer kürəsi öz oxu ətrafında fırlanmasaydı, nə baş verərdi?”* sualı verilir və hadisələrin davamını söyəmək təklif olunur.

İkinci suala cavabında şagirdlər “*Canlıların böyük qismi, o cümlədən insan gecələr yatır, gündüzlər isə oyaq olur*” söyləyə bilərlər.




**TAPŞIRIQ** Tapşırıq 1. Şagirdlərə sözləri uyğun gələn ifadələrlə əlaqələndirmək təklif olunur.

Tapşırıq refleksiya xarakterlidir və şagirdlərin öz biliklərini yoxlamasına şərait yaradır.

**Tapşırıq 2.** Tapşırıqda 2-ci və 3-cü şəkillər seçilməlidir. Şəkillərdən birində gündüz, digərində gecə-gündüz təsvir olunmuşdur.

**Diferensial təlim.**

*Dəstək*. Şagirdlərə Yerin xəyali oxu barədə danışmaq tapşırıla bilər.

*Dərinləşdirmə*. Şagirdlərə Yerin öz oxu ətrafında fırlanmasının nəticələri və vaxt bölgüsü barədə danışmaq təklif oluna bilər.

**Müəllim üçün əlavə məlumat.** Bioloji proseslərin intensivliyinin dövri olaraq dəyişməsi ***bioloji ritmlər*** adlanır. Bioloji ritmlər Yerin öz oxu ətrafında fırlanmasından asılı olaraq işıqlanma və temperaturun dəyişməsi nəticəsində yaranır. Bu amillər sutka və il ərzində dövri olaraq dəyişdiyinə görə canlı orqanizmlərdə sutkalıq, fəsil, illik və s. ritmlər yaranmışdır. Bioloji ritmlər orqanizmin “***bioloji saat***“ adlanan xüsusi daxili mexanizmləri ilə saxlanılır. ”Bioloji saat” orqanizmlərin günün vaxtlarını hiss etmək qabiliyyətidir. Orqanizmlərdə sutkalıq və fəsil ritmləri aydın nəzərə çarpır. Sutkalıq ritmlər Yerin öz oxu ətrafında fırlanması, gecə və gündüz növbələşməsi nəticəsində baş verir. Temperaturun və işığın təsiri ilə gün ərzində fəallıq və dinclik fazaları bir-birini əvəz edir. Gündüz həyat tərzi keçirən canlılar sutkanın işıqlı vaxtı, gecə həyat tərzi keçirənlər isə gecə fəal olurlar. Fəsil ritmləri Yerin Günəş ətrafında fırlanması ilə bağlıdır.

**ÖZÜNÜZÜ YOXLAYIN**

• Yerin xəyali oxu nədir? (*Ona nə üçün “xəyali ox” deyirlər? “Xəyali ox” nə üçün lazımdır?* )

• Gecə ilə gündüzün növbələşməsinin səbəbi nədir? *(Gecə və gündüzün ardıcıllığı nə üçün pozulmur? Nə üçün gecədən sonra gündüz, gündüzdən sonra gecə gəlir?)*

• Müxtəlif ölkələrdə eyni vaxtda saat göstəricilərinin fərqli olmasının səbəbi nədir? *(Yerin öz oxu ətrafında fırlanması dünyanın müxtəlif ölkələrində saat göstəricilərinə necə təsir edir?)*

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Gecə-gündüz növbələşməsini Yerin öz oxu ətrafında fırlanmasının nəticəsi kimi izah edir. | Fəaliyyət, tpşırıq 1 ,2, 3 |
| Fərqli saat bölgüsünün yaranmasını Yerin öz oxu ətrafında fırlanmasının nəticəsi kimi izah edir. | Tapşırıq 3 |

Layihə

**Mövzu 15**

## İşıq və kölgə

- **Dərslik:** səh. 59
- **İş dəftəri:** səh. 37

| | |
|---|---|
| **Alt-standartlar** | **3-2.3.1. Şəffaf və qeyri-şəffaf materialları fərqləndirir.**<br>**3-2.3.2. Kölgənin yaranmasını izah edir.** |
| **Təlim məqsədləri** | – İşığı keçirən və keçirməyən materialları fərqləndirir.<br>– Kölgənin necə yarandığını izah edir.<br>– İşıq mənbəyi ilə cisim arasındakı məsafənin kölgənin ölçüsünə təsirini izah edir. |
| **Köməkçi vasitələr** | Fənər, gözlük, alma, rəngsiz şüşə, qələm. |
| **Resurslar** | *https://www.youtube.com/watch?v=5Yl3QuIMYT0&t=78s* |

**Dərsin qısa planı**
**Cəlbetmə.** İşıqda və qaranlıqda
**Fəaliyyət.** Kölgənin yaranması
**Öyrənmə.** İşığı keçirən və keçirməyən materiallar
**Tapşırıq.** Dərslik: tap. №1-5. İD: №1-5
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Cəlbetməni resursun istifadəsi ilə təşkil etmək olar. Uşaq Youtube kanalında ***"Kölgələri tapaq"*** oyunu nümayiş etdirilir. Şagirdlər kölgələrin hansı heyvanlara aid olmasını tapırlar. Sonra müəllim sual verir. "*Kölgələrin hansı heyvanlara aid olduğunu necə tapdınız? Kölgələr necə yaranır?*" Şagirdlərin bu barədə mülahizələri dinlənilir. Bundan sonra dərsin Fəaliyyət mərhələsinə keçilir.
Müəllim dərslikdəki şəkil və əlaqədar sualla da şagirdləri düşünmə prosesinə cəlb edə bilər. Hava şəraiti imkan verərsə, dərslikdəki motivasiyanı əyani nümayiş etdirmək olar. Əvvəlcə pəncərənin pərdələri çəkilmiş halda almanı pəncərə altlığının üzərinə qoyaraq müşahidə aparılır. Sonra isə pərdələri açılmış, gün işığı düşən otaqda alma müşahidə edilir. Müşahidələrdən sonra müzakirə aparılır.
*"Hansı halda almanın kölgəsini gördünüz? Sizcə, niyə?"* Şagirdlər kölgənin yaranmasını işıqla əlaqələndirməlidirlər. Sonra müəllim əlavə edə bilər: "*Təcrübə aparmaq üçün əvvəlcə pərdələri qapatdıq. Pərdələri nə üçün qapatdıq? Pərdələrin qapanması nəyi dəyişdi?*" Şagirdlər bu müzakirədə o qənaətə gəlirlər ki, pəncərə şüşələri işığın qarşısını kəsə bilmir, pərdələr isə işığın qarşısını kəsir. "*Pəncərənin şüşəsi işığı keçirir, ona görə də onun kölgəsi yaranmır. Pərdələr isə işığın qarşısını kəsdiyinə görə kölgə yaranır.*"

**FƏALİYYƏT** **"Kölgənin yaranması"**
Şagirdlər gözlüyün kölgəsini müşahidə edirlər. Onlar həmçinin əşyanın işıq mənbəyinə yaxınlaşdırılması və ya uzaqlaşdırılması ilə kölgənin ölçüsünün necə dəyişdiyini qeyd edirlər.
***Təklif:*** Bir şagird fənəri gözlüyə müxtəlif bucaqlardan tuta bilər. Digər şagirdlər isə işığın bucağının kölgəyə təsirini müşahidə edirlər. Məsələn, fənər üstdən, altdan və ya yandan tutulduqda şagirdlər kölgənin necə dəyişdiyini görürlər. Sonra müşahidələrinin nəticələrini müzakirə edirlər. Dərslikdə verilmiş suallara şagirdlərin fəaliyyətdən gəldikləri nəticələrə görə cavab aldıqdan sonra müəllim sinfə müraciətlə: "Fənərin işığını gözlüyə yuxarıdan, aşağıdan və ya yandan tutduqda onun kölgəsi necə dəyişdi?" sualını verə bilər. (Fənəri yuxarıdan tutduqda gözlüyün kölgəsi aşağıda, fənəri aşağıdan tutduqda gözlüyün kölgəsi lövhənin yuxarı hissəsində olur, fənəri yandan tutduqda isə kölgə lövhənin yan tərəfinə düşür).
Müzakirədə müəllim soruşa bilər: "Niyə biz gözlüyün kölgəsinə baxanda yalnız çərçivəsinin kölgəsini görürük?" Şagirdlər gözlüyün şüşələrinin işığı keçirdiyinə, çərçivənin isə işığı keçirmədiyinə görə kölgə yaratdığını söyləyirlər.

**ÖYRƏNMƏ** Mətndə diqqət işığı keçirən və keçirməyən materialların fərqləndirilməsinə yönəldilir. Göstərilir ki, işığı keçirən materiallar şəffaf, keçirməyənlər isə qeyri-şəffaf materiallardır. Şəffaf materiallardan hazırlanmış əşyalar işığı keçirdiyi üçün onların kölgəsi yaranmır, qeyri-şəffaf materiallar isə

Layihə

işığı keçirmədiyi üçün belə materiallardan hazırlanmış əşyaların kölgəsi yaranır. Mətndə kölgəsinə görə əşyanın formasını müəyyən etməyin mümkünlüyü və əşyanı işıq mənbəyinə yaxınlaşdırdıqda kölgəsinin böyüməsi, uzaqlaşdırdıqda isə kiçilməsi qeyd edilir.

**Müzakirə**

• Nə üçün qaranlıqda əşyaların kölgəsi yaranmır?
• Kölgəsinə əsasən əşyaları necə müəyyən edirsiniz?

**TAPŞIRIQ** Dərslikdə verilmiş 1-ci və 2-ci tapşırıq şagirdlərin şəffaf və qeyri-şəffaf materiallar haqqında anlayışlarını inkişaf etdirməyə kömək edir.

**Tapşırıq 3-də** şagirdlərə işıq mənbəyi ilə arasındakı məsafəyə görə əşyaların kölgəsinin ölçüsünün necə dəyişdiyini izah etmək təklif olunur.

**Tapşırıq 4.** Şagirdlərə əlin şəklinə diqqət yetirərək onun kölgəsini təyin etmək tapşırılır.

**Tapşırıq 5.** Şagirdlər şəklin müşahidəsi əsasında a) bəndində divara karandaşın və stəkanın kölgəsi düşdüyünü, tapşırığın b) bəndində isə kölgəyə görə işıq mənbəyinin yerini təyin edirlər. (Kölgənin həmişə işıq mənbəyinin qarşı tərəfinə düşdüyünü bildirirlər). Tapşırığın c) bəndində şagirdlər izah edirlər ki, stəkan işığı keçirdiyi üçün kölgəsi çox zəifdir, ancaq karandaş qeyri-şəffaf olduğuna görə onun kölgəsi aydın görünür.

**Diferensial təlim.**

*Dəstək.* Şagirdlərə işığı keçirən və keçirməyən materiallara aid nümunələr göstərmək təklif oluna bilər.

*Dərinləşdirmə.* Şagirdlərdən işıq mənbəyi ilə əşya arasındakı məsafənin kölgənin ölçüsünə necə təsir etməsi soruşula bilər.

**Müəllim üçün məlumat.** Günəşdən Yer səthinə şüa şəklində gələn istilik və işığın miqdarına Günəş radiasiyası deyilir. Günəş radiasiyası Yer səthinə *düz və səpələnən formalarda* gəlir. Düz radiasiya Günəşdən birbaşa düşən və ***kölgə yaradan*** radiasiyadır. *Səpələnən radiasiya* isə şüaların buludlardan, su hissəciklərindən və s. keçərək sınması nəticəsində yaranır. Hava buludlu olanda işıq şüaları Yer səthinə birbaşa düşmədiyindən əşyaların kölgəsi görünmür. Ona görə də buludlu havalarda kölgə ilə bağlı təcrübələrin qaranlıq otaqda və fənərlə aparılması məqsədəuyğundur.

**ÖZÜNÜZÜ YOXLAYIN**

• Əşyanın kölgəsi nə üçün yaranır? (*İşıq olmasa, kölgə yarana bilərmi? İşıqda əşyanın kölgəsi necə yaranır? – Əşya işığın qarşısını kəsdiyi üçün onun kölgəsi yaranır.)*
• Kölgənin yaranması üçün əşya hansı maddədən hazırlanmalıdır? (*Kölgənin yaranması üçün əşya işığı keçirməyən, işığın qarşısını kəsən, yəni qeyri-şəffaf materialdan hazırlanmalıdır. Məsələn, kitab, qələm, və ya stul kimi əşyalar işığı keçirmədiyi üçün onların kölgəsi yaranır.*)
• Əşyanın kölgəsinin ölçüsü nə zaman böyük, nə zaman kiçik olur? (*Əşya işıq mənbəyinə yaxın olduqda onun kölgəsi böyük, işıq mənbəyindən uzaq olduqda isə kiçik olur.)*

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| İşığı keçirən və keçirməyən materialları fərqləndirir. | Fəaliyyət, tapşırıq 1,2 |
| Kölgənin yaranmasını izah edir. | Müzakirə, tapşırıq |
| İşıq mənbəyi ilə əşya arasındakı məsafənin kölgənin ölçüsünə təsirini izah edir. | Fəaliyyət, müzakirə, tapşırıq |

Layihə

Mövzu 16

**Kölgənin yerini dəyişməsi**
- **Dərslik:** səh. 63
- **İş dəftəri:** səh. 39

| | |
|---|---|
| **Alt-standartlar** | **3-2.4.2. Gün ərzində kölgənin dəyişməsini Yerin öz oxu ətrafında fırlanması ilə əlaqələndirir.** |
| **Təlim məqsədləri** | • Kölgənin yerini dəyişməsini Yerin öz oxu ətrafında fırlanması ilə əlaqələndirir.<br>• Kölgənin yerini dəyişmə istiqamətini Yerin öz oxu ətrafında fırlanması ilə əlaqələndirir.<br>• Kölgənin uzanıb-qısalmasını Yerin öz oxu ətrafında fırlanması ilə əlaqələndirir. |
| **Köməkçi vasitələr** | Fənər, oyuncaqlar, fiqurlar, saat, qələm, rəngli karandaşlar, A4 vərəq. |
| **Resurslar** | *https://www.youtube.com/watch?v=68ipIG21O7A* |

**Dərsin qısa planı**
**Cəlbetmə.** Kölgə oyunu
**Fəaliyyət.** Kölgənin yerini dəyişməsi
**Öyrənmə.** Kölgə və vaxt.
**Tapşırıq.** Dərslik: tap. №1-3. İD: №1-5
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Hava şəraiti uyğun olarsa, şagirdləri məktəbin həyətinə çıxarmaq və ya Günəş işığı düşən açıq bir sahəyə aparmaq olar. Fəaliyyəti sinifdə yerinə yetirmək üçün müəllim uyğun şəraiti təmin edə bilər. Şagirdlərə əllərini işığa doğru tutub onların kölgəsinə baxmaları təklif oluna bilər. Daha sonra müəllim onları hərəkət etməyə və fərqli vəziyyətlər almağa təşviq edir. Sonra şagirdlərə aşağıdakı sualları vermək olar:
– *Bir yerdə dursanız, kölgəniz hansı tərəfdə olar?* (Şagirdlərin mümkün cavabları: Kölgəm Günəşin əks tərəfində olur. Məsələn, əgər Günəş sağ tərəfdədirsə, kölgəm sol tərəfdə olur. Günəş arxamda olanda isə kölgəm qarşıya düşür, Günəş qarşıdadırsa, kölgəm arxaya düşür.)
– *Əlinizi fərqli formada tutsanız, kölgəsi necə dəyişir?* (Şagirdlərin mümkün cavabları: Əlimi fərqli formada tutsam, kölgəsi də ona uyğun olaraq dəyişir. Məsələn, əlimi yuxarı qaldıranda kölgəm daha uzun olur, əlimi yana doğru açsam, kölgəm də yana doğru uzanır. Bədənimi yana çevirsəm, kölgəm də o tərəfə dönür. Dik dursam, kölgəm uzun görünür, əyilsəm, kölgəm qısalır və s.)
Müəllim hərəkət etməyən obyektləri müşahidə etmələri üçün şagirdlərin diqqətini ətrafdakı ağacın və ya işıq dirəyinin kölgələrinə yönəldə bilər. Şagirdlər müşahidə etdikdən sonra bu sualları vermək olar:
– *Bu obyektlərin kölgəsi haradadır?* (Şagirdlərin uyğun cavabları: Kölgə işıq düşən tərəfin əksində olur, ona görə Günəşin hansı tərəfdə olduğuna baxmaq lazımdır,– ola bilər.)
– *Niyə günün fərqli vaxtlarında kölgələr dəyişir?* (Şagirdlərin uyğun cavabları: Günəş hərəkət etdikcə, kölgələr də hərəkət edir.) Müzakirənin gedişində Günəşin deyil, Yer kürəsinin öz oxu ətrafında hərəkətinin kölgələrin yerini dəyişməsinə səbəb olması fikri şagirdlərin diqqətinə çatdırılır.
Bu və dərslikdə verilmiş digər müzakirə sualları ilə şagirdlərin mövzu ətrafında fikirləri alına bilər.
Bu sadə və əyləncəli fəaliyyət şagirdlərdə mövzuya maraq oyada, onların müşahidə qabiliyyətini inkişaf etdirə bilər.

**FƏALİYYƏT** Müəllim dərslikdə verilmiş fəaliyyətin cütlərlə aparılmasını təşkil edə bilər. Hər bir şagird öz parta yoldaşı ilə fəaliyyəti addım-addım icra edir. Burada məqsəd şagirdlərin fəaliyyəti yerinə yetirərkən müşahidə etdiklərini təsvir edə bilmələridir. Fəaliyyətin icrası zamanı müəllim fənərin yerini dəyişməməyi



Layihə

vurğulamalıdır, çünki şagirdlər yalnız karandaşın hərəkətinə görə kölgənin dəyişdiyini anlamalıdırlar. Şagirdlərdən karandaşın yerini dəyişdikləri zaman nə müşahidə etdikləri soruşulur:
• Karandaşı hərəkət etdirərkən onun kölgəsi necə dəyişdi?
• Kölgənin yerinin dəyişməsinin səbəbi nədir?
Karandaş yerində tərpənməz qaldıqda kölgənin istiqaməti və forması da dəyişməz olur. Karandaş hərəkət etdikcə, kölgə də karandaşın mövqeyinə görə hərəkət edir. Kölgənin mövqeyi karandaşın işıq mənbəyinə görə mövqeyindən asılı olaraq dəyişir.

**ÖYRƏNMƏ** Mətndə gün ərzində ağac, bina və dirək kimi sabit cisimlərin kölgələrinin dəyişməsinin Yerin öz oxu ətrafında fırlanması nəticəsində baş verdiyi izah edilir. Qeyd edilir ki, Yer kürəsinin öz oxu ətrafında fırlanması kölgələrin gün ərzində müxtəlif istiqamətdə və uzunluqda olmasına səbəb olur. Həmçinin qədim dövrlərdə insanların kölgənin uzunluğunun gün ərzində dəyişməsinə əsasən Günəş saatı hazırladıqları qeyd olunur. Şagirdlərə Günəş saatının tarixini və iş prinsipini sadə şəkildə izah etmək üçün saatın bir modeli hazırlana və kölgənin istiqamətinə görə vaxtın necə təyin edilməsi izah oluna bilər.

**Müzakirə**

*• Sizcə, səhərdən axşama doğru kölgənin uzunluğu necə dəyişir?*
Bu sualın müzakirəsi zamanı şagirdlər Yer kürəsinin öz oxu ətrafında hərəkətinə və Günəşə görə mövqeyinə uyğun olaraq kölgənin necə dəyişdiyini öyrənirlər. Məsələn, səhər və axşam vaxtı kölgə uzun olur, günorta isə qısalır.

*• Bina hərəkət etmədiyi halda, onun kölgəsi yerini niyə dəyişir?*
Bu sualın müzakirəsi zamanı şagirdlər öyrənirlər ki, sabit obyektlər hərəkət etməsə də, Yer kürəsinin öz oxu ətrafında fırlanması nəticəsində onların Günəşə görə mövqeyi dəyişir. Buna görə də bina, ağac kimi sabit obyektlərin kölgəsi yerini dəyişir.

**TAPŞIRIQ** Dərslikdə verilmiş **tapşırıq 1** ( *İşıq dirəyinin kölgəsi səhər, günorta, yoxsa axşamüstü daha qısadır? Fikrinizi əsaslandırın*) şagirdlərin Günəşin səmada mövqeyi ilə kölgə arasındakı əlaqəni anlamalarına kölgələrin uzunluğuna görə vaxtı təxmin etmək bacarıqlarının formalaşmasına kömək edir.



**Tapşırıq 2** (*Şəkildəki Günəş saatı səhər vaxtını göstərir. Günorta və axşamüstü üçün çubuğun kölgəsinin yerinin şəklini çəkin.*) şagirdlərin 1-ci tapşırıqda təqdim etdiyi fikri əyani göstərmələrini nəzərdə tutur.
**Tapşırıq 3** (*Kölgənin yerinin dəyişməsinə əsasən vaxtı necə müəyyən etmək olar?*) şagirdlərdə kölgənin yerinin və uzunluğunun dəyişməsinə əsasən günün hansı saatı olmasını təxmin etmək bacarığının formalaşmasına istiqamətlənmişdir.

**Diferensial təlim.**
*Dəstək.* Şagirdlərdən kölgənin səhər saatlarında uzun, günorta vaxtı isə qısa olmasının səbəbi soruşula bilər.
*Dərinləşdirmə.* Şagirdlərə əşyanın Günəşə görə mövqeyi ilə onun kölgəsinin hərəkəti arasındakı əlaqəni izah etmək tapşırıla bilər.

**ÖZÜNÜZÜ YOXLAYIN**

• Kölgənin yeri niyə dəyişir? (*Yer kürəsi öz oxu ətrafında fırlanır. Bu zaman Günəş işığı Yerə fərqli tərəflərdən düşdüyü üçün kölgələr də gün ərzində yerini dəyişir.)*
• Kölgənin yeri dəyişdikcə, onun ölçüsü necə dəyişir? (*Səhər və axşam kölgələr uzun olur, günorta isə qısa və daha düz olur.)*

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Kölgənin yerini dəyişməsini Yerin öz oxu ətrafında fırlanması ilə əlaqələndirir. | Fəaliyyət, sual-cavab |
| Kölgənin yerini dəyişmə istiqamətini Yerin öz oxu ətrafında fırlanması ilə əlaqələndirir. | Fəaliyyət, tapşırıq (Dərslik) |
| Kölgənin uzanıb-qısalmasını Yerin öz oxu ətrafında fırlanması ilə əlaqələndirir. | Müzakirə, tapşırıq (Dərslik) |

Layihə

## 4-cü BÖLMƏ

# Materiallar və xassələri

| | Adı | Saat | Dərslik (səh.) | İş dəftəri (səh.) |
|---|---|---|---|---|
| Mövzu 17 | Materialların xassələri | 4 | 68 | 44 |
| Mövzu 18 | Materialların istifadəsi | 3 | 72 | 47 |
| Mövzu 19 | İstilik və temperatur | 3 | 77 | 50 |
| Mövzu 20 | İstiliyi yaxşı və pis keçirən materiallar | 2 | 81 | 53 |
| | Ümumiləşdirici tapşırıqlar | | 84 | 55 |
| | **KSQ** | 1 | | |
| | **CƏMİ** | **13** | | |

**Bölmənin qısa icmalı**




Bölmə təbiət elmləri mövzularını əhatə edir. İlk iki mövzu: "Materialların xassələri" və "Materialların istifadəsi" kimya elmi sahəsində baza biliklərin əldə edilməsində, "İstilik və temperatur" və "İstiliyi yaxşı və pis keçirən materiallar" fizika elmi sahəsində atılan ilk addımlardır. Həmçinin bu mövzular 1-ci və 2-ci siniflərdə kimya ilə fizika sahəsində öyrənilmiş biliklərin davamlılığını təmin edir.

"Materialların xassələri" mövzusunda şagirdlər rezinin elastik xassəyə malik olduğunu, həmçinin bəzi metalların da elastiklik göstərdiyini, şüşənin kövrək xassəyə malik olduğunu, onun zərbənin təsirindən asanlıqla sındığını, sınmış şüşənin kəsici olduğunu, ona görə də sınmış şüşə ilə ehtiyatla davranmağı öyrənirlər. Onlar şüşə kimi keramik materialların da kövrək xassəyə malik olduğunu, metalların plastik, yəni zərbənin təsirindən qırılmayıb formasını dəyişdiyini müşahidə edirlər.

"Materialların istifadəsi" mövzusunda materialın xassəsi ilə ondan hazırlanan əşyanın istifadə məqsədi arasında əlaqə izah edilir. Kağızdan salfet və yazı yazmaq üçün istifadə olunduğu, kağızın asanlıqla yandığı və suda islandığı bildirilir. Rezinin elastik xassəsindən paltarların müxtəlif hissələrində və saçları yığmaq üçün, yumşaq və sukeçirməyən xassəsindən isə xüsusi geyimlər hazırlamaq üçün istifadə olunduğu təqdim olunur. Metallar bərk, istiyədavamlı və sukeçirməyən olduğu üçün avtomobillərin, istiyədavamlı əşyaların və dam örtüklərinin hazırlanmasında tətbiq olunduğu bildirilir. Mövzuda, həmçinin plastik materialların əhəmiyyəti və təbiətə vurduğu ziyan haqqında da məlumat verilir.

"İstilik və temperatur" mövzusunda yanacaq və onun növləri haqqında məlumat verilir. Yancağın yanması zamanı istiliyin ayrılması müşahidə olunur ki, bundan müxtəlif məqsədlər üçün istifadə edilir. İstiliyin termometr adlanan cihazla ölçüldüyü, termometrlə əşyaların, canlıların, havanın və suyun temperaturunun müəyyən edildiyi bildirilir.

"İstiliyi yaxşı və pis keçirən materiallar" mövzusunda temperaturun isti əşyadan soyuq əşyaya keçdiyi və bu hadislərin gündəlik həyatla əlaqəli izahı verilir. Həmçinin nümunələr üzərində istiliyi yaxşı və pis keçirən materiallar müqayisə olunur. Metalların istiliyi yaxşı keçirdiyi, plastik və taxta materialların isə istiliyi pis keçirdiyi vurğulanır.

**Bölməyə giriş**

Bölmənin ilk səhifəsində mövzulara hazırlıq kimi şəkil üzrə iş təşkil edilə bilər. Şagirdlərin diqqəti şəkildə verilmiş oyuna və rezinin xassəsinə yönəldilir. Oyundan sonra şagirdlər əllərini yuyub salfetlə qurulayırlar və bununla da onlarda salfetin xassəsi haqqında təsəvvür yaranır. "Hazırsınızmı?" başlığı altında verilən suallar ətrafında müzakirə təşkil olunur. Müəllim şagirdlərə bölməni əhatə edən əlavə suallar da verə bilər.

Ləyihə

| Mövzu 17 | **Materialların xassələri**<br>• **Dərslik:** səh. 68<br>• **İş dəftəri:** səh. 44 |
|---|---|

| **Alt-standartlar** | **3-2.1.1. Eyni materialın fərqli xassələrini izah edir.**<br>**3-2.1.2. Materialların fəaliyyətlər nəticəsində dəyişməsini təsvir edir.** |
|---|---|
| **Təlim məqsədləri** | • Materialların fərqli xassələrini (elastik, yumşaq, sukeçirməyən, yanıcı, islanan, yumşaq, əyilən, sınan) izah edir.<br>• Təsirdən sonra formasını bərpa edən və etməyən materialları təsvir edir. |
| **Köməkçi vasitələr** | Şar, rezin parçası, məftil parçası, ip və kağız. |
| **Resurslar** | Material nümunələri, videoçarx. |

**Dərsin qısa planı**
**Cəlbetmə.** "Şar üfləmə" oyunu
**Fəaliyyət.** "Əşyaların xüsusiyyətləri"
**Öyrənmə.** Materialların xassələrinə görə fərqləndirilməsi
**Tapşırıq.** Dərslik: tap. № 1. İD: № .1-6
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim müxtəlifrəngli şarlardan istifadə edərək dərslikdə verilən fəaliyyəti sinifdə həyata keçirə bilər. Bunun üçün şagirdləri bir neçə qrupa bölüb onlara əvvəlcə şarları üfürmələrini, sonra isə həmin şarları yenidən əvvəlki vəziyyətə qaytarmaq üçün onların havasını boşaltmalarını təklif edir. Bundan sonra müəllim şagirdlərə müxtəlif suallar verə bilər.



– Şari üflərkən nə müşahidə etdiniz?
– Şarın havasını boşaldarkən nə müşahidə etdiniz?
Şagirdlər müşahidələrinə əsasən şarın əvvəlcə həcminin böyüdüyünü, sonra isə kiçildiyini söyləyə bilərlər. Müəllim bundan sonra cəlbetmə mərhələsində olan sualları şagirdlərə verir və onların fikirlərini öyrənir.
– Şarı üflədikcə onun həcminin böyüməsinə səbəb nədir?
– Şişirdilmiş şarın ağzını açdıqda yenidən əvvəlki formasına qayıdırsa, bu onun hansı xassəsinə əsaslanır?
Şagirdlər şara hava üflədikləri zaman onun dartıldığını və buna görə həcminin böyüdüyünü, havanı çıxardıqda isə həcminin kiçildiyini bildirirlər. Daha sonra müəllim şagirdlərdən gündəlik həyatda dartdıqda həcmi böyüyən və ya uzanan, buraxdıqda isə yenidən əvvəlki vəziyyətinə qayıdan əşyalar haqqında soruşa və müzakirəni dərinləşdirə bilər.

**FƏALİYYƏT** **"Əşyaların xüsusiyyətləri"**
Fəaliyyəti sinifdə yerinə yetirmək üçün sinfə rezin parçası, məftil parçası, ip və kağız gətirmək tövsiyə olunur. Müəllim bu fəaliyyəti yerinə yetirmələrini cəlbetmə mərhələsində passiv olan şagirdlərə təklif edə bilər.
Fəaliyyət zamanı ip və məftil parçasını dartdıqda heç bir dəyişikliyə uğramadığı, kağızı dartdıqda onun asanlıqla cırıldığı, rezin parçasını dartdıqda isə onun əvvəlcə uzandığı, sonra isə yenidən əvvəlki vəziyyətinə qayıtdığı əyani nümayiş olunur.
Şagirdlər əşyaları dartarkən müşahidələrini dəftərlərində qeyd edir və onlara müxtəlif suallar verilir.
– Nə müşahidə etdiniz?
– Hansı materialdan hazırlanan əşyanı dartdıqda heç bir dəyişiklik baş vermədi?
– Hansı materialdan hazırlanan əşyanı dartdıqda uzandı, sonra isə yenidən əvvəlki vəziyyətinə qayıtdı?

**ÖYRƏNMƏ** Fəaliyyət blokunda müəllim şagirdlərə müşahidə etdikləri – dartdıqda uzanan, sərbəst buraxdıqda isə yenidən əvvəlki vəziyyətinə qayıdan rezinin elastik xassəyə malik olduğunu bildirir, sonra isə rezinin digər xassələrindən danışır. O, daha sonra kövrək materiallar haqqında məlumat verir və bildirir ki,

şüşə kövrək xassəyə malik olduğu üçün zərbənin təsirindən asanlıqla sınır. Sınmış şüşə isə kəsici olduğu üçün onunla ehtiyatlı davaranılmalıdır. Şüşə kimi keramik materiallar da kövrək xassəyə malik olur. Müəllim həmçinin metalların da plastik, yəni zərbənin təsirindən qırılmadan formasını dəyişdiyini şagirdlərə bildirir.

**Müzakirə**

• *Yemək bişirmək üçün istifadə olunan tavanın materialı hansı xassələrə malik olmalıdır? Fikrinizi əsaslandırın.*

• *Rezindən və parçadan hazırlanmış əlcəklər hansı məqsəd üçün istifadə olunur? Fikrinizi əsaslandırın.*

Müzakirə zamanı şagirdlər tavanın istiyədavamlı, sukeçirməyən və bərk materialdan hazırlanmalı olduğunu bildirirlər. Rezindən hazırlanan əlcəyin müxtəlif təmizlik işlərində və sukeçirməyən olduğu üçün əlin maye ilə təmasının qarşısını almaq məqsədilə istifadə olunduğunu, parça əlcəklərin isə soyuqdan qorunmaq üçün istifadə edildiyini söyləyir.




**TAPŞIRIQ** Verilmiş əşyalar haqqında sualları cavablandırın.

a) Hansı əşyanı dartdıqda uzanar, buraxdıqda isə əvvəlki formasına qayıdar?

b) Hansı əşyaları döyəclədikdə formasını dəyişər, amma sınmaz?

c) Hansı əşya zərbənin təsirindən sınar?

d) Hansı əşyanı suya saldıqda islanıb özündə müəyyən qədər su saxlayar?

Bu tapşırıqda müəllim şagirdləri 4 qrupa bölə və hər qrupa bir sual verə bilər. Şagirdlər şəkildə verilmiş əşyalardan suala uyğun olanları seçib qeyd edirlər. Sonra müəllim əlavə olaraq hər qrupa verilmiş xassəyə uyğun daha 2 əşyanın adını yazmağı tapşıra və bu əşyalar üzərində müzakirə təşkil edə bilər.

**Diferensial təlim.**

*Dəstək.* Şagirdlərə şüşədən və rezindən hazırlanmış əşyaların xüsusiyyətlərini sadalamaq təklif oluna bilər.

*Dərinləşdirmə.* Metaldan hazırlanmış əşyaların istifadə məqsədi barədə danışmağı tapşırmaq olar.

**Müəllim üçün məlumat.** Materialların xüsusiyyətləri onları təşkil edən maddələrin tərkibi və quruluşundan asılıdır. Materialı təşkil edən maddənin tərkibi və quruluşu dəyişmədikcə material və onun fiziki xassələri dəyişmir.

Fiziki xassələrə materialın ərimə və qaynama temperaturu, deformasiya qabiliyyəti, elektrik və istilik keçiriciliyi, maqnitlənmə qabiliyyəti və s. aiddir.

Materialı təşkil edən maddənin tərkibi və quruluşu dəyişəndə onun fiziki xassələri də dəyişir. Bu dəyişmə maddənin kimyəvi xassələrinə görə baş verir. Kimyəvi xassələrə başqa maddələrlə reaksiyayagirmə qabiliyyəti, parçalanma, yanma və s. daxildir.

Bizi əhatə edən aləmdə daim fiziki və kimyəvi hadisələr baş verir. Fiziki hadisələrdə yeni maddələr yaranmır. Məsələn, su bir haldan başqa hala keçir. Bu zaman o, aqreqat halını dəyişsə də, öz xüsusiyyətlərini saxlayır. Kimyəvi hadisələr zamanı isə maddələrin tərkibi, buna uyğun olaraq fiziki xassələri də dəyişir və yeni maddələr yaranır. Yanma, çürümə, qıcqırma, paslanma və s. kimyəvi hadisələrdir.

**ÖZÜNÜZÜ YOXLAYIN**

• *Nə üçün rezin əşyaları oddan uzaq saxlamaq lazımdır? (Rezin əşyalar odun təsirindən əriyə və yana bilər)*

• *Plastik materiallar hansı xassəyə malikdir? (Zərbənin təsirindən sınmır, döyəclədikdə müxtəlif forma vermək olur)*

• *Hansı materiallar zərbəyə qarşı davamsızdır? (şüşə və keramik materiallar)*

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Materialların fərqli xassələrini (elastiklik, yumşaq, sukeçirməyən, yanıcı, islanan, yumşaq, əyilən, sınan) izah edir. | Fəaliyyət |
| Təsirdən sonra formasını bərpa edən və etməyən materialları təsvir edir. | Fəaliyyət, tapşırıq 1 |

Layihə

**Mövzu 18**

## Materialların istifadəsi
- **Dərslik:** səh. 72
- **İş dəftəri:** səh. 47

| | |
|---|---|
| **Alt-standartlar** | 3-2.1.3. Fərqli məqsədlər üçün uyğun materialların seçilməsini izah edir. |
| **Təlim məqsədləri** | • Materialın xassəsi ilə ondan hazırlanan əşyanın istifadə məqsədi arasında əlaqəni izah edir.<br>• İstifadə məqsədinə görə materialların seçilməsini izah edir. |
| **Köməkçi vasitələr** | Tərəzi, kağız salfet, qab, su. |
| **Resurslar** | Material nümunələri, videoçarx. |

**Dərsin qısa planı**
**Cəlbetmə.** Əl-üzü yuduqdan sonra onun qurudulması üçün istifadə olunan salfet
**Fəaliyyət.** "Salfetin xüsusiyyətləri"
**Öyrənmə.** Materialların xassələrinə uyğun olaraq müxtəlif məqsədlər üçün istifadəsi
**Tapşırıq.** Dərslik: tap. № 1,2. İD: № 1-6
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim şagirdlərin diqqətini dərsliyin "cəlbetmə" blokunda verilən şəklə yönəldərək onlara aşağıdakı sualları verə bilər:
*"Əl-üzümüzü yuduqdan sonra nə üçün dəsmal və ya kağız salfetdən istifadə edirik?"*
*"Sizcə, salfetin hazırlandığı material hansı xassəyə malik olmalıdır?"*
Suallar şagirdlərin gündəlik həyatda rastlaşdıqları hadisələrdən olduğu üçün asanlıqla cavablaya bilərlər. Onlar dəsmal və salfetin suyu özünə çəkdiyini, bu xassəyə görə əl-üzü yuduqdan sonra onlardan qurulanmaq üçün istifadə etdiklərini söyləyirlər.
Müəllim şagirdlərdən belə xassəyə malik başqa hansı əşyaları tanıdıqlarını soruşa bilər.

**FƏALİYYƏT** **"Salfetin xüsusiyyətləri"**
Müəllimin sinfə tərəzi, kağız salfet, qabda su və sellofan gətirməsi tövsiyə olunur. Fəaliyyəti sinifdəki şagirdləri bir neçə qrupa bölərək həyata keçirmək olar. Əvvəlcə şagirdlərə işin gedişatı haqqında məlumat verilir və fəaliyyətin icrasına başlanırlar. Qruplara dərslikdə verilmiş cədvələ uyğun cədvəl tərtib etmək təklif olunur.Qruplar fərqli sayda salfet dəsti götürərərk tərəzidə çəkir və onun göstəricisi cədvəldə yazılır. Sonra salfet dəsti suya salınaraq bir neçə saniyə gözlədikdən sonra sudan çıxarılır, tərəzidə çəkilir və göstəricisi cədvəldə qeyd edilir. Nəm salfetlə quru salfet arasındakı fərq tapılaraq uyğun sütunda yazılır. Tərəzi su ilə islanmasın deyə islanmış salfeti sellofana qoyub çəkmək olar. Bunun üçün əvvəlcə sellofan boş halda, sonra isə nəm salfetlə çəkilir və sellofanın kütləsi oradan çıxılır.



Daha sonra isə "Fəaliyyət" blokunda olan suallar müzakirə edilir.
- *Salfeti suya saldıqda özünə nə qədər su hopdurdu?*
- *Onun bu xüsusiyyətindən hansı məqsədlər üçün istifadə edilir?*

Hər qrup öz təcrübəsinin nəticəsini deyir və müzakirə aparılır. Müzakirələr zamanı salfetin nəm və ya su dağılmış əşyaları qurutmaq üçün, yeməkdən sonra əlin yağını silmək üçün, əl-üz yuduqdan sonra onu qurutmaq üçün istifadə olunduğu səsləndirilir.

**ÖYRƏNMƏ** Mətndə kağızdan salfet və yazı yazmaq üçün istifadə olunduğu məlumatı verilir. Həmçinin kağızın asanlıqla yandığı və suda islandığı da bildirilir. Rezinin elastik xassəsindən paltarların müxtəlif hissələrində və saçları yığmaq üçün, yumşaq və sukeçirməyən xassəsindən xüsusi geyimlər hazırlamaq






Layihə

üçün istifadə olunduğu təqdim edilir. Metallar bərk, istiyədavamlı və sukeçirməyən olduğu üçün avtomobillərin, istiyədavamlı əşyaların və dam örtüklərinin hazırlanmasında tətbiq olunduğu bildirilir. Mövzuda həmçinin plastik materialların əhəmiyyəti və təbiətə vurduğu ziyan haqqında da məlumat verilir. Təbiəti qorumaq və sevdirmək üçün şagirdlərə əlavə maarifləndirici məlumatlar da verilə bilər.

**Müzakirə**

• *Çətiri kağız materialdan hazırlamaq olarmı? Əgər çətiri kağız materialdan hazırlasaq, yağış yağan zaman nə baş verər?*

Müzakirənin gedişində materialların təyinatına görə düzgün istifadəsi diqqətə çatdırılır və qeyd olunur ki, çətir kağızdan hazırlanarsa, yağışda islanıb çırıla bilər. Ona görə də çətiri su keçirməyən, yumşaq və yüngül materialdan hazırlamaq lazımdır.

**TAPŞIRIQ** Tapşırıq 1 şagirdlərin diqqətini şüşədən və plastikdən hazırlanmış qabların xüsusiyyətlərinə yönəldir. Bu sualla şagirdlər plastik qabların zərbəyə davamlı, oda isə davamsız, şüşə qabların isə zərbəyə davamsız, oda isə davamlı olduğunu öyrənmiş olurlar. Təbiəti qorumaq üçün plastik materialdan hazırlanmış əşyaları xüsusi zibil qablarına yığmağın vacibliyi vurğulanır.

Digər tapşırıq isə parçanın qeyri-şəffaf, yumşaq, bədəni isti və soyuqdan qorumaq xassəsi olduğu üçün ondan geyim əşyalarının hazırlanmasında istifadə olunması barədə bilik formalaşdırır.

**Diferensial təlim.**

*Dəstək.* Parçadan geyimdən başqa, daha hansı məqsədlər üçün istifadə olunduğu soruşula bilər.

*Dərinləşdirmə.* Plastik materialdan hazırlanmış əşyalardan harada istifadə olunması soruşula bilər.

**Müəllim üçün məlumat**. Plastiklər, əsasən, neft, qaz və kömürdən hazırlanır. İstehsalı zamanı onu elastik və dayanıqlı edən qatqı maddələrindən istifadə olunur. Qatqı maddələri insan sağlamlığı üçün zərərlidir və plastiklər qida ilə təmasda olduqda onlar qidaya keçir. Temperatur artdıqca zərərli maddələrin qidaya təsiri daha da artır. Hər il dünyada milyon tonlarla plastik istehsal olunur. Bunun yalnız 20 faizi təkrar emala gedir. Bəzi plastiklər təkrar emal edilə bilmir və okeanlarda, dənizlərdə toplanıb qalır. Plastiklərin təbiətdə parçalanması onilliklər, yüzilliklər çəkir.

Təəssüf ki, plastikin istifadəsindən tam imtina etmək də mümkün deyil. Ona görə də plastikləri yaxşı tanımaq, kodlarını bilməklə plastik növlərini ayırmaq və onlardan təhlükəsiz istifadə etmək mümkündür. Beləliklə, biz daha az zərərli plastik qablaşdırma növünü seçə bilərik. Qablaşdırmaların altında, böyründə və ya üstündə təkrar emal simvolu, onun içərisində isə 1-dən 7-ə qədər dəyişən rəqəm yazılır. 2, 4 və 5-ci kateqoriyalara aid olan məhsullar təhlükəsiz plastiklər hesab olunur. Təhlükəsiz olsa da, onları mikrodalğalı sobada istifadə etmək tövsiyə olunmur. 7-ci kateqoriyaya aid olan plastiklər xüsusilə qida və içki qablaşdırmalarında həddindən artıq ehtiyatla istifadə edilməlidir.

**ÖZÜNÜZÜ YOXLAYIN** Dərslikdə verilmiş suallar ətrafında müzakirə təşkil olunur və şagirdlərin mövzunu necə mənimsəməsi müəyyənləşdirilir.

• İnşaat işlərində hansı materiallardan istifadə olunur? (*Plastik, taxta, təbaşir, qum, şüşə, dəmir, daş.)*

• İstifadə etdiyiniz hansı əşyalar taxtadan hazırlanıb? *(Şagirdlərin verdiyi uyğun cavablar qəbul olunur.)*

• Yazı yazmaq üçün hansı materialdan hazırlanmış əşyalardan istifadə olunur? *(Kağızda qələm və karandaş yaxşı iz buraxdığına görə yazı yazmaq üçün kağız materiallardan istifadə olunur.)*

• Saç yığmaq üçün hansı materialdan hazırlanmış əşyadan istifadə olunur? *Bu onun hansı xassəsinə əsaslanır? (Rezinin elastik xassəsindən istifadə edilərək saç yığmaq üçün bandlar hazırlanır.)*

• Salfetdən hansı məqsədlər üçün istifadə olunur? *(Su və digər mayelərlə islanmış əşyaları qurutmaq üçün, əl-üzü yuduqdan sonra onu qurulamaq üçün istifadə olunur.)*

**Formativ qiymətləndirmə**

| **Qiymətləndirmə meyarları** | **Qiymətləndirmə materialı** |
|---|---|
| Materialın xassəsi ilə ondan hazırlanan əşyanın istifadə məqsədi arasında əlaqəni izah edir. | Fəaliyyət |
| İstifadə məqsədinə görə materialların seçilməsini izah edir. | Tapşırıq |

Layihə

**Mövzu 19**

## İstilik və temperatur

- **Dərslik:** səh. 77
- **İş dəftəri:** səh. 50

| | |
|---|---|
| **Alt-standartlar** | **3-2.2.1.Yanacaq yanarkən istilik ayrıldığını izah edir.**<br>**3-2.2.2.Temperatur kəmiyyətini anlayır.** |
| **Təlim məqsədləri** | • *"Yanacaq", "istilik", "temperatur"* anlayışlarını izah edir.<br>• Temperaturu ölçmək üçün termometrdən istifadə edir.<br>• Temperaturlarına əsasən isti və soyuq cisimləri müqayisə edir. |
| **Köməkçi vasitələr** | Plastik qulplu stəkanlar, isti və soyuq su, termometr, şam, alışqan, kibrit. |
| **Resurslar** | Dərslik, iş dəftəri. |

**Dərsin qısa planı**
**Cəlbetmə.** İsti, yoxsa soyuq oyunu
**Fəaliyyət.** Termometrlə istiliyin ölçülməsi
**Öyrənmə.** İstilik və temperatur
**Tapşırıq.** Dərslik: tap. №1-3. İD: №1-5
**Özünüzü yoxlayın.**
**Dərsdən sonra.** Temperaturların müqayisəsi
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim dərsi maraqlı və cəlbedici qurmaq üçün qruplarla oyun təşkil edə bilər. Şagirdlər üç qrupa bölünür və hər qrup öz sırasında ardıcıl düzülür. Müəllim qruplara təlimat verir.



***Təlimat.*** *Hər üç qrup üçün eyni anda sual səslənəcək. Sırada ilk dayanan şagirdlərdən sualı birinci tapan öz qrupuna xal qazandıracaq. Sonra birinci yerdə dayanan şagirdlər öz qrupunun sonuna keçəcək. Oyun bu qayda ilə davam edir. Ən çox xal qazanan qrup qalib olur.* Qalib qrup kağızdan kəsilmiş ulduzlarla mükafatlandırılır.

Oyunda müəllim verilən nümunə suallardan istifadə edə bilər:
– *Qaz sobası yananda ətrafa nə yayılır? (İstilik və işıq)*
– *Qışda açıq havada olarkən üzümüz və əlimiz nəyi hiss edir? (Soyuğu)*
– *Odundan niyə istifadə edirik? (İstilik əldə etmək üçün, məsələn, odun sobasında yandıraraq.)*
– *Buz parçalarını əlimizə aldıqda nə hiss edirik? (Soyuq)*
– *Yayda Günəşin altında oturarkən nə hiss edirik? (İsti)*

Oyundan sonra müəllim dərslikdə verilmiş suallarla şagirdlərin gündəlik həyatlarında qarşılaşdıqları təcrübələri əlaqələndirə və onlarda mövzuya maraq oyada bilər.

**FƏALİYYƏT** Müəllim dərslikdə verilmiş fəaliyyətin qruplarda aparılmasını təşkil edə bilər. Müəllim şagirdləri dörd qrupa bölüb, iki qrupa plastik qulplu iki stəkan, isti və soyuq su, digər iki qrupa isə plastik qulplu üç stəkan, isti, soyuq və otaq temperaturunda su, həmçinin hər bir qrupa termometr verməklə dərslikdəki fəaliyyəti addım-addım icra etməyi tapşıra bilər.

İsti su ilə aparılan təcrübə zamanı şagirdlərə təhlükəsizlik qaydaları xatırladılır. Əlləri ilə isti suya və ya stəkana toxunmamağın vacibliyi vurğulanır. Burada məqsəd şagirdlərə istilik və temperatur anlayışlarını təcrübə yolu ilə izah etmək və onların bu anlayışları praktiki şəkildə öyrənmələrinə imkan yaratmaqdır. Şagirdlər müxtəlif su nümunələri ilə təcrübə apararaq temperaturu termometr vasitəsilə ölçür və suların istiliyinin fərqli olduğunu müşahidə edirlər. Dərsin sonunda müəllim hər qrupa stəkandakı suların temperaturunu yenidən ölçməyi tapşıra bilər. Bununla şagirdlər suyun temperaturunun zaman keçdikcə necə dəyişdiyini müşahidə edə bilərlər. Şagirdlərdən fəaliyyət zamanı nə müşahidə etdikləri soruşulur.

• İsti və soyuq suda termometrin göstəriciləri niyə fərqli oldu?
• Bir müddət də keçdikdən sonra stəkandakı suların istiliyi necə dəyişər?

Şagirdlər dərsin sonunda stəkandakı suların temperaturunu yenidən ölçdükdə bu mərhələdəki cavablarının doğruluğunu yoxlaya bilərlər.

Layihə

**ÖYRƏNMƏ** Mətndə yanacağın nə olması, yanma zamanı istilik və işıq yayılması izah edilir. Müxtəlif yanacaq növləri (qaz, odun, kömür) haqqında danışılır. Bu nümunələr şagirdlərin həyatda rastlaşdıqları hallarla əlaqələndirilir. Məsələn, çay dəmləmək üçün qazın istifadəsi, odunla qızdırılan sobalar və s.
Qeyd edilir ki, şam da yanır və ətrafa işıqla bərabər istilik yayır. Həmçinin istiliyin termometr vasitəsilə necə ölçülməsi izah olunur. Əşyaların, canlıların və havanın temperaturunun necə ölçüldüyü, temperaturun dərəcə selsi (°C) ilə ifadə olunduğu qeyd edilir. Müəllim şagirdlərə müxtəlif əşyaların temperaturunu müqayisə etməyi öyrədə bilər.
**Müəllimin nəzərinə.** Qazın, odunun, tonqalın, şamın alışqan və ya kibrit vasitəsilə necə yandırıldığını sadə dildə izah edin. Bu prosesin hansı hallarda təhlükəli ola biləcəyini vurğulayaraq, təhlükəsizlik qaydalarına diqqət çəkin.
**Müzakirə**
• *Sizcə, Novruz bayramında niyə tonqalla ehtiyatlı olmalıyıq?* Bu sualın müzakirəsi zamanı şagirdlər təhlükəsizlik qaydalarına əməl etməyin vacibliyini və yanğın təhlükəsinin qarşısını almağı öyrənirlər. Məsələn, "Tonqal yandırarkən ətrafa istilik, işıq və alov yayılır. Özümüzü və başqalarını yandırmamaq üçün ehtiyatlı olmalıyıq."
• *Xəstələndikdə termometr nə üçün istifadə olunur?* Bu sualın müzakirəsi zamanı şagirdlər termometrin bədən temperaturunun neçə dərəcə olmasını müəyyən etmək üçün istifadə olunduğunu öyrənirlər.
**TAPŞIRIQ** Dərslikdə verilmiş **tapşırıq 1**-in *a* bəndi şagirdlərin hər üç halda ətraf mühitə istilik və işıq yayıldığı mülahizəsini irəli sürmələrini təmin edir. Tapşırıq 1-in *b* bəndi şəkil 1-də şamın, şəkil 2-də odun və ya kömürün, şəkil 3-də isə təbii qazın yanması fikrini səsləndirməklə, hər üç maddənin yanacaq olması və yanma zamanı ətrafa istilik və işıq yayılması fikrini irəli sürür.
**Tapşırıq 2-də** şagirdlər ən isti suyun 3-cü qabda olmasını əsaslandırırlar. Bu tapşırıq şagirdlərin termometrin göstəricilərinə görə suyun istiliyini müqayisə etmək bacarığını müəyyən edir. Onlar bunu "termometrin göstəricisində dərəcə nə qədər yüksəkdirsə, su da o qədər istidir" fikrini səsləndirməklə əsaslandırırlar.
**Tapşırıq 3** şagirdlərin istilik mənbələrini tanımalarını və gündəlik həyatda yanacağın rolunu anlamalarını nəzərdə tutur.
Tapşırıq 4 şagirdlərin temperaturu ölçmək və izləmək, eləcə də temperatur dəyişikliklərinin səbəblərini anlamaq bacarığının formalaşmasına istiqamətlənmişdir. Bu tapşırıqla şagirdlər müşahidə aparmaq və nəticə çıxarmaq bacarıqları da qazanırlar.
**Diferensial təlim.**
*Dəstək.* Şagirdlərdən temperaturun hansı cihazla ölçülməsi soruşula bilər.
*Dərinləşdirmə.* Şagirdlərdən bir əşyanın temperaturunun digərindən yüksək olmasını necə müəyyən etmələri soruşula bilər.
**ÖZÜNÜZÜ YOXLAYIN**
• İsitilik əldə etmək üçün nədən istifadə olunur? (*Odun, kömür, təbii qaz və şam yanaraq istilik yayır. Günəş işığı da işıq və istilik yayır.)*
• Temperatur hansı cihazla ölçülür? (*Temperatur **termometr** adlanan cihazla ölçülür. Termometr vasitəsilə temperaturun neçə dərəcə selsi (°C) olması müəyyən edilir.)*
**DƏRSDƏN SONRA**
Şagirdlərə otaqlarının, bədənlərinin və içdikləri çayın temperaturunu ölçmək tapşırılır. Nəticələri evdə ailə üzvləri, məktəbdə isə parta yoldaşları ilə müzakirə etmələri tövsiyə olunur.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| "Yanacaq", "istilik", "temperatur" anlayışlarını izah edir. | Fəaliyyət |
| Temperaturu ölçmək üçün termometrdən istifadə edir. | Fəaliyyət (Dərslik) |
| Temperaturlarına əsasən isti və soyuq cisimləri müqayisə edir. | Fəaliyyət, müzakirə, tapşırıq (Dərslik) |

Layihə

| Mövzu 20 | **İstiliyi yaxşı və pis keçirən materiallar**<br>• **Dərslik:** səh. 81<br>• **İş dəftəri:** səh. 53 |
|---|---|

| | |
|---|---|
| **Alt-standartlar** | **3-2.2.3.İstilik keçirici və istilik izolyatoru olan maddələri fərqləndirir.**<br>**3-2.2.4.İstiliyin ötürülmə istiqamətini müəyyən edir.** |
| **Təlim məqsədləri** | • İstiliyi yaxşı keçirən və pis keçirən materialları fərqləndirir<br>• Əşyanın soyuma və isinməsinə əsasən onun temperaturunun dəyişməsini izah edir.<br>• İstiliyin çoxdan aza ötürülməsini müəyyən edir |
| **Köməkçi vasitələr** | İki stəkan, isti və soyuq su, buz parçası, termometr, saat, şam, alışqan, kibrit. |
| **Resurslar** | Dərslik, iş dəftəri. |

**Dərsin qısa planı**
**Cəlbetmə.** "Barqraf quraq" fəaliyyəti
**Fəaliyyət.** İstiliyi yaxşı və pis keçirən materiallar
**Öyrənmə.** Əşyaların soyuması və isinməsi
**Tapşırıq.** Dərslik: tap. №1-3. İD: №1-5
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim şagirdlərin dərsə marağını artırmaq və mövzunun daha yaxşı mənimsənilməsini təmin etmək üçün dərslikdə verilmiş şəkil və situasiya əsasında fəaliyyət təşkil edə bilər. Fəaliyyətin əsas məqsədi şagirdlərin isti çay və soyuq suyun temperatur dəyişikliyini ölçərək "soyuma" və "isinmə" haqqında anlayış qazanmalarıdır. Fəaliyyətə başlamazdan əvvəl müəllim şagirdlərə isti əşya və mayelərlə davranış qaydalarına dair təlimat verməli, təhlükəsizliyin təmin olunması yollarını izah etməlidir.
Şagirdlər iki qrupa bölünür: "İsti çay" və "Soyuq su." Hər qrupa adına uyğun içki və termometr təqdim oluna bilər. Fəaliyyət müddətində hər qrup öz içkisinin temperaturunu termometrlə ölçür və ölçmələrin nəticəsini barqrafda təsvir edir. Qruplar çayın və suyun temperaturunu ilkin olaraq ölçür və barqrafda qeyd edir. Bir müddət keçdikdən sonra temperaturu yenidən ölçüb qeyd edirlər. Bu proses dərsin əvvəlində ən azı 3-4 dəfə, 5, 10 və 15 dəqiqə sonra təkrar oluna bilər. "İsti çay" qrupu çayın soyuma, "Soyuq su" qrupu isə soyuq suyun isinmə barqraflarını verilən vaxt bitdikdən sonra təqdim edirlər.
***Qeyd:*** *Bu fəaliyyət müddətində müəllim dərsə davam edə bilər. 15 dəqiqədə hər iki qrup yekun olaraq içkilərin temperaturunu ölçüb barqraflarını bitirəndən sonra nəticələr təqdim oluna bilər.*







Şagirdlər isinmə və soyumanın səbəblərinə dair öz mülahizələrini irəli sürürlər. Dərslikdə verilmiş suallar əsasında qruplar müzakirə edir və nəticə olaraq ümumiləşdirilir ki:

- *Çay soyuyur, çünki istiliyi ətrafa verir.*

- *Soyuq su isinir, çünki suyun temperaturu ətrafın temperaturundan aşağı olduğu üçün ətrafdan istilik alır.*

  ***Qeyd.*** *Şagirdlər isti çayın və soyuq suyun qoyulduğu yerə toxunmaqla istiliyin ətrafa verilməsi və ətrafdan alınmasını birbaşa təcrübə edə bilərlər.*

Müəllim bu fəaliyyətlə şagirdlərdə mövzuya maraq oyada və onların öyrənmə prosesinə fəal cəlb olunmalarını təmin edə bilər. Həmçinin şagirdlərin riyaziyyat fənnində öyrəndikləri biliklərinin təbiət elmləri mövzuları ilə inteqrasiyası təmin olunar.

**FƏALİYYƏT** **İstiliyi yaxşı və pis keçirən materiallar**

Müəllim dərslikdə verilmiş fəaliyyətin qruplarda aparılmasını təmin edə bilər. O, şagirdləri dörd qrupa bölüb bütün qruplara dərslikdəki fəaliyyəti addım-addım icra etməyi tapşırır. Qruplara fəaliyyəti icra edərkən isti su ilə ehtiyatlı olmaları bir daha xatırladılmalıdır. Bu fəaliyyətin həyata keçirilməsində məqsəd şagirdlərə istiliyin verilməsi və alınması prosesini sadə və praktik şəkildə izah etməkdir. Şagirdlər dəmir və plastik kimi fərqli materiallardan hazırlanmış əşyaların istiliyi yaxşı və pis keçirməsini müşahidə edərək, mövzu üzrə nəzəri və praktik biliklər qazanacaqlar. Prosesə başlamazdan əvvəl bütün qruplara fəaliyyəti icra edərkən isti su ilə ehtiyatlı olmaları bir daha xatırladılmalıdır. Şagirdlərdən fəaliyyət zamanı nə müşahidə etdikləri soruşulur:

• Suyun əvvəlki və sonrakı temperaturları arasında hansı fərq var? (Şagirdlərin mümkün cavabları: *İlk dəfə suyun temperaturunu ölçəndə su ılıq idi. Qaşıqları suya qoyandan sonra isə su bir az soyudu. Çünki su istiliyin müəyyən qədərini qaşıqlara verdi. Ona görə də suyun əvvəlki temperaturu daha yüksək idi, sonra isə bir az aşağı düşdü.*)

• Stəkandan çıxardıqdan sonra dəmir və plastik qaşıqların temperaturu necə dəyişdi? (Şagirdlərin mümkün cavabları: *Dəmir qaşıq daha isti oldu, plastik qaşıq isə o qədər də isinmədi. Yəni sudan dəmir qaşığa daha çox istilik verildi, plastik qaşığa isə daha az.)*

**ÖYRƏNMƏ** Mətndən şagirdlər temperaturları fərqli olan iki əşya bir-birinə toxunduqda, yəni təmas etdikdə isti əşyanın soyuduğunu, soyuq əşyanın isə isindiyini, istiliyin isti əşyadan soyuq əşyaya verilməsini öyrənirlər. Həmçinin mətndə bir müddət keçdikdən sonra isti əşyanın soyuyaraq, soyuq əşyanın isə isinərək temperaturlarının bərabərləşməsi izah olunur. Şagirdlər öyrənmə materialından otaqdakı bütün əşyaların temperaturunun eyni olduğunu və qiymətinin otaq termometrinin göstərdiyi qiymətə bərabər olduğunu öyrənirlər. Müəllim dərsi izah edərkən şagirdlərdən sinif otağındakı metal (dəmir kimi) və metal olmayan (taxta kimi) materiallardan hazırlanmış əşyalara toxunmalarını və hansını daha isti, hansını daha soyuq hiss etdiklərini soruşa bilər. Bununla şagirdlər materialları "istiliyi yaxşı və pis keçirən materiallar" olaraq fərqləndirər, hətta onların gündəlik həyatda tətbiqinə dair nümunələr göstərə bilərlər. Müəllim bütün əşyaların temperaturlarının bərabər olduğunu sadə nümunə ilə izah etməklə şagirdlərin dərsi daha yaxşı mənimsəmələrinə kömək edə bilər. Belə ki, nümunə olaraq metalların istiliyi daha yaxşı keçirdiyi üçün əlimizdən onlara istiliyin daha sürətlə keçdiyini və ya əlimizin daha sürətlə soyuduğunu, buna görə də həmin əşyaları daha soyuq hiss etdiyimizi izah edə bilər. Mətndə əşyaları hazırlayarkən istiliyi yaxşı keçirən və pis keçirən materiallardan istifadənin vacibliyi də vurğulanır. Bu məlumat şagirdlərə əşyaların hazırlanmasında fərqli materialların istiliyi keçirməsinə görə fərqli olduğunu nəzərə almağı öyrədir. Bu isə istiliyi yaxşı və pis keçirən materiallardan gündəlik həyatda təhlükəsiz istifadə etməyi bacarmağa kömək edir.

**Müzakirə**

• *Əlimizi partanın taxta və dəmir hissələrinə toxundurduqda, dəmirin daha soyuq olduğunu hiss etməyimizin səbəbi nədir?* Bu sualın müzakirəsi zamanı şagirdlər dəmirin istiliyi taxtadan daha yaxşı keçirdiyini, buna görə də əlimizdən daha çox istiliyin verildiyini və dəmirin daha soyuq hiss edildiyini, taxtanın isə istiliyi yaxşı keçirmədiyi üçün əlimizin daha az soyuduğunu deyə bilərlər.

• *Sizcə, otağın temperaturunu biliriksə, masanın üzərindəki karandaşın temperaturu haqqında nə demək olar?* Bu sualın müzakirəsi zamanı şagirdlər otağın temperaturu ilə karandaşın temperaturunun eyni olması fikrini yürüdə bilərlər. Onlar qeyd edilən vəziyyətdə karandaşın istilik vermədiyini və ya istilik almadığını, buna görə də karandaşın temperaturunun otağın temperaturuna bərabər olduğunu deyə bilərlər.

Layihə

**TAPŞIRIQ** Dərslikdə verilmiş tapşırıq 1 şagirdlərin temperaturları fərqli olan iki əşyanın bir-birinə toxunduqda, yəni təmas etdikdə isti əşyanın soyuduğu, soyuq əşyanın isə isindiyi, istiliyin isti əşyadan soyuq əşyaya verildiyi fikrini irəli sürmələrini təmin edir. Tapşırıq 1-in *a* bəndinə görə şagirdlər "Şəkillərə baxdıqda, əvvəlcə çəhrayı əşyanın 15°C, mavi əşyanın isə 25°C olduğunu görürük. Bu o deməkdir ki, **mavi əşya daha istidir**." cavabını səsləndirirlər. Tapşırıq 1-in *b* bəndinə görə şagirdlər "Mavi əşya soyuyub, çəhrayı isə isinib, çünki onların temperaturu 20°C-də bərabərləşib" cavabını verirlər. Bu tapşırıq şagirdlərin istiliyin verilməsi nəticəsində temperaturun bərabərləşməsini anlamalarını təmin edir. Tapşırıq 1-in *c* bəndinə şagirdlər "Çəhrayı əşyanın temperaturu 15°C-dən 20°C-yə qədər dəyişdi, yəni 5°C artdı" cavabını verə bilərlər. Bu tapşırıq şagirdlərdə sadə temperatur dəyişikliyini hesablama bacarığını inkişaf etdirir. Tapşırıq 1-in *d* bəndinə şagirdlər mavi əşyanın temperaturunun 25°C-dən 20°C-yə qədər dəyişdiyini, yəni 5°C azaldığını qeyd edirlər. Bu tapşırıq şagirdlərdə istilik dəyişməsini anlama və hesablama bacarığını təmin edir.
Təhlükəsizlik və materialların istifadəsi haqqında anlayış formalaşdıran Tapşırıq 2-yə şagirdlərin cavabarı "Plastik və taxta istiliyi pis keçirir, onlardan istifadə edirlər ki, əlimiz yanmasın." kimi ola bilər.
Şagirdlər artıq öyrənmə mətnində otaqdakı bütün əşyaların temperaturunun eyni olduğunu və onların qiymətinin otaq termometrinin göstərdiyi qiymətə bərabər olduğunu bilirlər. Bu səbəbdən Tapşırıq 3-də qoyulan sualı asanlıqla cavablandıraraq "Otağın temperaturu 20°C olduğuna görə, masadakı əşyaların da temperaturu 20°C-ə bərabərdir" fikrini səsləndirə bilərlər.
Şagirdlərdə istiliyin verilməsi və temperaturun bərabərləşməsi haqqında anlayışın inkişafını təmin edən tapşırıq 4-ün *a* bəndinə şagirdlər "Termometr suyun temperaturunun dəyişməsini göstərir, çünki termometr suyun içərisindədir və dəmir əşyaya toxunmur" kimi, tapşırıq 4-ün *b* bəndinə isə "Su soyuyur, dəmir əşya isinir və nəticədə onların temperaturları bərabər olur. Deməli, dəmir əşyanın da temperaturu suyun temperaturu kimi olacaq" kimi cavablar səsləndirəcəklər.

**Diferensial təlim.**

*Dəstək.* Şagirdlərdən plastik qaşığın, yoxsa metal qaşığın istiliyi daha yaxşı keçirməsi soruşula bilər.

*Dərinləşdirmə.* Şagirdlərdən dəmir çaydanın niyə dəmirdən hazırlanması, tutacaqlarının isə taxta və ya plastikdən olmasının səbəbi soruşula bilər.

**ÖZÜNÜZÜ YOXLAYIN**

• Bir otaqdakı müxtəlif əşyaların temperaturları bir-birindən fərqlənirmi? (*Xeyr, otaqdakı əşyaların temperaturları, adətən, eynidir, amma bazi əşyalar daha soyuq və ya isti hiss olunur, çünki istiliyi yaxşı və ya pis keçirirlər.)*

• İstiliyi yaxşı və pis keçirən materiallardan harada istifadə olunur? (*İstiliyi pis keçirən materiallardan sobaların, çaydan və qazan kimi mətbəx əşyalarının tutacaqlarında istifadə olunur ki, əlimiz yanmasın. İstiliyi yaxşı keçirən materiallar isə qızdırıcı cihazlarda və çaydanlarda istifadə olunur ki, onların içindəki maye tez isinsin.)*

• İsti və soyuq əşyaları bir-birinə toxundurduqda müəyyən vaxtdan sonra onların temperaturu necə dəyişir? (*Onların temperaturları bərabərləşir, çünki isti əşya soyuyur, soyuq əşya isə isinir.)*

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| İstiliyi yaxşı keçirən və pis keçirən materialları fərqləndirir. | Fəaliyyət, tapşırıq 1 |
| Əşyanın soyuma və isinməsinə əsasən temperaturun dəyişməsini izah edir. | Fəaliyyət, tapşırıq 2,3 |
| İstiliyin çoxdan aza ötürülməsini müəyyən edir. | Fəaliyyət, tapşırıq 4 |

## 5-ci BÖLMƏ

## Bayramlar və qənaət

| Mövzu № | Adı | Saat | Dərslik (səh.) | İş dəftəri (səh.) |
|---|---|---|---|---|
| Mövzu 21 | Bayramlar | 3 | 86 | 57 |
| Mövzu 22 | 28 May | 2 | 90 | 59 |
| Mövzu 23 | Ehtiyaclarımız və istəklərimiz | 3 | 93 | 61 |
| | Ümumiləşdirici tapşırıqlar | | 96 | 63 |
| | **KSQ** | 1 | | |
| | **CƏMİ** | 9 | | |

**Bölmənin qısa icmalı**




Bölmə sosial yönümlü mövzuları əhatə edir. İlk iki mövzu ölkəmizdə qeyd olunan milli və dini bayramlarla bağlıdır. İlk mövzuda Novruz, Roş-ha-Şana və Pasxa bayramlarından, eləcə də Ramazan və Qurban bayramlarından söz açılır.

Dini bayramlar dini dəyərləri təbliğ edirsə, milli bayramlar bir ölkənin milli azadlıq mübarizəsi, rəsmi olaraq tanınması, əhəmiyyətli tarixi hadisələr və ya etnik-mifoloji inanclarla bağlı olur. Əsrlərdir Novruz ümumxalq bayramı kimi ölkəmizin hər bir guşəsində müxtəlif el şənlikləri və mərasimlərlə qarşılanır. Gənc nəslin milli-mənəvi dəyərləri mənimsəməsi və onların daşıyıcısı kimi yetişməsi cəmiyyətin, ilk növbədə, ümumtəhsil məktəblərinin qarşısında dayanan əsas vəzifələrdən biridir. “Bayramlar” mövzusu bu vəzifəyə istiqamətlənmişdir.

“28 May” mövzusu Azərbaycanın milli dövlətinin yaranması ilə bağlıdır. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmiş, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrini davam etdirdiyini sübut etmişdir. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərmiş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır. Müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisidir. Şagirdlərə vətəndaşlıq, dövlətçilik, milli qürur hisslərinin aşılanmasında bu cür mövzuların yüksək səviyyədə tədris olunmasının rolu çox böyükdür.

“Ehtiyaclarımız və istəklərimiz” fərdlərin maliyyə savadlılığı ilə bağlıdır. Maliyyə savadlılığı fərdin şəxsi maliyyə vəziyyətini idarə etmək qabiliyyətini göstərən bir səviyyədir. Başqa sözlə, düzgün maliyyə qərarlarının verilməsi və fərdlərin maddi rifahının yaxşılaşdırılması üçün zəruri olan məlumatlılıq, bilik, bacarıq, baxış və davranışlar toplusudur. Maliyyə savadlılığı yüksək olan fərd israfçı ola bilməz.
İsrafçılıq maddi və mənəvi resursların gərəksiz şəkildə xərclənməsinə deyilir. İsrafçılıq fərdlərə və cəmiyyətə çox böyük zərər verir. Yalnız insanlar deyil, dövlətlər də israfçı ola bilər. İsrafçı davranış təbii sərvətlərin, meşələrin, su və neft qaynaqlarının, elektrik enerjisinin və s. tükənməsinə səbəb olar. Bu isə dövlətin başqa dövlətlərə möhtac olmasına yol açmaqla onun iqtisadi və siyasi müstəqilliyini təhlükə altına qoya bilər.

Maliyyə savadlı insan kapitalının formalaşması dövlətin iqtisadi inkişafı deməkdir. Fərdin qənaət edə bildiyi hər şey başqalarının ehtiyaclarını qarşılamaq üçün istifadə edilərək sosial-iqtisadi qazanc kimi cəmiyyətə fayda verir. Maariflənmiş fərdlər resurslardan, məhsul və xidmətlərdən rasional istifadə edir. Beləliklə, rasional istehlakçı davranışı formalaşır: fərdlər və ailələr öz büdcələrini formalaşdırmağı öyrənir, gəlir və xərclərinin hesabatını düzgün aparırlar. Həm yığım, həm də qənaət vərdişləri yaranır. Fərdlərin və ailələrin özünə aid istehlak və qənaət vərdişləri isə toplumun ümumi maliyyə xarakterini müəyyən edir. Bu mənada “Ehtiyaclarımız və istəklərimiz” mövzusu çox aktualdır.

**Bölməyə giriş**

Müəllim ilk mövzuya bayramlarla bağlı biliklərin diaqnostikası ilə başlaya bilər. Şagirdlər bayramları tanıdıqlarını nümayiş etdirdikdən sonra, çoxmillətli və çoxdinli respublikamızda adət-ənənələr baxımından zəngin bayramlardan bəhs edən ilk mövzunun tədrisinə keçmək olar.

Layihə

**Mövzu 21**

**Bayramlar**
- **Dərslik:** səh. 86
- **İş dəftəri:** səh. 57

| | |
|---|---|
| **Alt-standartlar** | **3-4.6.1. Milli bayramlar haqqında ümumi məlumat verir.**<br>**3-4.6.2. Dini bayramlar haqqında ümumi məlumat verir.** |
| **Təlim məqsədləri** | • Novruz bayramının əlamətləri və qeyd olunması haqqında məlumatları təqdim edir.<br>• Dini bayramların (*Roş-Ha-Şana, Pasxa, Ramazan və Qurban bayramları)* əlamətləri və qeyd olunması haqqında məlumatları təqdim edir.<br>• Bayramların mədəni və mənəvi əhəmiyyəti barədə məlumat verir. |
| **Köməkçi vasitələr** | ağ kağız, rənqli karandaşlar, Kosa papağı, çömçə, zınqırov. |
| **Resurslar** | https://www.youtube.com/watch?v=j4uFjAlYOGM |

**Dərsin qısa planı**
**Cəlbetmə.** Qrup müzakirəsi
**Fəaliyyət.** "Novruz bayramına hazırlıq"
**Öyrənmə.** Sinif layihəsi haqqında mətn
**Tapşırıq.** Dərslik: tap. №.1-4. İD: №1,2
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ**





• Bu şəkillər hansı bayramlarla əlaqədardır? Onları hansı dəyərlər birləşdirir?
• Bu bayramları necə qeyd edirsiniz?

Cəlbetmə mərhələsində 2-ci sinifdə "Birlikdə" mövzusu vasitəsilə öyrənilən sosial münasibətlər və birgə fəaliyyət haqqında biliklər istifadə oluna bilər. 3-cü sinifdə tədris olunan "Bayramlar" mövzusu mədəniyyətin tərkib hissəsi olan bayramlar haqqındadır. Mövzu bayram zamanı hansı hisslər yaşanır, milli bayramların adətləri hansılardır və onların insanlar üçün mənəvi əhəmiyyəti nədən ibarətdir suallarının öyrənilməsinə istiqamətlənmişdir. Cəlbetmə mərhələsində uşaqların bayramlar haqqında məlumatlarının onların şəxsi təcrübələri, ailələrdə qeyd olunan bayramların yaratdığı təəssüratlarla əlaqələndirilməsi tövisyə olunur.

**FƏALİYYƏT** **"Novruz bayramına hazırlıq"**

Fəaliyyət komandalar arasında yarış formatında təşkil olunur. Komandaların adı Novruz bayramının "Şəkərbura", "Paxlava" və "Qoğal" kimi simvolları ilə əlaqələndirilir. Bu, komandanı şən əhvali-ruhiyyədə saxlamağa, eyni zamanda diqqəti Novruz bayramının əlamətlərinə yönəltməyə kömək edəcək. Hər komandaya müxtəlif tapşırıqlar verilir, lakin buna baxmayaraq, hər kəsin tapşırığı yerinə yetirməkdə yaradıcı və pozitiv olması gözlənilir.

Birinci komandanın vəzifəsi rəsm vasitəsilə təxəyyülün və obrazlı təfəkkürün stimullaşdırılmasına yönəlir. İkinci komanda Novruz bayramının ənənəvi qəhrəmanlarından biri olan Kosa obrazını yaradır və rollu oyun təşkil edir. Tamaşa zamanı Kosa mahnı oxuyaraq, zarafat edərək sinifdə xoş əhvali-ruhiyyə yaratmalıdır. Tamaşadan əvvəl komandaya birgə bayram ab-havası yaratmaq üçün tamaşaçıları oyuna cəlb edilməsi və Kosanın onlarla fəal ünsiyyət qurması tövsiyə oluna bilər.

Üçüncü komanda şablon əsasında yazılı mətn hazırlayır. *1. Əsas qəhrəman və ya qəhrəmanlar kimdir? 2. Nə baş verib? 3. Harada? 4. Nə vaxt? 5. Qəhrəmanlar hansı hissləri keçirirdilər? 6. Ən maraqlı həvəsləndirici hadisə nə oldu?* Mətn üzərində işə başlamazdan əvvəl təlimatda göstərilən mərhələlərə əməl etmək və hər mərhələyə aid 2 – 3 aydın, qlsa cümlə yazılması tövsiyə olunur. Hekayəni təqdim etdikdən sonra tamaşaçılardan rəy soruşmaq olar.

Layihə

Yaradıcı formatda təşkil olunan fəaliyyət dəstəkləyici və pozitiv öyrənmə mühitinin yaradılması üçün vacibdir. Həmçinin yaradıcı düşünməyə və kreativ davranışa yönəlmiş tapşırıqlar şagirdləri cəlb edir, fəallaşdırır və öyrəmənin səmərəli olmasına müsbət təsir göstərir.
Müzakirənin gedişində şagirdlər Novruz bayramının Azərbaycanda ən sevimli bayram olmasına aid fərdi, ailə və kollektiv təəssuratlarını bölüşə bilərlər. Novruz bayramının həm fərdi, həm də cəmiyyət səviyyəsində mədəni və mənəvi əhəmiyyətini vurğulayıb müzakirəni ümümiləşdirmək mümkündür.

**ÖYRƏNMƏ** Öyrənmə sinif layihəsini təsvir edən mətn formatında verilib.






Şagirdlər milli və dini bayramlar haqqında təqdimatlar hazırlayırlar. Bayramları xarakterizə edən əlamətlərə əsasən topladıqları məlumatları ümumiləşdirib təqdim edirlər. Hər komanda bayramı əks etdirən **rəmzləri və onların simvolik mənası** haqqında danışır. Birinci komanda Novruz bayramının əlamətlərinin qeyd olunması və əhəmiyyəti barədə təqdimat edir. Təqdimat «Novruz bərəkətin, təmizliyin, xeyirxahlığın, bolluğun rəmzidir» fikri ilə yekunlaşır.
İkinci komanda yahudi Roş-Ha-Şana yeni il bayramı haqqında təqdimat edir. Təqdimat interaktiv şəkildə təşkil olunur. İştirakçılara doğranmış alma dilimlərini bala batırıb dadına baxmaq təklif edilir və adətin mənası açıqlanır: “Adətə görə, almanı bala batırıb yeyirlər ki, il şirin və xoş təəssüratlarla keçsin.”
Üçüncü komanda Pasxa adlı xristian bayramı haqqında danışır. Pasxa bayramı xeyirxahlığın, yeniliyin, mərhəmət və şəfqət duyğularının ifadəsidir. Pasxa bayramında «kuliç» adlı bəzənmiş şirniyyat bişirilir və bu bayramın ənənəvi rəmzi hesab olunur.
Dördüncü komanda Ramazan və Qurban bayramları haqqında təqdimat edir. Ramazan ayında müsəlmanlar Günəş doğandan batana qədər yemir və içmirlər, yəni oruc tuturlar. Axşam isə ailə üzvləri və digər insanlarla birlikdə yemək yeyərək oruclarını açırlar. Qurban bayramında qoyun, keçi, inək, dəvə kəsilir və qurban əti insanlar arasında paylanır.
Dərslikdəki mətn hissə-hissə oxunur, hər hissədən sonra bayram rəmzləri və adətləri, onların insanlar üçün mənəvi əhəmiyyəti müzakirə mövzusu kimi tövsiyə olunur.
Müzakirə zamanı səsləndirilən fikirlərin və cavabların ümumləşdirilməsi üçün bayramları sosial hadisə kimi təsvir edən elementlərdən istifadə etmək məsləhətdir.
Dini və milli bayramlar bir kompleks kimi mədəniyyətin ayrı-ayrı komponentlərindən ibarətdir – (1) təbliğ olunan sülh, mənəvi təmizlik, barış və mərhəmətlilik kimi dəyərlər; (2) mərasimlər, oyun və tamaşalar, adət-ənənələr, nəğmələr; (3) müsbət sosial münasibətləri tənzimləyən davranış formaları (bayramlaşma, payapardı və s.); (4) zəngin mətbəx – məişət ənənələri.
*Alternativ variant.* Hekayəni rollu oyun şəklində təşkil etmək mümkündür.

**TAPŞIRIQ**

**1-ci** tapşırığın sualları şagirdlərin bayramlar haqqında mövzunun əsas məqamlarını necə mənimsədiklərini yoxlayır.
Məsələn, şagirdlər «Sevinc və ünsiyyət» cavabının əsaslandırmasında aşağıdakı arqumentləri təqdim edə bilərlər:
– Bayram zamanı biz əylənirik və gülürük. Bu xoş hisslər bizi həvəsləndirir.
– Bayramda qohumlarımız bizə qonaq gəlir. Böyüklər danışıb gülür, biz uşaqlar isə bütün günü bir yerdə oynayırıq.
«Hisslər və təəssüratlar» üzrə cavablarda uşaqların öz emosiyalarını ifadə etməsi və sosial münasibətlərlə əlaqələndirməsi əks etdirilə bilər.

**2.** Tapmacaların cavablarını aşağıdakı şəkillərlə uyğunlaşdırın.
a. Kəmərim qırmızı, yaşılköynəyəm,
Novruz bayramında hər bir evdəyəm. *(səməni)*
b. Özüm isti, rəngim al, ağrı-dərdi məndə sal. *(tonqal)*
c. Qapısız günbəzəm, üzüm ağ, içim sarı. (*qoğal)*
c. Novruzda bəzənərəm qırmızı, yaşıl, sarı. *(yumurta)*
d. Ağızı bağlı, bizə tanış, ayparadı, üstü naxış. *(şəkərbura)*

Layihə

**3**. Milli bayramlara məxsus olmayan əlaməti müəyyən edin. Fikrinizi əsaslandırın.
1. Hər bayramın adı var. *(doğru)*
2. Hər vaxtda qeyd oluna bilər. *(yanlış)*
3. Ölkənin vətəndaşları üçün əhəmiyyət kəsb edir. *(doğru)*

**4.** Bayramlarda xüsusi yeməklər hazırlanır. Sizcə, bunun səbəbi nədir? Verilmiş səbəblərdən birini seçib fikrinizi əsaslandırın.
a. Məqsəd ac qalmamaqdır. *(yanlış)*
b. Yeməkləri paylaşarkən ünsiyyət qururuq. *(doğru)*
c. Ənənəvi xörəklər ailə və milli tarixlə bağlı xoş xatirələri əks etdirir. *(doğru)*
d. Sadəcə, insanlarla oturub yemək üçün. *(yanlış)*

**Diferensial təlim**

*Dəstək*. Şagirdlərə Novruz bayramı ilə bağlı emosiyalarını təsvir etmək təklif oluna bilər.

*Dərinləşdirmə*. Şagirdlərə evdə qeyd etdikləri dini və ya milli bayram haqqında qısa hekayə yazmaq təklif etmək olar.

**Müəllim üçün məlumat.** Bayram yeməkləri bir qida olsa da, bayram vaxtı onlar bayramla bağlı sosial və emosional məna qazanır. Bayramda bişirilən xörəklər və şirniyyatlar insanların həyatın canlanması, yeni mövsümün gəlməsi, xeyir-bərəkət və xoş arzular haqqında təsəvvürlərini əks etdirir. Bayram yeməklərinin mədəniyyətin vacib hissəsinə çevrilməsinə bir sıra amillərin təsiri nəzərə alınmalıdır.

- Bayram yeməkləri sevgi və qayğını ifadə etməyin yollarından biridir. Yeməyi hazırlamaq, təklif etmək və paylaşmaqla bir-birimizə qayğı göstərdiyimizi nümayış etdiririk.
- Bayram süfrəsinin arxasında birlikdə vaxt keçirmək, söhbət etmək, hekayələr söyləmək və ünsiyyət qurmaq üçün imkan yaranır. Bu məqamlar ətrafımızdakılarla əlaqələrimizi gücləndirir və daha güclü, daha xoş münasibətlər qurmağa kömək edir.
- Bayram xörəkləri bizim mədəni və fərdi kimliyimizlə əlaqəlidir. Harada olmağımızdan, inancımızdan və yaşımızdan asılı olaraq fərdi və sosial təcrübələrimizi əks etdirən ənənəvi bayram yeməkləri düşünüb xatırlayırıq.

**ÖZÜNÜZÜ YOXLAYIN**

• Novruz bayramının hansı əlamətləri var? *(yumurta döyüşdürmək, səməni göyərtmək, tonqal yandırmaq)*
• Ölkəmizdə yaşayan insanlar hansı dini bayramları qeyd edirlər? (Roş-Ha-Şana, Pasxa, Ramazan və Qurban bayramları)
• Bayramların ümumi xüsusiyyətləri nələrdir? (*Bayramlar sülh, mənəvi təmizlik, barış və mərhəmətlilik kimi dəyərlər təbliğ edir.*)

**Formativ qiymətləndirmə**

| **Qiymətləndirmə meyarları** | **Qiymətləndirmə materialı** |
|---|---|
| Novruz bayramının əlamətləri və qeyd olunması haqqında məlumatları təqdim edir. | Fəaliyyət, tapşırıq 2 |
| Dini bayramların (*Roş-Ha-Şana, Pasxa, Ramazan və Qurban bayramları*) əlamətləri və qeyd olunması haqqında məlumatları təqdim edir. | Fəaliyyət, tapşırıq 4 |
| Bayramların mədəni və mənəvi əhəmiyyəti barədə məlumat verir. | Tapşırıq 3, 4 |

Layihə

**Mövzu 22**

**28 May**
- **Dərslik:** səh. 90
- **İş dəftəri:** səh. 59

| | |
|---|---|
| **Alt-standartlar** | **3-4.6.1. Milli bayramlar haqqında ümumi məlumat verir.**<br>**3-4.3.1. Rəsmi dövlət bayramları haqqında fikirlərini ifadə edir.** |
| **Təlim məqsədləri** | • Milli bayramların əlamətləri və qeyd olunması haqqında ümumi məlumat verir.<br>• 28 May Müstəqillik Gününün timsalında rəsmi dövlət bayramları haqqında fikirlərini ifadə edir. |
| **Köməkçi vasitələr** | |
| **Resurslar** | *https://www.youtube.com/watch?v=hN6SwYpjgds*<br>*https://www.youtube.com/watch?v=d-hzi6-NAOM* |

**Dərsin qısa planı**
**Cəlbetmə.** 28 May Müstəqillik Günü haqqında müsahibə
**Fəaliyyət.** "Azərbaycanım!"
**Öyrənmə.** Müstəqillik Gününün tarixinə aid mətn
**Tapşırıq.** Dərslik: tap. №.1-3. İD: №1-6
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim mövzuya dərsliyin "Mən və cəmiyyət" bölümündəki "Milli birlik" mövzusunu xatırlatmaqla başlaya bilər. Həmin mövzuda müstəqillik anlayışı ilk dəfə təqdim olunmuşdur: "Azərbaycan hakimiyyəti ermənilərin özbaşınalığının qarşısını nə üçün ala bilmirdi?" "Həmin vaxt dövlətimiz müstəqil deyildi, Moskvaya tabe idi." Suallara verilən cavablar "Düşmənə qarşı mübarizə aparmaqdan ötrü ölkə müstəqil olmalıdır" məntiqi nəticəsinə istiqamətləndirilməlidir.
Mövzuya dərsikdə verilən materialla da başlamaq olar. "Siz Müstəqillik Günü haqqqında nə bilirsiniz?" Şagirdlər baza biliklərinə istinad edərək 28 May Müstəqillik Günü haqqında fikirlərini söylədikdən sonra onların dövlət müstəqilliyi barədə mülahizələri dinlənilir.

**FƏALİYYƏT** **"Azərbaycanım!" (Səhnəcik)**
Müəllim səhnəciyi təşkil etmək üçün say üsulundan, yaxud püşkatmadan istifadə edə bilər. Püşkatma üçün sinifdəki şagirdlərin sayı qədər kiçik kağızlar kəsilir və kağızlardan yeddisinə səhnəcik iştirakçılarının adları yazılır. Kağızların hamısı bükülüb sellofan torbaya yığılır. Püşkatma iştirakçıların hamısının adı çıxana qədər davam etdirilir. Qız və oğlan adları yazılmış kağızları iştirakçılar öz aralarında dəyişdirə bilərlər.
Fəaliyyətin oyun vasitəsilə təşkil edilməsi şagirdlərdə əməkdaşlıq bacarığını inkişaf etdirir. Oyunlar interaktivliyi artırır, dərsin yeknəsəqliyini aradan qaldırır. Rollu oyun şagirdlərin yaradıcı təxəyyülünü inkişaf etdirir. Bu üsulla işlədikdə şagirdlər sanki hadisələrin canlı iştirakçılarına çevrilirlər. Rollu oyunun sayəsində şagirdlər digərlərinin düşüncə tərzini yaxşı anlamağa başlayırlar. Bu metodika mövzuya maraq oyadır və kontekstdə öyrənməni təmin edir. Rollu oyunun keçirilməsi zamanı sinfin bir hissəsi iştirakçı, bir hissəsi tamaşaçı kimi dərs prosesinə qoşulur.
Cari mövzu Azərbaycan Respublikasının yaranması və dünya dövlətləri tərəfindən müstəqil dövlət kimi tanınmasına dair möhtəşəm tarixi hadisələrdən bəhs edir. Dərsin mövzusu ilə əvvəlcədən tanış olması müəllimə səhnə tərtibatını düşünməyə və mümkün rekvizitləri əldə etməyə imkan verə bilər.
Oyuna başlamazdan əvvəl aparıcı ifaçıları bir-bir sinfə təqdim edir və hər birinin hansı xanlığın hökmdarı olmasını söyləyir. Məsələn, İrəvan xanı – ifa edir Kamran Quliyev, Xədicə bikə – ifa edir Səbinə Məmmədova və s. İştirakçılar irəli addım ataraq tamaşaçılar qarşısında baş əyirlər. Bu cür səhnə mizanları tamaşanı daha canlı və maraqlı etməklə bütün şagirdlərin diqqətini "səhnə"də baş verənlərə cəlb edə bilər.
Rollu oyunlar şagirdlərə ünvanlanmış, həm də oyunların məqsədlərinə xidmət edən müzakirə sualları ilə nəticələnməlidir. Səhnəcik başa çatandan sonra müəllim dərslikdəki sualların müzakirəsini təşkil edə bilər.

- Sizcə, xanlar birləşmək üçün nə etməli idilər?
- Onların belə davranışlarının nəticəsi necə olacaq?

Layihə

- Aparıcının son sözlərinin mənasını necə izah edərdiniz?

***Qeyd**: Aparıcının son sözləri Xalq şairi Məmməd Arazın Xalq şairi Bəxtiyar Vahabzadəyə həsr etdiyi "Məndən ötdü, qardaşıma dəydi..." şeirindəndir.*

**ÖYRƏNMƏ** Öyrənmə mətni milli bayramların əlamətləri və qeyd olunması haqqında ümumi məlumatın verilməsi və rəsmi dövlət bayramları haqqında fikirlərin 28 May Müstəqillik Gününün timsalında ifadə olunması alt-standartlarını reallaşdırmağa xidmət edir. Dərsin məqsədi Azərbaycanın tarixində müstəsna yeri olan 28 May Müstəqillik Gününün xalqımız, dövlətimiz üçün əhəmiyyətli barədə fikirlərin formalaşmasını və ifadə olunmasını nəzərdə tutur.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmişdir. Qısa dövr ərzində Azərbaycanın əsas dövlət orqanları – ilk parlamenti və hökuməti yaradılmış, dövlət atributları təsis olunmuş, sərhədləri müəyyən edilmiş, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilmiş, Cümhuriyyətin beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması və diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atılmışdır. Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynamışdır.

**Müzakirə**

- Dövlət rəmzlərinin yaradılması nəyi sübut edirdi?
- Müstəqil dövlətin əhəmiyyəti nədir?

Birinci suala verilən cavablar dövlət rəmzlərinin dövlətçiliyin ilk və əsas atributları olmasını diqqətə çatdırmalıdır.

İkinci sualın müzakirəsi zamanı öyrənmə mətnindəki məlumat səhnəcikdə təsvir olunan siyasi hadisələrlə əlaqələndirilərək şagirdlərin yaş səviyyəsinə uyğun şərh oluna bilər.

Müstəqil dövlətin olmaması Azərbaycanın xanlıqlara parçalanmasına səbəb olmuşdu. Qonşu dövlətlər bundan istifadə edib torpaqlarımızı işğal etmişdilər. Yaşadığımız dövrdə də torpaqlarımızı erməni işğalından azad etmək müstəqil dövlətimiz sayəsində mümkün oldu. 44 günlük müharibədə xalqımızın, ordumuzun və dövlət başçımızın birliyi Azərbaycana möhtəşəm qələbə qazandırdı. Xalqımızı və torpaqlarımızı qorumaq üçün müstəqil dövlətimizin olması vacibdir.

**TAPŞIRIQ**

**1-ci tapşırıq** Müstəqillik Gününün qeyd olunması ilə bağlıdır. Personajların hər biri bayramı necə qeyd edəcəklərini söyləyir. 28 Mayda Bayraq Muzeyini ziyarət etmək, stend düzəltmək, bayram şərəfinə idman yarışı keçirmək və böyük konsert proqramı hazırlamaq ölkəmizdə Müstəqillik Gününün necə qeyd olunması barədə təsəvvür yaradır. Şagirdlərdən bayramı necə qeyd etmək istədikləri soruşulur. Şagirdlər bu bayramın Azərbaycan üçün əhəmiyyətini anlayaraq yaradıcı təxəyyüllərinin köməyi ilə özlərinə aid tədbir planı təqdim etməlidirlər.

**2-ci tapşırıqda** verilmiş şeirdəki "müstəqillik" anlayışını ifadə edən sözlərin müəyyən edilməsi istənilir. Qeyd etmək lazımdır ki, şeirdə bu asossiasiyanı doğuran söz çoxdur, şagirdlər onlardan yalnız uyğun bildiklərini seçib deyə bilərlər. Məsələn, "toy-düyün", "əbədi bahar". "səslənən himnimiz", "sel gücü", "çiçəklənən yurdumuz", "yadigar" sözləri və söz birləşmələrinin hər biri məğbuldur.

**Diferensial təlim.**

*Dəstək*. Şagirdlərə 28 May Müstəqillik Gününə həsr olunmuş açıqça tərtib etməyi tapşırmaq olar.

*Dərinləşdirmə*. Azərbaycanın dövlət müstəqilliyinin əhəmiyyətini günümüzə aid nümunələrlə əsaslandırmağı təklif etmək olar.

Layihə

**Müəllim üçün əlavə məlumat.** Azərbaycan xanlarının obrazı şərti olsa da, Tuti bikə və Xədicə bikə obrazları tarixi şəxsiyyətlərdir. Tuti bikə Quba xanı Fətəlinin, Xədicə bikə isə Bakı xanı Məlik Məhəmmədin xatunu olmuşdur. Tuti bikə Kaytaq usmisi Əmir Həmzənin bacısı idi. Əmir Həmzə müttəfiqləri ilə birlikdə Quba xanlığını ələ keçirib, bacısı Tuti bikənin hökmü altında olan Dərbəndi də tutmağı qərara almışdı. XIX əsr tarixçisi Y.Kozubski bu hadisələri belə təsvir edir: "Fətəli xanın cəsarətli arvadı şəhəri qardaşından kişi möhkəmliyi ilə müdafiə etdi. O, qalaların üstündə aslan kimi dayanmışdı. Qala silahlarının atəşini özü idarə edirdi. Nəticədə döyüşçülər Usmiyə qoşunlarını məğlub edərək onu Müşkür şəhərinə çəkilməyə məcbur etdilər. Cəsur Tuti bikə şəhəri belə xilas etdi".
Xədicə bikə ağlı, dünyagörüşü ilə seçilən xanımlardan biri olmuşdur. O, qubalı Fətəli xanın bacısı idi. Xədicə bikə Bakı xanlığının idarə edilməsində fəal iştirak etmişdir. Məlik Məhəmməd xan əsirlikdə olanda və Bakıda olmadığı vaxtlarda xanlıq Xədicə bikə tərəfindən idarə olunurdu**.** (*Azərbaycan tarixi, 3-cü cild,səh. 421–423*)

**ÖZÜNÜZÜ YOXLAYIN**

- 28 Mayda qeyd etdiyimiz bayramın əhəmiyyəti nədir? (*Ölkəmiz müstəqil olmadığı zamanlarda hansı hadisələrlə üzləşmişdi? Bu hadisələrin hansı nəticələri olmuşdu?*)
- Dövlətimiz nə üçün Azərbaycan Xalq Cümhuriyyətinin varisi hesab edilir? (*Üçrəngli Dövlət Bayrağımız nə zaman qəbul olunub? Azərbaycanın Dövlət Himni hansı dövrdən yadigardır? Azərbaycanın Dövlət Gerbi nə vaxt hazırlanmışdır?)*

**Formativ qiymətləndirmə**

| **Qiymətləndirmə meyarları** | **Qiymətləndirmə materialı** |
|---|---|
| Milli bayramların əlamətləri və qeyd olunması haqqında ümumi məlumat verir. | Tapşırıq 1 |
| 28 May Müstəqillik Gününün timsalında rəsmi dövlət bayramları haqqında fikirlərini ifadə edir. | Tapşırıq 1, 2 |

Layihə

**Mövzu 23**

**Ehtiyaclarımız və istəklərimiz**
- **Dərslik:** səh. 93
- **İş dəftəri:** səh. 61

| | |
|---|---|
| Alt-standartlar | **3-4.2.1. Şəxsi büdcəsindən səmərəli istifadəni izah edir.**<br>**3-4.2.2. Qənaət və israf anlayışlarını müqayisəli izah edir.** |
| Təlim məqsədləri | • Büdcəsindən istəklərinə görə deyil, zəruri ehtiyaclarına görə səmərəli istifadəni izah edir.<br>• Qənaət və israf anlayışlarını müqayisəli izah edir. |
| Köməkçi vasitələr | |
| Resurslar | https://www.youtube.com/watch?v=cJRllvaWW7A<br>https://www.youtube.com/watch?v=4FWfeF4qzbI |

**Dərsin qısa planı**

**Cəlbetmə.** Diqqətin Yer üzündə içməli suyun tükənməsinə və sudan qənaətlə istifadənin zəruriliyinə yönəldilməsi

**Fəaliyyət.** "Siyahı tərtib edirik"

**Öyrənmə.** Qənaət, israf və resurs anlayışlarının açıqlanması

**Tapşırıq.** Dərslik: tap. 1-3 İD: №1-6

**Özünüzü yoxlayın.**

**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Mövzuya dərsikdə verilən materialla başlamaq olar. *"Televizorda göstərilən reklam bizə hansı mesajı çatdırır?"* sualı ətrafında, problemin səbəbləri və mümkün nəticələri barədə şagirdlərin mülahizələri dinlənilir. *"Sizcə, sudan başqa, daha nələrin qıtlığı ola bilər?"* sualına cavab olaraq şagirdlər maraqlı fikirlər söyləyə bilərlər. Müəllim diqqəti tükənən, bərpa olunmayan resurslarla bağlı cavablara yönəldərək sualın növbəti hissəsini səsləndirə bilər: *"Buna qarşı nə edə bilərsiniz?"* Cavablar dinlənildikdən sonra dərsin fəaliyyət mərhələsinə keçmək olar.

**FƏALİYYƏT** **"Siyahı tərtib edirik"**




Fəaliyyəti yerinə yetirmək üçün müəllim şagirdləri qruplara bölə bilər. Fəaliyyətdə Venn diaqramının tətbiq edilməsi məqsədə çatmaq üçün səmərəli ola bilər. Bu üsul şagirdlərin biliklərini aktuallaşdırır, təhlil, dəyərləndirmə və əsaslandırma bacarığını inkişaf etdirir.

Hər bir qrup dərslikdəki tapşırığı yerinə yetirir. Qrup üzvləri cibxərcliyinə almaq istədiklərinin siyahısını, hər bir şagirdin də ehtiyaclarının siyahısını tərtib edir. Onlara tərtib etdikləri iki siyahını Venn diaqramında müqayisə etmək tapşırılır. Sonra qruplar işlərini təqdim edirlər. Müəllim nəticələri ümumiləşdirir. Nəzərə almaq lazımdır ki, qruplar avtonom şəkildə işlədiklərinə görə onların nəticələrində fərqlərin olması mümkündür. Müəllim siniflə birlikdə nəticələri ümumiləşdirib yekun siyahını lövhədən asa bilər. İstəklərin siyahısında da belə ümumiləşdirmə aparmaq mümkündür. İstəklərin ümumiləşmiş siyahısı da lövhədən asılır.

- Məktəblinin ehtiyacları ilə istəklərinizin siyahısını müqayisə edin. İstəklərinizin siyahısında nələr artıqdır?
- Cibxərcliyimizə istədiyimiz hər şeyi almaq nəyə səbəb ola bilər?

Suallar ətrafında aparılan müzakirə zəruri ehtiyacları müəyyən etməyə və cibxərcliyindən səmərəli istifadənin vacibliyinə istiqamətlənməlidir.

Layihə

**ÖYRƏNMƏ** Ümumi təhsil pilləsində təhsilalanlarda formalaşdırılan səriştələr içərisində maliyyə savadlılığı (*pul və qənaət barədə məlumatlıdır; şəxsi büdcəsindən səmərəli istifadə edir; səmərəli istehlak davranışı nümayiş etdirir, resurslardan qənaətlə istifadə edir*.) xüsusi yer tutur və bu səriştənin formalaşdırılması, əsasən, "Həyat bilgisi" fənni üzrə (4. iqtisadi bilik və bacarıqlara (*qənaət, səmərəli istifadə və s.*) malik olduğunu nümayiş etdirir;) təlim nəticələrini əhatə edir.

Öyrənmə mətni 2-ci sinifdə keçilən "Qənaət" mövzusunun genişləndirilmiş davamıdır. Mahiyyət etibarı ilə mövzu şagirdlərin maliyyə savadlılığının artırılmasını nəzərdə tutur. Mətndə qənaətcilliyin və israfçılığın mahiyyəti açıqlanır. İnsanların qənaət etməli və israfından çəkinməli olduqları əsas resurslar sadalanmaqla ***resurs*** anlayışı izah olunur. Göstərilir ki, israfçılıq resursların azalmasına və tükənməsinə səbəb olur. Resursların tükənməməsi üçün israfçı olmamaq lazımdır. Qeyd olunur ki, erkən yaşlarından hər kəs qənaətcil olmağı öyrənməlidir. Burada müəllimin nəzərdə saxlamalı olduğu məqamlar: qənaətcilliyin zəruriliyinin diqqətə çatdırılması; "qənaətcil olmayan israfçı olur" əqli nəticəsinin çıxarılması; vaxtın ən qiymətli resurs olması fikrinin formalaşdırılmasıdır.

**Müzakirə**

- Ətrafınızda birinin israfçılıq etdiyini görsəniz, nə edərsiniz?
- Cibxərcliyini səmərəli xərcləmək hansı bacarığın formalaşmasına kömək edir?

Birinci suala verilən cavablar şəxsiyyət və fəal vətəndaş mövqeyinin formalaşdırılması ilə bağlıdır. İkinci sualın cavabları cibxərcliyinin istifadəsində qənaətcil olmağı və bunu vərdişə çevirməyi təşviq etməlidir.

**TAPŞIRIQ**

**1-ci tapşırıqda** məktəb ləvazimatı, vaxt və cibxərcliyini israf etməyin nəticələrini müzakirə etmək nəzərdə tutulur. Müəllim şagirdlərə israfçılığın yaratdığı nəticələr zəncirinin bir neçə addım da uzadılmasını təklif edə bilər. Məsələn, lövhədə ikisütunlu cədvəl çəkib israf edilənləri bir sütunda, nəticələri qarşı sütunda yazmaq təklif oluna bilər. Tapşırığın məqsədi israfçılığın vurduğu ziyana daha geniş ampluada baxmaq bacarığının formalaşmasına yönəlmişdir.

| ***İsraf edilənlər*** | ***Nəticələri*** |
|---|---|
| Məktəb ləvazimatı | Yenidən alınması ilə nəticələnir. Bu isə əlavə pul itkisinə səbəb olur. |
| Vaxt | Vaxt itkisi gün ərzində görməli olduğumuz işləri başa çatdırmamağa səbəb olur. Nəticədə dərslərimizdə geri qala bilərik. Dərslərdə geri qalmaq isə ümumi inkişafımıza mane ola bilər. |
| Cibxərcliyi | Pul itkisinə səbəb olur, daha vacib şeyləri almağa pul çatmır. |

**2-ci tapşırıq** qənaətin faydalı olmasına diqqət çəkməklə, qənaətcilliyin inkişafını nəzərdə tutur. Bu tapşırıq da 1-ci tapşırıq üslubunda yerinə yetirilə bilər.

**3-cü tapşırıqda** geyimlərini çox səliqəsiz saxlayan uşaq və yeyə biləcəyindən çox yemək götürüb artığını zibil qabına atan uşaq təsvir olunmuşdur**.** Cavablar birmənalı olaraq "***bəli***" olmalıdır. Şagirdlər uşaqları nə üçün israfçı hesab etdiklərini əsaslandırmalıdırlar.

**Diferensial təlim.**

*Dəstək*. Şagirdlərə qənaət və israf anlayışlarını müqayisə etmək təklif oluna bilər.

*Dərinləşdirmə*. Şagirdlərdən cibxərcliyini qənaətlə xərcləmək üçün nə etdiyini soruşmaq olar.

**Müəllim üçün əlavə məlumat.** Maliyyə savadlılığı fərdlərin maliyyə məhsul və xidmətlərdən istifadə hüququnu reallaşdırmağa kömək edən maliyyə risk və imkanlarını qiymətləndirmək, rasional seçimlər etmək üçün zəruri bilik, bacarıq və davranışlara malik olması deməkdir. Azərbaycan Respublikasının Mərkəzi Bankı istehlakçıların maliyyə savadlılığının artırılması və bu yolla onların hüquqlarının müdafiəsi fonunda müxtəlif səpkili tədbirlər həyata keçirir. Bu təbirlərdə məktəblilər, tələbələr, müəllimlər əsas hədəf qruplarındandır.

Maarifləndirmə məqsədilə qeyd olunan hədəf qruplarına təlim və seminarlar, yay məktəbləri, iş yerlərində tədbirlər təşkil edilir. Bu çərçivədə ictimai aksiyalar, müxtəlif nominasiyalarda müsabiqələr, təbliğat-təşviqat kampaniyaları həyata keçirilir. Bu məqsədlə praktiki əhəmiyyəti olan maarfləndirici oyunlar və müxtəlif intellektual resurslar yaradılmışdır.

Müraciət, təklif və rəylər üçün ünvan: *maliyya_savadliligi@cbar.az*

Ləyihə

**ÖZÜNÜZÜ YOXLAYIN**

- Biz nələrə qənaət etməliyik? (*Bütün resurslara qənaət nəzərə alınmalıdır*.)
- İsrafçılıq nə deməkdir? (*İsrafçılıq qənaətcilliyin əksi olan keyfiyyət kimi təsvir edilməlidir*)

Bu mərhələdə müəllim "Çıxış bileti" üsulunu tətbiq edə bilər. Dərsin bitməsinə yaxın refleksiya sualları lövhəyə yazılır və şagirdlərə vərəqlər – "Çıxış biletləri" paylanır. Vərəqdə dərsin bütün aspektlərini əhatə edən suallar qoyulur. Şagirdlərin bu suallara verdiyi cavablar təlim nəticələrinin əldə olunması, öyrənmə prosesi, təlim fəaliyyətinin effektivliyini yoxlamağa imkan verir. Çıxış biletində aşağıdakı kimi suallar yazıla bilər:

Bu gün mən ........................................ öyrəndim.
Bu gün öyrəndiklərim gündəlik həyatımızda mənə ................................................. ........faydalı ola bilər.
Bugünki dərsdə ............................................................................. sual məni çox düşündürdü.
Qrup işində iştirakım məni qane .........................
Bu mövzuda ................................................................... başa düşmədim.
Mövzuda mənə .......................................................................  çox maraqlı gəldi.

**Formativ qiymətləndirmə**

| **Qiymətləndirmə meyarları** | **Qiymətləndirmə materialı** |
|---|---|
| Büdcəsindən istəklərinə görə deyil, zəruri ehtiyaclarına görə səmərəli istifadəni izah edir. | Tapşırıq 1 |
| Qənaət və israf anlayışlarını müqayisəli izah edir. | Tapşırıq 1, 2 |

Layihə

## 6-cı BÖLMƏ

## Təhlükəsizlik və qaydalar

| Mövzu № | Adı | Saat | Dərslik (səh.) | İş dəftəri (səh.) |
|---|---|---|---|---|
| Mövzu 24 | Təbii fəlakətlər | 3 | 98 | 65 |
| Mövzu 25 | Diqqətli və ehtiyatlı olaq | 2 | 102 | 68 |
| Mövzu 26 | Təhlükəsizlik nişanları | 3 | 105 | 70 |
| Mövzu 27 | Danışan nişanlar | 3 | 108 | 72 |
| | Ümumiləşdirici tapşırıqlar | | 111 | 74 |
| | **KSQ** | 1 | | |
| | **CƏMİ** | **12** | | |




**Bölmənin qısa icmalı**

Bölmə həyat fəaliyyətinin təhlükəsizliyi ilə bağlı mövzuları əhatə edir.
Bölmənin ilk mövzusu 2-ci sinifdə coğrafiya sahəsində öyrənilmiş biliklərin davamlılığını təmin edən “Təbii fəlakətlər” mövzusuna aid dolu, güclü külək, şimşək çaxması kimi təbii fövqəladə hadisələrin təsvir olunmasını nəzərdə tutur. Şagirdlər dolu, güclü külək, şimşək çaxması kimi təbii fövqəladə hadisələri təsvir edir və bu hadisələr zamanı əməl edilməli təhlükəsizlik qaydalarını sadalayırlar. Onlar öyrəndikləri məlumatlara əsaslanaraq təhlükəli vəziyyətlərdə diqqətli olmaq, özünü necə aparmaq kimi bacarıqlarını inkişaf etdirir, dolu, güclü külək, şimşək çaxması kimi hadisələr zamanı qorunmağın yollarını nümunələrlə nümayiş etdirirlər.

“Diqqətli və ehtiyatlı olaq” mövzusu havaya zəhərli maddələrin yayılması və hidrodinamik qəzalar kimi texnogen qəzalar zamanı əməl edilməsi vacib olan davranış qaydaları haqqındadır. Şagirdlər bu mövzu ilə havaya zəhərli maddələrin yayılması və hidrodinamik qəzalar kimi texnogen qəzalar haqqında təsəvvürlərini ifadə edirlər. Onlar havaya zəhərli maddələrin yayılması və hidrodinamik qəzalar zamanı yarana biləcək vəziyyətləri izah edir, bu qəzalar zamanı əməl etməli olduqları davranış qaydalarını sadalayırlar. Müxtəlif situasiyalar yaradılaraq şagirdlərin havaya zəhərli maddələrin yayılması və hidrodinamik qəzalar zamanı əməl etməli olduqları davranış qaydalarını praktik olaraq nümayiş etdirməsi təmin olunur.

“Təhlükəsizlik nişanları” mövzusu ilə şagirdlərin inşaat ərazisi, su kanallarının yaxınlığı, su hövzələri, su anbarları, döyüş əməliyyatları aparılmış ərazilərdə qoyulmuş qadağan və xəbərdarlıq işarələrinin mənasını izah etmək bacarıqları inkişaf etdirilir. Şagirdlər inşaat ərazisi, su kanallarının yaxınlığı, su hövzələri, su anbarları, döyüş əməliyyatları aparılmış ərazilərdə qoyulmuş qadağan və xəbərdarlıq işarələrinin əhəmiyyətini izah edirlər, bu nüşanlara uyğun əməl edilməli olan təhlükəsizlik qaydalarını sadalayır, öyrəndikləri məlumatlara əsaslanaraq təhlükəli vəziyyətlərdə diqqətli olmaq, özünü necə aparmaq kimi bacarıqlarını inkişaf etdirirlər.

“Diqqətli və ehtiyatlı olaq” mövzusunda şagirdlərin 2-ci sinifdə öyrəndikləri biliklər genişlənir. Şagirdlər dəmiryolu stansiyalarında və qatarlarda davranış və təhlükəsizlik qaydalarını izah edirlər. Onlar xəbərdarlıq, qadağan, məlumatverici nişanların mənasını şərh edir, həmin nişanların tələbinə əməl etməyin vacibliyini vurğulayır, şəxsi nümunələrində praktik olaraq bu tələblərə necə əməl olunmasını nümayiş etdirirlər.

**Bölməyə giriş**

Bölmənin ilk mövzusunda hazırlıq kimi şəkil üzrə iş təşkil edilə bilər. Şagirdlərin diqqəti şəkildə verilmiş güclü külək, şimşək çaxması, havaya zəhərli maddələrin yayılması ilə bağlı və su anbarları ərazisində qoyulmuş qadağan, həmçinin xəbərdarlıq işarələrinə yönəldilir. “Hazırsınızmı?” başlığı altında verilən suallar ətrafında müzakirə təşkil olunur. Müəllim şagirdlərə bölməni əhatə edən əlavə suallar verə bilər.

Layihə

| Mövzu 24 | **Təbii fəlakətlər**<br>• **Dərslik:** səh. 98<br>• **İş dəftəri:** səh. 65 |
|---|---|

| | |
|---|---|
| **Alt-standartlar** | **3-3.3.1.Təbii fövqəladə hadisələri təsvir edir.**<br>**3-3.3.2.Təbii fövqəladə hadisələr zamanı təhlükəsizlik qaydalarını sadalayır.** |
| **Təlim məqsədləri** | • Dolu, güclü külək, şimşək çaxması kimi təbii fövqəladə hadisələri təsvir edir.<br>• Dolu, güclü külək, şimşək çaxması zamanı təhlükəsizlik qaydalarını sadalayır. |
| **Köməkçi vasitələr** | karton, rəngli kağız, qayçı, rəngli karandaş, sarı rəngli sap, pambıq, yapışqan. |
| **Resurslar** | *https://fhn.gov.az/az/maariflendirme/fovqelade-hallarla-bagli-davranis-qaydalari/ildirim-simsek*<br>*https://fhn.gov.az/az/maariflendirme/fovqelade-hallarla-bagli-davranis-qaydalari/guclu-kulekler-firtina-qasirga-buragan#* |

**Dərsin qısa planı**
**Cəlbetmə.** Təbii fəlakətlər haqqında sual-cavab
**Fəaliyyət.** "Şimşək çaxması"
**Öyrənmə.** Təbii fövqəladə hadisələr – güclü külək, şimşək, ildırım, dolu
**Tapşırıq.** Dərslik: tap. №.1-3. İD: №.1-8
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim mövzuya dərslikdəki materialla başlaya bilər. "Şəkildə hansı təbiət hadisəsi təsvir olunub? sualına şagirdlər "külək" cavabını verə bilərlər. Verilən cavablar arasında "güclü külək" olmazsa, müəllim bu cavabı əlavə suallar vasitəsilə ala bilər. Məsələn, "Küləklər gücünə görə necə fərqlənir?", "Şəkildə gördüyünüz necə küləkdir?" və s. "Bu təbii hadisə hansı fəlakətlərə səbəb ola bilər?" Şagirdlər güclü küləyin yaratdığı fəsadları sadalaya bilərlər. Bundan sonra müəllim "Hava şəraiti ilə bağlı başqa hansı təbiət hadisələrini tanıyırsiniz?" sualı ilə şagirdlərin baza biliklərini yoxlaya bilər. Suala təxminən belə cavablar ola bilər: "yağış, qar, şimşək, ildırım" və s.

**FƏALİYYƏT** Fəaliyyət mərhələsində şagirdlər dərslikdəki tapşırığı yerinə yetirir, şimşəkli hava şəraiti modelini hazırlayırlar.
*1. Nümunədə verildiyi kimi kartonda səmaya göy rəngli, yerə isə yaşıl rəngli kağız yapışdırın.*
*2. Pambıqdan bulud düzəldib səmaya yapışdırın.*
*3. Kağızdan ev, bina, ağac modelləri hazırlayıb yerin səthinə düzün.*
*4. Şimşəyi göstərən sarı sapları səmaya yapışdırın.*
Fəaliyyət başa çatandan sonra şagirdlər "Düzəltdiyiniz modeldə hansı hava şəraiti təsvir olunmuşdur?", "Şimşək hansı hava şəraitində müşahidə olunur?" kimi sualları müzakirə edirlər.

**ÖYRƏNMƏ** Öyrənmə mətnində təbii fövqəladə hadisələrdən güclü külək, şimşək, ildırım və dolu düşməsi haqqında məlumat verilir və bu hadisələr baş verən zaman davranış qaydaları öyrədilir.
Müəllim bu mərhələni ***Ziqzaq*** təlim üsulu ilə təşkil edə bilər. Ziqzaq üsulu vaxtdan səmərəli istifadəyə şərait yaradır və əməkdaşlıq vərdişlərini inkişaf etdirir. Bu üsul mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə imkan yaradır.
Şagirdlər dörd nəfərlik qruplara bölünürlər. Bu qruplar "ana" qruplar adlanır. Sonra "ana" qruplardan qrup daxilində saymaqla (1,2,3,4) yeni qruplar formalaşır. Hər qrupdakı eyni rəqəmi deyən şagirdlər 1-lər, 2-lər, 3-lər, 4-lər olmaqla yeni qruplar yaradırlar. Bunlar "ekspert" qruplarıdır. Mövzuya uyğun olaraq bu qrupları "Külək", "İldırım", "Dolu" və "Qaydalar" qrupu da adlandırmaq olar. Öyrəniləcək mətn adlara uyğun hssələrə bölünür və ekspert qruplarına verilir. "Ekspertlər" mətnin müvafiq hissəsini oxuyur, verilmiş tapşırıqları yerinə yetirirlər. İş başa çatdıqdan sonra ikinci mərhələ başlanır. Ekspertlər "ana" qrupa qayıdır, əldə etdikləri informasiyanı yoldaşları ilə bölüşürlər. Beləliklə, mətn üzərində işi bütövləşdirirlər. Müəllim informasiyanın dəqiq verildiyinə əmin olmaq üçün suallar verə bilər.

Layihə

**Müzakirə**

• Sizcə, təbii fəlakətlərin başvermə səbəbi nədir?

Bu, ümumi xarakterli sualdır və bütün təbii fəlakətlərin yaranma səbəbini əhatə edir. Cavabı isə təbii fəlakətlərin təbiətdə yaranması və insanlardan asılı olmamasıdır.

• Güclü külək zamanı ağacların və elektrik xətlərinin altında durmaq nə üçün təhlükəlidir?

Bu sualın cavabı hadisələrin mahiyyətinə şagirdlərin nə dərəcədə nüfuz etməsinin göstəricisi ola bilər.

• Sizcə, şimşək zamanı evdə duş qəbul etmək, qab-qacaq və paltar yumaq olarmı? Fikrinizi əsaslandırın.

Bu çox maraqlı sualdır və şagirdlərin bu barədə müxtəlif açıqlamaları ola bilər. Müəllim "Olmaz!" cavabını verən şagirdlərdən bunun izahını soruşa bilər. Çevik düşünən şagirdlər qaydalardakı "yaş paltar və ayaqqabı ilə gəzməyin riskli olmasından" çıxarış edərək bunun təhlükəli olmasını söyləyə bilərlər. Cavabdan asılı olmayaraq, müəllim bu cür hava şəraitində su ilə işləməyin təhlükəli olmasını şagirdlərin nəzərinə çatdıra bilər.

***Qeyd.*** Su elektriki yaxşı keçirdiyi üçün şimşək çaxan zaman bu cür fəaliyyətlərdən çəkinmək lazımdır.

**TAPŞIRIQ** *1-ci tapşırıqda* dolunun yağışdan necə fərqləndiyini müzakirə etmək təklif olunur.

*2-ci tapşırıqda* küləyə aid sualların cavabı soruşulur.

a) bəndindəki sual birbaşa alt-standartın tələbi ilə bağlıdır. Şagirdlər küləyi təbiət hadisəsi kimi təsvir etməlidirlər.

b) bəndinə verilən cavab: "küləklər zəif və güclü olur."

c) bəndində şagirdlər güclü küləkdən qorunma barədə öyrəndiklərini danışmalıdırlar.

*3-cü tapşırıqda* şagirdlərə şəkildə verilən təbiət hadisələrini adlandırmaq və təhlükəsizlik qaydalarına necə əməl edilməsinə dair fikir bildirmək təklif olunur.

1-ci şəkildə qaydalara əməl edilir, 2-ci şəkildəki uşaqlar isə təhlükəsizlik qaydalarına əməl etmirlər.

Mövzuya 3 saat vaxt ayrılmasından istifadə edərək müəllim şagirdlərin mövzunu nə dərəcədə mənimsədiyini ölçmək imkanı verən *"3–2–1" üsulunu* tətbiq edə bilər. Bu üsul refleksiya üçün imkan yaradır. Müəllim şagirdlərə aşağıdakılar barədə qeydlər etməyi tapşırır:

Mövzu/dərs mətnindən

- Öyrəndiyiniz 3 məlumatı yazın;
- Sizin üçün maraqlı olan 2 faktı yazın;
- Mövzu ilə bağlı vermək istədiyiniz 1 sualı yazın.

Bu üsul şagirdlərdə köhnə bilik və təcrübə ilə yeniləri arasında əlaqə yaratmaq, sual tərtib etmək və münasibət bildirmək kimi vacib bacarıqlar formalaşmasına kömək edir. "3–2–1" üsulu vasitəsilə müəllim də nəyi bir daha nəzərdən keçirməli olduğunu müəyyən edə bilər.

**Diferensial təlim.**

*Dəstək*. Dolu, güclü külək, şimşək çaxması kimi təbii fövqəladə hadisələri təsvir etməyi tapşırmaq olar.

*Dərinləşdirmə*. Dolu, güclü külək, şimşək çaxması zamanı təhlükəsizlik qaydalarını soruşmaq olar.

**Müəllim üçün əlavə məlumat.** *Küləyin sürəti* və *küləyin gücü* bir qədər fərqli anlayışlardır. *Küləyin sürəti* havanın 1 saniyədə üfüqi istiqamətdə metrlərlə qət etdiyi məsafəyə deyilir. Küləyin sürəti metr/saniyə (m/san), kilometr/saat (km/saat), və ya balla göstərilir (1 bal təxminən 2 m/san-yə bərabərdir).

*Küləyin gücü* onun istiqamətinə perpendikulyar qoyulmuş, sahəsi 1 $m^2$ olan səthə göstərdiyi təsiri ilə təyin edilir.

Küləyin güc və istiqamətini flüger cihazı ilə, sürətini (m/san və ya km/saat) isə anemometrlə təyin edirlər.

• İldırım düşməsi ağacların hündürlüyü ilə düz mütənasibdir. Məsələn, ağacın hündürlüyü 4 metrdirsə, həmin ağacdan ən az 4 metr aralı dayanmaq lazımdır;

- metal əşya, o cümlədən saat, sırğa, üzük, idman əşyaları və s. ilə təmas təhlükəlidir;
- traktor, otbiçən maşın, motosiklet və ya velosipeddən dərhal düşüb ən az 30 metr aralanmaq lazımdır;
- qrup halında olanlar aralarında ən azı 1,5 metr məsafə saxlamalıdırlar.

**ÖZÜNÜZÜ YOXLAYIN**

• Küləklər hansı halda dağıntı törədə bilər? (*Külək vaxtı hansı qaydalara əməl etmək lazımdır? Bu qaydalara əməl etmədikdə nə baş verə bilər?)*

• İldırımdan qorunmaq üçün necə davranmaq lazımdır? *(İldırım nədir? İldırım hansı hava şəraitində müşahidə olunur? İldırım hansı fəsadlar yarada bilər? Bu fəsadlardan qorunmaq üçün nə etmək lazımdır?)*

Layihə

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Dolu, güclü külək, şimşək çaxması kimi təbii fövqəladə hadisələri təsvir edir. | Fəaliyyət<br>Tapşırıq 1, 2 |
| Dolu, güclü külək, şimşək çaxması zamanı təhlükəsizlik qaydalarını sadalayır. | Tapşırıq 2, 3 |

Mövzu 25

**Diqqətli və ehtiyatlı olaq**
- **Dərslik:** səh. 102
- **İş dəftəri:** səh. 68

| Alt-standartlar | **3-3.3.3. Texnogen qəza zamanı təhlükəsizlik qaydalarını sadalayır.** |
|---|---|
| **Təlim məqsədləri** | • Havaya zəhərli maddələrin yayılmasını izah edir.<br>• Havaya zəhərli maddələrin yayılması zamanı əməl edilməli təhlükəsizlik qaydalarını sadalayır.<br>• Hidrodinamik qəzaları təsvir edir.<br>• Hidrodinamik qəzalar zamanı əməl edilməli təhlükəsizlik qaydalarını sadalayır. |
| **Köməkçi vasitələr** | pambıq parça, bint, qayçı, iynə, sap, rezin, xətkeş, marker, ərzaq məhsulları, içməli su, tibb çantası, vacib sənəd nümunələri və fənər. |
| **Resurslar** | Dərslik, iş dəftəri. |

**Dərsin qısa planı**
**Cəlbetmə.** Zavod və fabrikdən çıxan tüstülər
**Fəaliyyət.** Təmiz nəfəs alaq
**Öyrənmə.** Təhlükəsizlik qaydaları
**Tapşırıq.** Dərslik: tap. №1 İD: №1-4
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim şagirdlərin diqqətini dərslikdəki ata ilə qızının söhbətinə cəlb edərək sual verə bilər:
– *Qız nə üçün havanın dumanlı olduğunu düşünür?* (Şagirdlər havanın şəffaf olmadığını, ətrafdakı obyektlərin aydın görünmədiyini, ətrafın tüstülü, tozlu olmasını qeyd edə bilərlər.)
– *Sizcə, ətrafdakı havanın dumanlı kimi görünməsinə səbəb nədir?* (Şagirdlər şəkildəki zavodların, fabriklərin borularından çıxan tüstünü səbəb göstərə bilərlər.) Dərslikdə verilmiş suallar ətrafında müzakirə təşkil edilir.
– *Necə düşünürsünüz, hansı hallarda maska taxmalıyıq?*
Müəllim bu sualla şagirdlərin diqqətini havaya buraxılan zəhərli maddələrə və qazlara, toz hissəciklərinə yönəldir.

**FƏALİYYƏT** Müəlim dərslikdəki fəaliyyəti şagirdlərlə ardıcıllıqla həyata keçirə bilər. Dərslikdəki ləvazimatlar olmadıqda müəllim fəaliyyəti əlavə olaraq verilmiş formada da təşkil edə bilər.
**Təklif. Ləvazimatlar:** kağız dəsmallar, yara bantları, qayçı, ip.
**Hazırlanması:**
1. Kağız dəsmalları 3-4 qat qatlayın.
2. Qatlanmış kağız dəsmalın hər ucuna yara bantlarını ip keçirə biləcək şəkildə yapışdırın və ipləri hər iki tərəfdən keçirib düyünləyin.
3. Maskanı üzə taxın və yara bantlarına keçirilmiş ipləri qulaq arxasına yerləşdirin.

Layihə

**Nəticə:** Bu maska şagirdlərin müvəqqəti istifadə etməsi üçün asan və təhlükəsizdir. Həmçinin evdə asanlıqla tapıla bilən materiallardan hazırlanır.
Fəaliyyətdə bütün qrup üzvlərinin fəal olmasına diqqət edilir.
Şagirdlər maskanı hazırladıqdan sonra müəllim onlardan soruşa bilər:
– *Maska istifadə etmək nə üçün vacibdir?*
– *Maska taxmaqla bərabər, hansı qaydalara əməl etməliyik? Fikrinizi əsaslandırın.* (Müzakirə zamanı şagirdlərin sərbəst fikir söyləmələrinə şərait yaradılır və onların məntiqi düşünmələrinə dəstək verilir.)
Ehtiyac olduğu halda müəllim şagirdlərə maskalardan nəfəs yollarını qorumaq üçün necə istifadə olunduğunu izah edir. Həmçinin müəllim maskaları taxdıqdan sonra bir neçə şagirdin onlardan düzgün istifadə qaydalarını nümunə olaraq nümayiş etdirməsini xahiş edə bilər. Müəllim burnu və ağzı tamamilə örtmək, maskaya toxunmamaq və istifadədən sonra maskanı dəyişdirmək kimi qaydaların vacib olduğunu vurğulayır. Bu fəaliyyətlə şagirdlərdə əsaslandırma, nəticəçıxartma, izahetmə, şərhetmə, təqdimetmə bacarıqları inkişaf etdirilir.

**ÖYRƏNMƏ** Mətndə əsas diqqət texnogen qəzalar zamanı havaya atılan qazlara və toz hissəciklərinə, zəhərli maddələrin və hidrodinamik qəzaların insanlara və ətraf mühitə yaratdığı təhlükələrə yönəldilir. Havaya zəhərli maddələrin yayılması, hidrodinamik qəzalar zamanı insanların əməl etməli olduğu təhlükəsizlik qaydaları mövzunun öyrənmə hissəsində addım-addım izah edilir. Müəllim mövzu ilə bağlı məlumatların şagirdlər tərəfindən daha dərindən mənimsənilməsini təmin etmək üçün bu sahə üzrə mütəxəssisləri məktəbə dəvət edə bilər. Bu yanaşma şagirdlərin dərsə olan marağını artırar. Dəvət olunan mütəxəssis havaya zəhərli maddələrin yayılması və hidrodinamik qəzalara dair maraqlı faktlar, hadisələr haqqında danışa, şagirdləri də cəlb edərək belə texnogen qəzalar zamanı əməl etməli olduqları davranış qaydalarını praktik olaraq nümayiş etdirə bilər. Dərsin bu üsulla qurulması öyrənmə prosesini daha da maraqlı edər.

**Müzakirə**

• *Havaya zəhərli maddələrin yayılması ətraf mühit və canlıların həyatı üçün hansı təhlükəni yaradır?*
Bu suala şagirdlər mətndən öyrəndikləri məlumat əsasında belə cavab verə bilərlər: canlıların sağlam yaşaması üçün təmiz havanın, suyun, torpağın və Günəş enerjisinin olması vacibdir. Texnogen qəzalar zamanı isə qazlar, toz hissəcikləri və zəhərli maddələr havanın çirklənməsinə səbəb olur. Çirklənmiş hava da canlılara və ətraf mühitə ciddi zərər vurur.

• *Hidrodinamik qəzalar və havaya zəhərli maddələrin yayılması zamanı təhlükəsizlik qaydalarına əməl etmək nə üçün vacibdir?* Şagirdlər mətndən öyrəndikləri təhlükəsizlik qaydalarını bir-bir sadalayıb vacibliyini izah edə bilərlər. (Şagirdlərin mümkün cavabları belə ola bilər: Hidrodinamik qəzalar zamanı su sürətlə ətrafa yayıla, bu isə insanların evlərinə və ya yollarına zərər verə bilər. Bu vaxt suyun çox olduğu yerlərdən uzaq durmaq və yüksək yerlərə getmək çox vacibdir. Havaya zəhərli maddələr yayılanda isə həmin hava ilə nəfəs alan canlılara zərər dəyə bilər. Belə hallarda qoruyucu maska taxmaq, pəncərələri bağlamaq və bayıra çıxmamaq lazımdır ki, zəhərli havadan qoruna bilək. Bu təhlükəsizlik qaydalarına əməl etmək sağlamlığımızı qorumağa və təhlükəsizlikdə qalmağımıza kömək edər).
Müəllim mövzu üzrə əlavə suallarla müzakirəni genişləndirə bilər.

**TAPŞIRIQ** Dərslikdə verilmiş tapşırıq şagirdlərin mövzunu nə dərəcədə mənimsədiklərini müəyyən edir. Şagirdlər tapşırıq üzrə fikirlərini əsaslandırırlar. Bu tapşırıq sinfə lazım olan avadanlıqlar gətirilməklə də şagirdlər tərəfindən praktik olaraq yerinə yetirilə bilər.

**Diferensial təlim.**

*Dəstək.* Şagirdlərdən havaya zəhərli maddələrin yayılması və hidrodinamik qəzalar zamanı hamının götürməli olduğu əşyaların siyahısı soruşula bilər.
*Dərinləşdirmə.* Şagirdlərə havaya zəhərli maddələrin yayılmasının və hidrodinamik qəzaların yarada biləcəyi təhlükələrin nəticələri barədə danışmaq tapşırıla bilər.

**ÖZÜNÜZÜ YOXLAYIN**

• Hidrodinamik qəza nə deməkdir? Hidrodinamik qəzaya nələr səbəb ola bilər? (*Müxtəlif səbəblərdən su bəndlərinin dağılması, su kanallarının daşmasıdır. Hidrodinamik qəzalar insanların evlərinə və təsərrüfata ziyan vura bilər.*)

Layihə

• Havaya zəhərli maddələrin yayılması zamanı nə etməliyik? (*Təhlükəsizlik qaydalarına əməl etmək lazımdır: Elektrik və qaz cihazlarını xətdən ayırmaq, qapı-pəncərələri bərk bağlamaq, maska və ya əleyhqazdan istifadə etmək, ev heyvanlarını açıb sərbəst buraxmaq, lazım olan əşyaları çantaya yığıb təhlükəsiz yerə getmək)*

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| Havaya zəhərli maddələrin yayılmasını izah edir. | Fəaliyyət |
| Havaya zəhərli maddələrin yayılması zamanı əməl edilməli təhlükəsizlik qaydalarını sadalayır. | Fəaliyyət, tapşırıq |
| Hidrodinamik qəzaları təsvir edir. | Fəaliyyət, tapşırıq |
| Hidrodinamik qəzalar zamanı əməl edilməli təhlükəsizlik qaydalarını sadalayır. | Müzakirə, tapşırıq |

## Mövzu 26

**Təhlükəsizlik nişanları**
- **Dərslik:** səh. 105
- **İş dəftəri:** səh. 70

| | |
|---|---|
| **Alt-standartlar** | **3-3.2.1. Qadağan və xəbərdarlıq işarələrinin mənasını izah edir.** |
| **Təlim məqsədləri** | •İnşaat ərazisi, su kanallarının yaxınlığı, su hövzələri, su anbarları, döyüş əməliyyatları aparılmış ərazilərdə qoyulan qadağan və xəbərdarlıq işarələrinin mənasını izah edir.<br>•Qadağan və xəbərdarlıq işarələrinə əməl etməyin vacibliyini əsaslandırır. |
| **Köməkçi vasitələr** | Tapşırıq kartları, marşrut vərəqləri, fit. |
| **Resurslar** | *https://www.youtube.com/watch?v=POqz9Ooephk* |

**Dərsin qısa planı**
**Cəlbetmə.** Həyat üçün təhlükə barədə xəbərdarlıq üsulları
**Fəaliyyət.** "Dayanacaqlararası gəzinti"
**Öyrənmə.** Həyat üçün təhlükə yarana bilən ərazilər, qadağan və xəbərdarlıq işarələri barədə məlumat
**Tapşırıq.** Dərslik: tap. №.1. İD: №.1-4
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Mövzuya dərslikdə verilən materialla başlamaq olar. "Şəkildəki uşaqların həyatı üçün hansı təhlükə var?" Şagirdlərin cavabları uşaqların yuxarıdan suya yıxılmaq təhlükəsi barədə olacaq. Növbəti sual bu təhlükəni uşaqların nəzərinə necə çatdırmaqla bağlıdır. "Uşaqları sahilə yaxınlaşmağın təhlükəli olmasından necə xəbərdar edərdiniz?" sualına cavab olaraq şagirdlər maraqlı fikirlər söyləyə bilərlər. Şagirdlərin mülahizələri dinlənilir. Cavabların arasında təhlükəni xəbər verən nişanlar, yaxud buna bənzəyən bir təklif olarsa, müəllim müzakirəni dərsin mövzusuna uyğun olaraq həmin istiqamətə yönəldir. Bundan sonra dərsin fəaliyyət mərhələsinə keçilir.

**FƏALİYYƏT** **"Dayanacaqlararası gəzinti"**
Fəaliyyəti yerinə yetirmək üçün müəllim şagirdləri qruplara bölə bilər. Sonra şagirdlərlə birlikdə 4 dayanacaq müəyyənləşdirilir və bir nəzarətçi seçilir. Dayanacaqlar bir-birindən mümkün məsafələrdə qoyulmuş 4 masa ola bilər.
Masaların üstünə dayanacaqların adları yazılıb qoyulur. 1-ci dayanacaq "SAHİL", 2-ci "İNŞAATÇILAR", 3-cü "ŞƏLALƏ", 4-cü "QƏLƏBƏ" adlandırılır. Hər dayanacaqda bir tapşırıq kartı qoyulur. Qruplar marşrut

Layihə

vərəqini götürüb dayanacaqlararası gəzintiyə başlayırlar. Sinifdə qarışıqlıq düşməməsi üçün müəllim qrupların marşrut vərəqində dayanacaqların ardıcıllığını göstərə bilər.
Dayanacaqların ardıcıllığı: I qrup –1,2,3,4; II qrup – 2,3,4,1; III qrup – 3,4,1,2; IV qrup – 4,1,2,3.
Qruplar dayanacaqdan dayanacağa keçərək oradakı kartlarda verilən tapşırığı yerinə yetirirlər. Bunun üçün qruplara hər dayanacaqda 6 dəqiqə vaxt verilir. Nəzarətçi 6 dəqiqənin başlanması və bitməsi barədə fitlə xəbərdarlıq edir. Gəzinti başa çatandan sonra nəticələr müzakirə olunur.
Müzakirəni debat şəklində qurmaq olar. Debat arqument, əsaslandırma və tənqidi yanaşma tələb edən üsuldur. Debatda qruplar növbə ilə öz marşrut vərəqlərində yazdıqları fikri (qayda, tövsiyə məsləhət) müdafiə etməlidirlər. Digər qruplara bu arqumentləri dinləmək, suallar hazırlayıb əks arqumentlər gətirmək təklif olunur. Məsələn, tutaq ki, qrupun yaxınlığında tikinti işləri gedən uşaq meydançasında uşaqlar üçün yazılan 3 qaydadan biri belədir: “*Meydançaya daxil olmaq qadağandır!*” Qaydanı yazan qrup arqumentlər gətirərək fikrini əsaslandırır. Digər qruplar isə “*Bu, uşaqların istirahət hüququnun pozulmasıdır”* kimi əks arqument gətirərək fikri təkzib edirlər. Qruplar bu qayda ilə bir-bir çıxış edib fikir bildirirlər. Hər dayanacaqla bağlı bir və ya bir neçə qayda, məsləhət , tövsiyə debatda müzakirə olunur. Müzakirə olunacaq fikirləri şagirdlər özləri seçə bilərlər. Bu cür debat zamanı mümkün təhlükələr və onların nəticələrinə də toxunulur.

**ÖYRƏNMƏ** Mətndə vaxt keçirdiyimiz hər yerdə diqqətli olmaq sağlamlığı qorumağın bir şərti kimi vurğulanır.Həyat üçün təhlükə yarana biləcək ərazilər qeyd olunur. Göstərilir ki, belə yerlərdə diqqətsizlik, yaxud laqeydlik göstərmək insanların sağlamlığını, hətta həyatlarını itirməsi ilə nəticələnən bədbəxt hadisələrə səbəb ola bilər. Fənn kurikulumunda təsbit olunan alt-standartın tələbinə uyğun olaraq mətndə su hövzələrinin sahili, inşaat işləri aparılan sahələr, müharibə vaxtı döyüş yeri olmuş ərazilərdə qoyulan təhlükəsizlik nişanları və onların elementləri haqqında məlumat verilir. Mətndə qadağan və xəbərdarlıq nişanlarının fərqi, onların daşıdığı məna da açıqlanır.
Qeyd etmək lazımdır ki, minalanmış ərazilərdə fərqli qadağanedici nişanlar qoyula bilər. Bu cür nişanlar çoxdur. Şagirdlərin diqqətini nişanların hamısı üçün ümumi olan elementlərə cəlb etməklə bu nişanların hamısının eyni məqsədə xidmət etdiyini vurğulamaq vacibdir. Əks-təqdirdə şagirdlər nişanlar arasındakı zahiri fərqlərə görə onlara “bu bizə öyrədilən nişan deyil, demək, mina təhlükəsizliyi ilə bağlı olmaya bilər” düşüncəsi ilə yanaşıb yanıla bilərlər.
**Müzakirə**
- İnşaat işləri aparılan ərazilərdə hansı zədələri almaq ehtimalı var? Daha çox zədələnmə təhlükəsi ola bilər.
- Sizcə, nə üçün xəbərdaredici nişanlar sarı, qadağanedici nişanlar isə qırmızı rəngdə tərtib olunur? Diqqət çəkiciliyinə görə.

**TAPŞIRIQ** Tapşırıqda verilmiş şəkillərdən istifadə edərək plakat, qadağanedici və xəbərdaredici nişanlar hazırlamaq təklif olunur. Təqdim olunan şəkillərdə hazırlanan nişanlar və plakat tikinti işləri aparılan sahələrə, döyüş yerləri olmuş ərazilərə aiddir. Su hövzələrinin sahilində gəzməyin uşaqlar üçün təhlükəli olmasını bildirən nişanın da hazırlanması nəzərdə tutulur. Müəllim şagirdlərə başqa vasitələrin təqdimatını, yaxud sərbəst plakat və nişanlar hazırlamağı təklif edə bilər.
**Diferensial təlim.**
*Dəstək*. Şagirdlərə qadağanedici və xəbərdaredici nişanların göstərişlərinə laqeyd yanaşmağın mümkün nəticələri barədə danışmağı təklif etmək olar.
*Dərinləşdirmə*. Şagirdlərdən daha hansı yerlərə qadağanedici və xəbərdaredici nişanlar qoymağı vacib hesab etdiklərini soruşmaq olar.
***Müəllim üçün məlumat.***
TƏHLÜKƏSİZLİK NİŞANLARI
Təhlükəsizlik nişanları əlaqənin qrafik növünə aiddir və həyat üçün təhlükə olan hər yerdə qoyulur. Nişanlar rəng, forma (kvadrat, üçbucaq ) və yazı vasitəsilə təhlükəsizlik məlumatlarını çatdırmaq üçündür. Regional dəyişikliklər olsa da, təhlükəsizlik nişanları əsas 5 qrupa ayrılır. Rənglərinə görə onlar aşağıdakı kimi qruplaşdırılır:

Layihə

QIRMIZI (DAXİLİNDƏ AĞ RƏNG) – qadağa bildirən. Heç bir halda qadağa edilmiş nişanların tələblərindən kənara çıxmaq olmaz;
SARI – təhlükə haqqında xəbərdarlıq;
GÖY – vaciblik, məcburi tələblər üçündür. Həmçinin məlumat xarakterli nişanlar üçün də səciyyəvidir.
YAŞIL – təhlükəsizlik avadanlıqları (gözyuma məntəqəsi, ilk tibbi yardım qutusu) və yerləri (qəza çıxışı, toplantı məntəqəsi) haqqında məlumat verir;
TÜND QIRMIZI (AĞ RƏNGSİZ) – yanğın təhlükəsizliyinə aid (yanğınsöndürən balonlar, yanğın siqnalı və s.) nişanlardır.
*EHS Europe / EHS Azerbaijan (Environment, Health and Safety) (Ətraf mühit, Sağlamlıq və Güvənlik)*

**Özünüzü yoxlayın**.

- Hansı ərazilərdə həyat üçün təhlükə ola bilər? *(dəniz və çayların sahili, su anbarlarının ətrafı, inşaat işləri gedən ərazilər, müharibə döyüşləri gedən ərazilər)*
- Qadağanedici və xəbərdaredici nişanlar necə fərqlənir? *(formasına görə)*

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialı |
|---|---|
| İnşaat ərazisi, su kanallarının yaxınlığı, su hövzələri, su anbarları, döyüş əməliyyatları aparılmış ərazilərdə qoyulan qadağan və xəbərdarlıq işarələrinin mənasını izah edir. | Tapşırıq 1 (Dərslik) |
| Qadağan və xəbərdarlıq işarələrinə əməl etməyin vacibliyini əsaslandırır. | Fəaliyyət, müzakirə (Dərslik) |

## Mövzu 27

**Danışan nişanlar**
- **Dərslik:** səh. 108
- **İş dəftəri:** səh. 72

| | |
|---|---|
| **Alt-standartlar** | **3-3.2.3. Nəqliyyat vasitələrində təhlükəsizlik qaydalarını izah edir.**<br>**3-3.2.4. Zəruri yol nişanlarını fərqləndirir.** |
| **Təlim məqsədləri** | • Dəmir yolu stansiyalarında və qatarlarda davranış qaydalarını izah edir.<br>• Xəbərdarlıq, qadağan, məlumatverici-göstərici nişanları fərqləndirir. |
| **Köməkçi vasitələr** | Xəbərdarlıq, qadağan, məlumatverici-göstərici nişanların təsviri olan yol nişanları, oyuncaq nəqliyyat vasitələri |
| **Resurslar** | *https://www.instagram.com/azerbaycandemiryollari/reel/DBJidaZt5NU/*<br>*https://www.instagram.com/azerbaycandemiryollari/reel/C2cMljesl4u/*<br>*https://www.instagram.com/azerbaycandemiryollari/reel/C58BZzAKDJ_* |

**Dərsin qısa planı**
**Cəlbetmə.** Dəmir yolunda xəbərdarlıq, qadağan və məlumatverici-göstərici nişanlar
**Fəaliyyət.** İşarələr kataloqu
**Öyrənmə.** Dəmir yolu stansiyalarında, qatarlarda davranış qaydaları və yollardakı zəruri yol nişanları
**Tapşırıq.** Dərslik: tap. №1,2. İD: №1-4
**Özünüzü yoxlayın.**
**Formativ qiymətləndirmə.**

**CƏLBETMƏ** Müəllim xəbərdarlıq, qadağan, məlumatverici-göstərici nişanlardan və oyuncaq nəqliyyat vasitələrindən istifadə etməklə dərslikdə verilmiş təsvirə uyğun sinifdə müxtəlif situasiyalar yarada və şagirdlərin diqqətini bu situasiyalara yönəldərək sual verə bilər:
– *Bu hallar nə zaman təhlükəli ola bilər? Nə üçün?* (Şagirdlərin mümkün cavabları: Sürücülər və piyadalar üçün məlumat, yaxud xəbərdarlıq nişanı yoxdur. Velosipedçilər onlar üçün nəzərdə tutulan yol ilə getmir. Bu, təhlükəli ola bilər. Piyadalar yolu piyada keçidindən istifadə etməklə keçmir.)
Şagirdlərin cavablarından sonra müəllim onlara növbəti sualı verə bilər:

Layihə

– *Yollarda təhlükəsizlik necə təmin oluna bilər? Fikrinizi əsaslandırın.* (Şagirdlərin mümkün cavabları: Yollarda zəruri yol nişanları quraşdırılmalıdır. Bu nişanlar həm sürücüləri, həm də piyadaları yolda olan təhlükələr haqqında xəbərdar edər, məlumatlandırar. və s.)
Şagirdlərin cavablarından sonra müəllim onların diqqətini dərslikdəki şəklə yönəldir:
– *Sizcə, Səbinə hansı səbəbdən qəza olacağını düşünür?*
Şagirdlər "yolun şlaqbaumla bağlı olması", "qarşıdakı dəmir yolundan qatarın keçə biləcəyi", "qırmızı işığın yanması" və s. kimi mümkün uyğun cavabları səsləndirə bilərlər.
– *Sizcə, yaşıl maşının sürücüsü nəyə diqqət etməyib?*
Şagirdlər "yol kənarında qoyulmuş xəbərdarlıq nişanına", "dəmiryolunda yanan qırmızı işığa" cavablarını səsləndirə bilərlər. Bu müzakirə sualları ilə şagirdlərin mövzu ətrafında fikirləri alına bilər.

**FƏALİYYƏT** Dərslikdəki fəaliyyətin praktikliyini təmin etmək üçün şagirdlər iki qrupa bölünürlər. Hər qrup verilən nişanlara uyğun izahat hazırlayır.

***Təklif:*** Müəllim sinifdəki şagirdlərin rəsm çəkmək imkanlarını nəzərə alaraq, qrupların tərkibini müəyyən edərkən hər bir qrupa rəsm bacarığı olan şagirdlər sala bilər. Bu zaman tapşırığın təlimatına qruplara verilən nişanların şəklini çəkmək və hər bir nişanın qarşısında izahını yazmaq əlavə edilə bilər. Tapşırığın aydın olması üçün müəllim şagirdlərə ipucu verə bilər: nişanın forması, rəngi, simvollar və s.
Hər bir komanda hazırladığı kataloqu təqdim etdikdən sonra müəllim dərslikdəki suallarla bərabər, aşağıdakı suallarla da şagirdlərin "İşarələr kataloqu" fəaliyyətinə uyğun məlumatlılıqlarını genişləndirə bilər:
– *Kataloqa daxil etdiyiniz nişanlar təhlükəsizliyi necə təmin edər?*
– *Hər iki komandanın hazırladığı kataloqdakı nişanların oxşar və fərqli cəhətləri hansılardır? İzah edin.*
– *Kataloqa daxil etdiyiniz nişanların tələblərinə əməl etməmək hansı nəticələrə səbəb ola bilər?*
"İşarələr kataloqu" fəaliyyətinə dair suallarla şagirdlərdə təsəvvürlərini ifadəetmə, izahetmə, şərhetmə, müqayisəetmə, fərqləndirmə, əsaslandırma kimi bacarıqlar inkişaf etdirilir.

**ÖYRƏNMƏ** Mətndə xəbərdarlıq, qadağan və məlumatverici-göstərici nişanlar, dəmir yolu stansiyalarında və qatarlarda əməl edilməli olan davranış qaydaları haqqında danışılır. Xəbərdarlıq, qadağan, məlumatverici-göstərici nişanların forması, rəngi, tətbiq olunduğu yerlər, nəyi ifadə etdiyi izah olunur. Xəbərdarlıq, qadağan, məlumatverici-göstərici nişanların tanınmasının və onların tələblərinə əməl olunmasının vacibliyi qeyd edilir.
Mətndə əsas diqqət həm də mövzunun digər məqsədinə – dəmir yolu stansiyalarında və qatarlarda əməl edilməli olan davranış qaydalarına yönəldilir. Dəmir yolu stansiyalarında və qatarlarda təhlükəsiz davranış qaydaları sadalanır. Qatara minmək və düşmək qaydaları izah olunur. Qatarın pəncərəsindən başını və qolunu çölə çıxarmağın, sallanmağın, qapıya söykənməyin, platformada müvafiq qaydalara əməl olunmamasının təhlükəli olduğu vurğulanır.
Mövzu ilə bağlı məlumatların bu sahədə fəaliyyət göstərən peşə sahiblərindən eşidilməsi şagirdlərin dərsə olan marağını artırar. Bunu nəzərə alaraq şagirdlərin valideynlərindən yol polisi, dəmiryolu stansiyalarında və qatarlarda çalışan peşə sahibi (maşinist, bilet nəzarətçisi, vağzal işçisi, təhlükəsizlik işçisi və s.) varsa, həmin valideynlər öz xidməti geyimlərində məktəbə dəvət oluna bilərlər. Dəvət olunan valideynlər sahib olduqları peşəyə dair maraqlı faktlar, hadisələr haqqında danışa, xəbərdarlıq, qadağan, məlumatverici-göstərici nişanlarının tələblərini, o cümlədən dəmir yolu stansiyalarında və qatarlarda şagirdlərin əməl etməli olduqları davranış qaydalarını sadalaya bilərlər. Şagirdləri də cəlb edərək yolda və dəmiryol stansiyalarında, qatarlarda əməl olunmalı davranış qaydalarını praktik nümayiş etdirmək olar. Dərsin bu qaydada qurulması öyrənmə prosesini daha maraqlı edər.

**Müzakirə**

• *Yol nişanları olmasaydı, nə baş verərdi?*
Bu suala şagirdlər mətndən öyrəndikləri məlumat əsasında cavab verə bilərlər: əgər yol nişanları olmasaydı, yollarda qarışıqlıq yaranardı. Sürücülər hansı istiqamətə getməli, harada dayanmalı və ya harada sürəti azaltmalı olduqlarını bilməzdilər. Bu da tez-tez qəzalara səbəb olardı.
• *Dəmiryolu stansiyasında və qatarda davranış qaydalarını bilmək, onlara əməl etmək nə üçün vacibdir?*
Şagirdlər mətndən öyrəndikləri təhlükəsizlik qaydalarını bir-bir sadalayıb izah edə bilərlər. Onlar sualı cavablandıraraq səbəb-nəticə zəncirini qurur, təhlükəsizliyə yönələn davranışları şərh edirlər.



Layihə

**TAPŞIRIQ** Dərslikdəki **tapşırıq 1**-ə aid verilən nişanı izah etməklə şagirdlər xəbərdarlıq nişanını rənginə, formasına, nişanda təsvir olunan simvola görə şərh edirlər.

**Tapşırıq 2**-də isə şagirdlər verilmiş yol nişanları arasından qadağan nişanlarını seçir və hər birinin izahını verirlər.

**Diferensial təlim.**

*Dəstək.* Şagirdlərdən qatara minərkən hansı təhlükəsizlik qaydalarına riayət etməli olduqları soruşula bilər.

*Dərinləşdirmə.* Şagirdlərə xəbərdarlıq, qadağan və məlumatverici-göstərici nişanların yol hərəkətində təhlükəsizliyi necə təmin etdiyinin izahını tapşırmaq olar.

**ÖZÜNÜZÜ YOXLAYIN**

• Xəbərdarlıq və məlumatverici-göstərici nişanlar bir-birindən hansı xüsusiyyətlərinə görə fərqlənir? (*Xəbərdarlıq nişanları sürücüləri və piyadaları təhlükəli, yaxud diqqət yetirilməli yerlər barədə xəbərdar edir. Məlumatverici-göstərici nişanlar isə bizə yolda nə etmək lazım olduğunu və ya hansı yerlərə getməli olduğumuzu göstərir.*)

• Dəmiryol stansiyasında hansı hərəkətlər həyatımız üçün təhlükə yarada bilər? (*Platformanın kənarına çox yaxın dayanmaq, qaçmaq və ya sürətlə hərəkət etmək, qatar dayanmazdan əvvəl minməyə çalışmaq, qatar relslərinə yaxınlaşmaq və s.*)

• Qatarda hansı davranış qaydalarına əməl etməliyik? (*Qatarın pəncərəsindən boylanmamaq, pilləkəndə və keçid meydançasında dayanmamaq, vaqonlara minib-düşərkən digər sərnişinlərə mane olmamaq və s.)*

**Formativ qiymətləndirmə**

| **Qiymətləndirmə meyarları** | **Qiymətləndirmə materialı** |
|---|---|
| Dəmir yolu stansiyalarında və qatarlarda davranış qaydalarını izah edir. | Fəaliyyət |
| Xəbərdarlıq, qadağan, məlumatverici-göstərici nişanları fərqləndirir. | Fəaliyyət, tapşırıq 1,2 |

Layihə